DEMOKRATİYAYA GEDƏN UZUN YOLDA...

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASI

Məqalələr, müsahibələr
2019–2020

Hikmət Hacızadə

qanun nəşriyyatı

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

Bu kitabda Azərbaycanın müstəqillik uğrunda apardığı mübarizənin liderlərindən biri, görkəmli siyasi və ictimai xadim Hikmət Hacızadənin 2019-2020-ci illərdə yazdığı məqalələri və media nümayəndələrinə verdiyi müsahibələri yer alır.

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

Hikmət Hacızadə
DEMOKRATİYAYA GEDƏN UZUN YOLDA...
Məqalələr, müsahibələr (2019–2020)
Bakı, Qanun Nəşriyyatı, 2024, 296 səh.

Ölçü: 145x215 mm
Cild: qalın
Çapa imzalandı: 14.08.2024

Kitabın tərtibatçıları: Bahar Hacızadə
Sabit Bağırov
Korrektor: Əyyar Tahir
Mətn dizaynı: Aytac Abdul
Texniki redaktor: Xəyalə Əhmədova

Üz qapağındakı rəsm İlya Kabakovun "Mən azadam" rəsmidir (fraqment)

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pr., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-997-5

© Hikmət Hacızadə, 2024
© Qanun Nəşriyyatı, 2024

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

“Demokratiyanı axtarın, ona can atın...
Müstəqil olmaq istəyiriksə, böyük intellektual və mənəvi
səy göstərməliyik. Özümüzə qalib gəlməliyik.
Onda görərsiz ki, dünya da bizə əl tutur,
Tanrı da bizə yar olur”.

Hikmət Hacızadə

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

İÇİNDƏKİLƏR

ÖN SÖZ 11
AZƏRBAYCAN-UKRAYNA:
ORTAQ CƏHƏTLƏR DƏ ÇOXDUR, FƏRQLƏR DƏ 13
CƏNUBİ QAFQAZDA ŞƏRQ PƏLƏNGİ 18
PAŞİNYAN – MÖCÜZƏYƏ SON ÜMİD 23
RUSİYA HƏM ERMƏNİSTANI,
HƏM DƏ AZƏRBAYCANI QARMAQDA SAXLAMAQ İSTƏYİR 26
XƏZƏRİN BÖLÜNMƏSİ HAQQINDA
MÜQAVİLƏ HAZIRDIR: BÜTÜN TƏRƏFLƏR
ÖZ QƏLƏBƏLƏRİNİ BƏYAN EDİR 30
Aİ VƏ AZƏRBAYCAN SAZİŞ İMZALADI.
SİYASİLƏR HƏBSDƏ 35
ERMƏNİSTAN İNQİLABININ
TƏXİRƏSALINMAZ VƏZİFƏLƏRİ HAQQINDA 39
AZƏRBAYCAN-FRANSA: $2 MLRD.
VƏ İNSAN HÜQUQLARI HAQQINDA
BİR KƏLİMƏ BELƏ YOXDUR 44
RUSİYADA 9 SENTYABR SEÇKİLƏRİ
SÜRPRİZLƏR GƏTİRƏ BİLƏR 47
QIRĞIZISTANDA TÜRKDİLLİ ÖLKƏLƏRİN ALTINCI
SAMMİTİ KEÇİRİLİB. PANTÜRKİZM YAŞAYIRMI? 49
ERMƏNİSTAN – İNQİLAB SONRASI SİNDROM
VƏ YENİLMƏZ MANEVRLƏR 54
AZƏRBAYCAN VƏ ERMƏNİSTAN
MÜHARİBƏ ŞƏRAİTİNDƏ 60

HİKMƏT HACIZADƏNİN
ARXİV
2025
KİTABXANASINDAN

БАКУ ЗАИНТЕРЕСОВАН В ОСВОБОЖДЕНИИ
КАРАБАХА, А МОСКВА – В ПОЯВЛЕНИИ
СВОИХ ВОЙСК В АЗЕРБАЙДЖАНЕ 64
ERMƏNİSTAN UĞRUNDA MÜBARİZƏ:
PARLAMENT MƏRHƏLƏSİ 67
PUTİNİN REYTİNQİ DÜŞÜR, AMMA, GÖRÜNÜR,
O, VƏZİYYƏTİ NECƏ DÜZƏLDƏ BİLƏCƏYİNİ BİLİR 71
США ПЛАНИРУЮТ ЗАМКНУТЬ КОЛЬЦО ВОКРУГ ИРАНА,
А ДЛЯ ЭТОГО ИМ НЕОБХОДИМ СОЮЗ С БАКУ 75
POLİETNİKLİK TÜRKİYƏ VƏ AZƏRBAYCANDA MİLLİ
BİRLİK ÜÇÜN PROBLEM KİMİ 78
ŞƏRAB SATAN REKTOR, KLANLAR,
QƏRBÇİLƏR VƏ RUSPƏRƏSTLƏR 85
PAKİSTAN AZƏRBAYCANIN STRATEJİ
MÜTTƏFİQİ OLACAQMI? 89
QARABAĞLA BAĞLI DANIŞIQLAR BƏRPA EDİLİB,
AMMA SÖHBƏT NƏDƏN GEDİR? 93
QARABAĞ DANIŞIQLARI NİYƏ LƏNGİYİR? 96
İSTƏRDİM Kİ, EYNİ SƏRBƏST SEÇKİLƏR
ÖLKƏMİZDƏ DƏ OLSUN 99
ABŞ İRANIN BOYNUNA KEÇİRDİYİ
SANKSİYA İLGƏYİNİ SIXIR 101
MƏN İNANIRAM Kİ, BİZDƏ DƏ ELƏ SEÇKİ OLACAQ 107
ВЫСТУПЛЕНИЕ В ПОЛЬСКОМ СЕЙМЕ НА САММИТЕ СПИКЕРОВ
ПАРЛАМЕНТОВ ЦЕНТРАЛЬНОЙ И ВОСТОЧНОЙ ЕВРОПЫ
И КОНФЕРЕНЦИИ ПОСВЯЩЕННОЙ 30-Й ГОДОВЩИНЕ
ПЕРВЫХ СВОБОДНЫХ ВЫБОРОВ В ПАРЛАМЕНТ
ПОЛЬШИ – 5 ИЮНЯ 1989 ГОДА (EUROWAW2019) 110
ПАСЕ — БЕССМЫСЛЕННАЯ ОРГАНИЗАЦИЯ 113
ÖLKƏ SİLKƏLƏNƏCƏK, CİDDİ PROSESLƏR BAŞ VERƏCƏK… 115
SƏRHƏDDƏ MONASTIR? HƏR ŞEY OLDUĞU
KİMİ QALACAQ 118
ZELENSKİ BİC ADAMDIR 122
TOKAYEV: QAZAXISTAN HAKİMİYYƏTİNDƏ
SOVET MƏMURU 124
WELCOME TO AZERBAİJAN! 128

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

RAMİL USUBOVUN AĞSAQQAL SÖZÜ KEÇƏCƏKMİ?
BİLMİRİK... 134
REAL MÜSTƏQİLLİK YOLUNDA SÜRƏT 135
RF ŞƏHƏR PARLAMENTLƏRİNƏ SEÇKİLƏR
OLİQARXİYANIN SONUNUN BAŞLANĞICIDIR? 139
RUSİYA QOŞUN YERİDƏCƏK,
AZƏRBAYCANI ƏBƏDİ QARMAQDA SAXLAYACAQ 144
KİŞİ OLMASAN, ADAM OLA BİLMƏZSƏN 147
ƏRDOĞAN BU OYUNDAN QALİB ÇIXDI 153
...DEMOKRATİK STANDARTLARA CAVAB
VERMƏYƏN BİR SEÇKİ KAMPANİYASINI MƏN GÖRDÜM 157
9 FEVRAL SEÇKİLƏRİ VƏ GƏNC SİYASƏTÇİLƏR... 158
RUSLAR KƏLBƏCƏRİN İŞĞALI ƏRƏFƏSİNDƏ
MƏNƏ EYHAMLAR VURURDU 159
AZƏRBAYCANA TRAMP SƏRFDİR,
ƏLEYHDARLARIMIZA QARŞI
SANKSİYALARI GÜCLƏNDİRİR 160
RUS MƏKTƏBLƏRİ BİZƏ NƏ VERİR? 163
RUSİYANIN QARABAĞA SÜLHMƏRAMLI
QÜVVƏ YERLƏŞDİRMƏSİNƏ İMKAN VERMƏMƏLİYİK 166
ОТВЕТЫ НА ВОПРОСЫ ГАЗЕТЫ 7 ГЮН 172
ГРАЖДАНСКИЙ КОНТРОЛЬ НАД ВООРУЖЕННЫМИ
СИЛАМИ В МОЛОДЫХ ГОСУДАРСТВАХ.
НА ПРИМЕРЕ АЗЕРБАЙДЖАНА 176
İNFORMASİYA MƏNBƏLƏRİNƏ SƏRBƏST GİRİŞ 188
AMERİKA QADINI 198
HUMAN RIGHTS AND RELIGIOUS
FREEDOM IN AZERBAIJAN 200
АНТИЗАПАДНАЯ ПАРАДИГМА СОВРЕМЕННОЙ РОССИЙСКОЙ
ПРОПАГАНДЫ В РОССИИ И НА ЮЖНОМ КАВКАЗЕ 208
MİLLİ DƏYƏRLƏR VƏ AVROPA DƏYƏRLƏRİ 216
АЗЕРБАЙДЖАН ЗАЛОЖНИК КОНФЛИКТА
МЕЖДУ РОССИЕЙ И НАТО 227
АЗЕРБАЙДЖАН НЕ ДОЛЖЕН СЕБЯ ТАК ВЕСТИ
С ВЕЛИКИМИ ДЕРЖАВАМИ 230
ЕСТЬ НАДЕЖДА НА ДЕМОКРАТИЧЕСКИЙ ИСХОД 236

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

ЗАПАД НИЧЕГО НЕ ЗАБЫВАЕТ:
ВЛАСТЯМ ПРИДЕТСЯ РАСПЛАЧИВАТЬСЯ.....239
ПРАВО ГОСДЕПУ США УКАЗЫВАТЬ НА НАРУШЕНИЕ
ПРАВ ЧЕЛОВЕКА В СТРАНЕ ПРЕДОСТАВИЛИ
ВЛАСТИ АЗЕРБАЙДЖАНА.....245
РАЗГОВОРЫ О КГБ И НАРОДНОМ
ФРОНТЕ – ГЛУПОСТЬ.....248
ЭТО ПОЗОР ДЛЯ ВЛАСТЕЙ.....251
Я ВИЖУ БОЛЬШОЙ КРИЗИС В МУСУЛЬМАНСКОМ МИРЕ.....253
PURİSTS VERSUS LİBERTİNES 257

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

ÖN SÖZ

Hörmətli oxucu!

Bu kitab Azərbaycan Respublikasının görkəmli siyasi xadimi Hikmət bəy Hacızadənin 2019–2020-ci illərdə yazmış məqalələrinin və kütləvi informasiya vasitələrinə vermiş müsahibələrinin toplusudur. H.Hacızadənin 1988–2018-ci illəri əhatə edən məqalə və müsahibələr 1-ci, 2-ci və 3-cü cildlərdə təqdim edilir.

Hikmət bəy 1993-cü ilin iyul ayında Azərbaycan Hökumətində tutduğu yüksək vəzifələri tərk etdikdən sonra həm siyasi, həm də ictimai səhnələrdə görkəmli simalardan biri olmuşdur. Bu səbəbdən ötən dövrü araşdıran həm alimlər, həm də adi vətəndaşlar (xüsusilə öz tarixi ilə maraqlanan gənclər) üçün Hikmət bəyin yazıları böyük əhəmiyyət kəsb edir.

Bütün materiallar 4-cü cilddə xronoloji ardıcıllıqla təqdim edilir. Kitabın tərtibatçıları çalışmışlar ki, Hikmət bəyin həmin dövrə aid bütün siyasi əhəmiyyətli yazıları və müsahibələri burada əks etdirilsin. Lakin, istisna edilmir ki, gələcəkdə Hikmət bəyə aid yeni materiallar tapılsın. Belə hallar olarsa, kitabın yeni nəşrində bu materialların daxil edilməsinə yəqin ki, çalışılacaq.

Satış üçün nəzərdə tutulmayıb

Materiallar kitaba orijinal dildə və üslubda daxil edilmişdir. Çünki istənilən tərcümə müəllifin fikri və hisslərini tam əks etdirə bilmir. Məhz bu səbəbdən tərtibatçılar kitaba orijinal dildəki materialı daxil etmişlər.

Sabit Bağırov

Satış üçün nəzərdə tutulmayıb

AZƏRBAYCAN–UKRAYNA: ORTAQ CƏHƏTLƏR DƏ ÇOXDUR, FƏRQLƏR DƏ[1]

Azərbaycan və Ukraynanın postsovet taleyində ortaq cəhətlər çoxdur: müstəqillik uğrunda mübarizə; ərazi bütövlüyü uğrunda mübarizə (Qarabağ, Krım və Şərqi Ukrayna); sabit inkişafa can atma...

Amma mühüm fərqlər də var: 2 aprel 2018-ci il tarixində Ukrayna prezidenti P.Poroşenko 11-ci Kiyev Təhlükəsizlik Forumunun açılışında çıxış edərkən Rusiyanın Ukraynaya qarşı təcavüzünə cavab olaraq ölkəni MDB-dən çıxarmaq niyyətində olduğunu bəyan edib.

Eyni zamanda, Azərbaycan prezidenti İ.Əliyev daim ölkəsinin MDB ölkələri ilə əlaqələri möhkəmləndirməyə (26.12.2017, Moskva), həmçinin Rusiya və Çinin üstün mövqe tutduğu Şanxay Əməkdaşlıq Təşkilatı ilə əməkdaşlığı inkişaf etdirməyə (12.04.2018, Bakı) çalışdığını bəyan edir.

Aydındır ki, AR və Ukraynanın xarici siyasəti ilk növbədə ərazi bütövlüyü problemləri ilə şərtlənib, amma Ukrayna bu problemlərin həllində köməyi Avroatlantik birliyə inteqrasiyada görür, Azərbaycan isə Rusiyanı əbədi sadiqliyinə inandırmağa ümid edir və hələlik səmərəsiz şəkildə Mos-

[1] "TURAN" İnformasiya Agentliyi, 08 May 2018

Satış üçün nəzərdə tutulmayıb

kvanı Qarabağ uğrunda mübarizədə Bakını dəstəkləməyə razılaşdırmağa çalışır.

Qeyd edək ki, iki dövlət arasında diplomatik münasibətlər 1992-ci ildə, müstəqillik əldə edildikdən sonra qurulub. Azərbaycanın Kiyevdə, Ukraynanın Bakıda səfirliyi var. Hər iki ölkə Avropa Şurasının, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT), Demokratiya və İqtisadi İnkişaf Təşkilatının (GUAM) və Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) tamhüquqlu üzvüdür. Yeri gəlmişkən, məhz Kremlin təzyiqi ucbatından Qərbin təklif etdiyi, Avropa üçün Rusiyanın ekspansiyasından müdafiə zolağı kimi düşünülmüş GUAM layihəsi zəiflədi.

GUAM-ın uğursuzluğu o demək deyil ki, Qərb bu cür planlardan əl çəkib, indi NATO tərəfindən eyni məqsədlə yeni layihə – təhlükəsizlik sahəsində Türkiyə–Ukrayna–Azərbaycan əməkdaşlığı təşviq olunur. 2017-ci ilin fevralında Brüsseldə Gürcüstan və Türkiyənin müdafiə nazirləri üçtərəfli hərbi əməkdaşlıq haqqında müqavilənin imzalanması məsələsini müzakirə ediblər.

AR və Ukrayna nümayəndələri bir-birini "strateji tərəfdaş" adlandırır və beynəlxalq səhnədə bir-birinin suverenliyini və ərazi bütövlüyünü daim dəstəkləməyə çalışırlar. Belə ki, AR (07 aprel 2015) bir neçə MDB ölkəsi ilə birlikdə ATƏT-ə göndərilən, Rusiyaya qarşı tətbiq edilmiş sanksiyalardan narazılıq ifadə edən sənədi imzalamaqdan imtina edib. Bu, Rusiyanın Ukraynanın ərazi bütövlüyünü pozmasının və Ukraynanın şərqində silahlı qruplaşmaları dəstəkləməsinin sənəddə əksini tapmaması ilə bağlı idi. 2017-ci il fevralın 7-də Ukrayna və Azərbaycan rəsmi icazə olmadan Donbasdan və Dağlıq Qarabağdan məhsul buraxmamaq barədə razılıq əldə ediblər.

Eyni zamanda, AR, çox güman ki, Kremlin təzyiqi ilə əlaqədar, BMT Baş Assambleyasında (19 dekabr 2017) Rusiyanın işğal etdiyi Krım və Sevastopolda insan hüquqları haqqında qətnamə üzrə səsvermədə bitərəf qalıb.

Satış üçün nəzərdə tutulmayıb

Siyasi sahələrdə əməkdaşlığa Ukraynanın seçdiyi demokratiya və Avroatlantika inkişaf yolu və Azərbaycanın avtoritarizmi mane olur. Ukrayna Maydanının kölgəsi bu ölkələrin əməkdaşlığı yolunda əsas maneələrdən biridir. Maydan Azərbaycanda böyük narahatlıqlar doğurur, ölkə rəhbərliyi qüvvəsinin çoxunu avtoritar sistemin sabitliyini qoruyub saxlamağa sərf edir.

Eyni zamanda, Bakıdakı hakimiyyət Maydandan ehtiyatlanırsa, Azərbaycanın müstəqil siyasi birliyi və vətəndaş cəmiyyəti tamamilə Ukraynanın bu avrointeqrasiya hərəkatının tərəfindədir.

Ticarət, silah ixracı, humanitar sahə

Ticarət, silah ixracı və energetika üzrə qarşılıqlı fəaliyyət kimi humanitar məsələlərdə isə ölkələrimiz kifayət qədər uğurla əməkdaşlıq edir.

2001-ci ildə əhalinin siyahıya alınmasının nəticələrinə görə, Ukraynada 45,2 min azərbaycanlı var idi (daha sonrakı məlumatları əldə etmək mümkün olmayıb), onların əksəriyyəti şəhərlərdə yaşayırdı. Ukraynada "Ukrayna Azərbaycanlılarının Birləşmiş Diasporası" fəaliyyət göstərir.

Azərbaycandakı ukraynalıların sayı 21,5 min nəfər təşkil edirdi (2009-cu ildə əhalinin siyahıya alınmasının nəticələrinə görə). Ukraynanın Azərbaycandakı səfirliyinin fikrincə, hazırda 4 minə yaxın Azərbaycan vətəndaşı özünü ukraynalı hesab edir. AR-də "Azərbaycanın Ukrayna Konqresi" adlı diaspora təşkilatı fəaliyyət göstərir.

Ermənistan təcavüzünə qarşı mübarizə aparan AR üçün Ukraynadan silah idxalı xüsusi aktuallığa malikdir. BMT-nin məlumatına görə:

– 2006-cı ildə Ukrayna Azərbaycana 48 ədəd T-72АГ tankı;

– 2009-cu ildə 29 БТР-70, 29 ədəd 122 millimetrlik 2С "1 "Qvozd"ka" özügedən qısalüləli ağır top və 6 ədəd 152 millimetrlik 2"3 "Akas"ya" özügedən qısalüləli ağır top, bir ədəd

 Satış üçün nəzərdə tutulmayıb

МиГ-29УБ təlim-döyüş qırıcı təyyarəsi, 11 ədəd Ми-24 helikopteri;

– 2010-cu ildə 71 БТР-70 (silahsız), 7 ədəd 122 mm çaplı 2“1 “Qvozdka” özügedən artilleriya qurğusu, 1 ədəd Ми-24P helikopteri, 1 ədəd idarə olunan raket əleyhinə kompleks, 3 min avtomat və tapança-avtomat satıb.

Ukrayna Dövlət Statistika Komitəsinin məlumatına görə, 2017-ci ildə AR və Ukrayna arasında ticarət dövriyyəsi 810 milyon dollardan artıq olub ki, bu da 2016-cı ilə görə 2,4 dəfə çoxdur; ticarət dövriyyəsinin böyük hissəsi Azərbaycan neftinin və neft məhsullarının Ukraynaya ixracının payına düşür. SOCAR Azərbaycan Dövlət Neft Şirkəti Ukraynaya artıq 300 milyon ABŞ dollarından çox yatırım edib və burada öz biznesini genişləndirmək niyyətindədir.

Mədəniyyət sahəsində və humanitar sahədə əməkdaşlıq təhsil, elm, turizm, idman sahəsində ikitərəfli sazişlər çərçivəsində həyata keçirilir və kifayət qədər uğurla inkişaf edir. Belə ki, 2015/2016-cı tədris ilində Ukrayna ali məktəblərində Azərbaycanlı tələbələrin ümumi sayı 10,4 min nəfərə çatıb və Ukraynada təhsil alan əcnəbilər arasında ən yüksək faizi təşkil edir. 2000-ci ildən etibarən Ukrayna və AR arasında “Elmi adların və təhsil sənədlərinin qarşılıqlı tanınması və ekvivalentliyi haqqında” hökumətlərarası saziş qüvvədədir. Bu saziş ölkələr arasında təhsil sahəsində əməkdaşlığa şərait yaradır.

2013-cü ildə Truskavets şəhəri və Azərbaycan Turizm Assosiasiyası arasında əməkdaşlıq haqqında Memorandum imzalanıb. 2016-cı turizm ilinin nəticələrinə görə, Truskavetsdə istirahət edənlərin böyük əksəriyyətini məhz azərbaycanlılar təşkil edib.

2016-cı ildən etibarən bütün Azərbaycan ərazisində Ukrayna dövlət televiziya kanalının (UA/TV) yayımlanmasına başlanıb (Ukraynada müvafiq olaraq AzTV yayımlanır).

Satış üçün nəzərdə tutulmayıb

Beləliklə, AR və Ukrayna arasında əməkdaşlıq yaxşı inkişaf edir, xarici siyasi yön, demokratiya və insan hüquqları kimi sahələr istisnadır. Bakının müxalif Azərbaycan jurnalisti Fikrət Hüseynlini təhvil vermək tələbi bu sahədə növbəti qalmaqal oldu. Yeri gəlmişkən, Hüseynlinin həm də Hollandiya vətəndaşlığı var. Uzun aylar boyunca Hollandiya və Azərbaycanla çəkişmədən və diplomatik danışıqlardan sonra Ukrayna hakimiyyəti jurnalisti azad edib və o, Hollandiyaya gedə bilib.

 Satış üçün nəzərdə tutulmayıb

CƏNUBİ QAFQAZDA ŞƏRQ PƏLƏNGİ[1]

Çin hökumətinin dəvəti ilə Azərbaycanın müdafiə naziri Zakir Həsənov aprelin 26–29-da Pekinə rəsmi səfərə gedib. Tərəflər müdafiə sahəsində əməkdaşlığın gələcək inkişafını müzakirə ediblər. Xüsusən, Azərbaycanın Çin istehsalı olan silahları alması məsələsi müzakirə olunub.

Bu iki ölkənin qarşılıqlı münasibətlərini diqqətlə izləməyənlər üçün uzaq Çin birdən-birə yaxınlaşdı və bütün Cənubi Qafqaz ölkələri ilə müxtəlif istiqamətlərdə əməkdaşlığı uğurla inkişaf etdirir. Əlbəttə, Çin hələlik ticarət dövriyyəsində Cənubi Qafqaz ölkələrinin ənənəvi tərəfdaşlarından – ABŞ, Avropa İttifaqı, Rusiya və Türkiyədən geridə qalır, amma Azərbaycan, Gürcüstan və Ermənistanla artmaqda olan iqtisadi əməkdaşlıq göstəricilərinə baxdıqda məşhur "Mən yavaş-yavaş, amma həmişə irəliyə gedirdim" deyimini yada salırsan.

Azərbaycan

Azərbaycan və Çin arasında diplomatik münasibətlər 1992-ci ildə qurulub və həmin vaxtdan etibarən ölkələr arasında əməkdaşlıq durmadan inkişaf edib. Çinin Avropa ilə ticarət dövriyyəsinin inkişafı məqsədilə "İpək Yolu" ölkələ-

[1] "TURAN" İnformasiya Agentliyi 14 May 2018

Satış üçün nəzərdə tutulmayıb

rinin nəqliyyat arteriyalarını birləşdirmək məqsədi daşıyan "Bir zolaq, bir yol" layihəsi əməkdaşlıq üçün yeni təkan oldu.

Qeyd etmək lazımdır ki, Çinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi Azərbaycanın ərazi bütövlüyünü tamamilə nəzərə alır, bunu Çinin müdafiə naziri Vey Fenxe general-polkovnik Zakir Həsənovla yuxarıda qeyd edilən görüşdə bəyan edib. Həsənov öz növbəsində qeyd edib ki, Azərbaycan Pekinin "Vahid Çin"lə bağlı siyasətini dəstəkləyir.

Həmin görüşün sonunda tərəflər qarşılıqlı hərbi yardım göstərilməsi haqqında sənəd imzalayıblar, konkret olaraq söhbət Azərbaycanın Çindən silah almasından gedir.

Azərbaycan əvvəllər də Çindən silah alırdı, məsələn, Türkiyədə istehsal olunan T-300 "Qasırğa" müasir reaktiv yaylım atəşi sistemləri Çin lisenziyası ilə hazırlanır. Belarus istehsalı olan "Polonez" reaktiv yaylım atəşi sistemləri də Çin mənşəlidir. Çin həmçinin Azərbaycana VP10 zirehli maşını bazasında tank əleyhinə təkərli özügedən artilleriya qurğusu, Ture 99A2 döyüş tankı, həmçinin "Çendu" J-10 qırıcı təyyarəsi təklif edir.

Ticarət dövriyyəsi artır

Ümumilikdə Bakı və Pekin arasında ticarət dövriyyəsi durmadan artır, 2016-cı illə müqayisədə 2017-ci ildə 33,16% artıb və 1 milyard 298 milyon dollar təşkil edib. Beləliklə, Çin Aİ, Rusiya və Türkiyədən sonra Azərbaycanın dördüncü ticarət tərəfdaşı olub.

Azərbaycan Çinə 433,8 milyon dollar dəyərində neft və kimya məhsulları ixrac edir, Azərbaycana Çin məhsullarının idxalı isə 854,5 milyon dollara (bütün idxalın 9,73%-i) çatıb və mexanizmlərdən, elektrik aparatlarından, nəqliyyat vasitələrindən, tibbi avadanlıqlardan, məişət mallarından, habelə silahdan ibarətdir. 2006-cı ildə Bakı və Çinin Uyqur muxtar bölgəsinin paytaxtı olan Urumçi şəhəri arasında bir-

 Satış üçün nəzərdə tutulmayıb

başa aviareyslər həyata keçirilməyə başlayıb. Bu gün Urumçiyə Çin və Azərbaycan aviasiya şirkətləri tərəfindən həftədə 2 aviareys həyata keçirilir.

1995–2011-ci illərdə Çin investorları Azərbaycan iqtisadiyyatının qeyri-neft sektoruna 102,5 mln. dollar, neft-qaz sektoruna isə 598 mln. dollar yönəldib. 2011-ci ildə "China National Electric Equipment Corp." şirkəti Azərbaycanda Mingəçevir və Varvara su elektrik stansiyalarının yenidənqurmasına başlayıb.

2017-ci il oktyabrın 30-da Şərq-Qərb nəqliyyat dəhlizinin tərkib hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolu açılıb.

Aydındır ki, Çinlə hərtərəfli münasibətləri inkişaf etdirən, ondan silah alan Bakı BMT-nin Təhlükəsizlik Şurasında Qarabağ problemi ilə bağlı səsvermədə bu böyük dövlətin dəstəyini qazanmağa çalışır.

Gürcüstan

Çin Gürcüstanla ticarət dövriyyəsinə görə 3-cü yeri tutur (Türkiyə və Azərbaycandan sonra). 2017-ci ildə bu göstərici 554,1 milyon dollar (ümumi ticarət dövriyyəsinin 8,4%-i) təşkil edib. Həmin ilin yanvar-avqust aylarında iki ölkə arasında ticarət dövriyyəsi 2016-cı ilin analoji dövrü ilə müqayisədə 15% artıb. Gürcüstan Çinə mis filizi, habelə 3,6 min ton təbii üzüm şərabı ixrac edir. Gürcüstan şərabının ixracına görə birinci yerdə olan Çinə təxminən 5,1 milyon şüşə şərab ixrac edilib. Çinə ixracın artımı 51% təşkil edib. Çindən Gürcüstana 34,5 min ton karbohidrogen poladdan hamar prokat, 189 ton hesablama texnikası, 2,4 min ton hava kondisiyalaşdırma qurğusu, həmçinin çox işlənən mallar ixrac olunub.

2017-ci il mayın 13-də Gürcüstan və Çin azad ticarət haqqında müqavilə bağlayıb. Beləliklə, Gürcüstan regionda Çinin belə bir saziş bağladığı ilk ölkə oldu.

Satış üçün nəzərdə tutulmayıb

Müqaviləyə əsasən, Gürcüstan məhsullarının və xidmətlərinin 95%-i Çin bazarına gömrük rüsumu olmadan ixrac olunacaq. Bu, əsasən mis filizləri, şərab, habelə azot və mineral gübrələr, ferroərintilər, lokomotivlər, kabellər, plastmas məmulatlar və digər məhsullardır. (Qeyd edək ki, Gürcüstanın Avropa İttifaqı, MDB ölkələri, Türkiyə və Aİ-yə daxil olmayan İsveçrə, Norveç, İslandiya və Lixtenşteyni birləşdirən Avropa Azad Ticarət Assosiasiyası (EFTA) ilə azad ticarət haqqında sazişləri tərtib edilib. Bundan başqa, ABŞ, Çin, Kanada və Yaponiya ilə imtiyazlı ticarət rejimləri qüvvədədir.

Xarici siyasət nöqteyi-nəzərdən Çin, Azərbaycanda olduğu kimi, Gürcüstanın ərazi bütövlüyünü qeyd-şərtsiz dəstəkləyir.

Ermənistan

Ermənistanın Milli Statistika Xidmətinin məlumatına görə, 2016-cı ildə Ermənistan və ÇXR arasında ticarət dövriyyəsi 454 mln. dollar və ya Ermənistanın ümumi xarici ticarətinin 8,9%-ni təşkil edib. 2015-ci illə müqayisədə Ermənistanın ixracı xeyli – 165,3 mln. dollardan 96,4 mln. dollara qədər azalıb. Çindən idxal, əksinə, 316,1 mln. dollardan 357,7 mln. dollara qədər artıb. Ermənistan Çinə daimi ticarət attaşesi göndərib.

Çin praqmatizmi

Çinin Cənubi Qafqaz ölkələri ilə bağlı siyasəti ABŞ və ya Rusiyanın regiondakı siyasətindən xeyli fərqlənir. Çin region ölkələri ilə qarşılıqlı münasibətlərə Soyuq Müharibə prizmasından baxmır, siyasi sistem və ya xarici siyasət kursu haqqında öz düşüncələrinə bu ölkələrə qəbul etdirməyə çalışmır (bəlkə də hələlik). Rusiyadan və Avroatlantik birlikdən fərqli olaraq, hələlik imperializm ittihamlarından qaçmağa müvəffəq olur.

 Satış üçün nəzərdə tutulmayıb

Çin bir-biri ilə düşmən ölkələrlə, məsələn, Azərbaycan və Ermənistanla belə uğurlu münasibətlər qurur. Çin başqa ölkələrin daxili işlərinə qarışmama siyasətini həyata keçirərək, iqtisadi əməkdaşlıq vasitəsilə regiona nüfuz etməyə çalışır, beləliklə, digər böyük dövlətlər tərəfindən strateji və ideoloji təzyiq görən ölkələrin üstünlük verdiyi tərəfdaşdır.

İndiyədək Çinin Cənubi Qafqaz ölkələri ilə əməkdaşlığı uğurla inkişaf edir və Rusiya, Qərb və Türkiyə kimi ənənəvi geosiyasi qüvvələrin maraqları ilə ziddiyyət təşkil etmir. Amma regionda Çinin iqtisadi nüfuzu Cənubi Qafqaz ölkələrinin ənənəvi xarici siyasət tərəfdaşlarının nüfuzu ilə müqayisə olunacaq həddə çatsa, onlarla Çin arasında iqtisadi və siyasi qarşıdurmanın müşahidə edəcəyimiz ehtimalı var. Axı, hər şey Çinin çox işlənən mallarından başlamışdı, indi isə artıq söhbət Çin tanklarının və qırıcı təyyarələrinin alınmasından gedir.

Satış üçün nəzərdə tutulmayıb

PAŞİNYAN – MÖCÜZƏYƏ SON ÜMİD[1]

2018-ci ilin mayında Ermənistanda son etiraz hərəkatı tam uğurla başa çatdı. Ölkənin əvvəlki rəhbəri Serj Sarqsyan istefa verdi. Onu etiraz hərəkatının lideri Nikol Paşinyan əvəz etdi.

Çox güman ki, 1998-ci ildən ölkəni idarə edən Qarabağ klanı da öz mövqelərini təhvil verəcək. Yeni qüvvələr bölgüsü özünü saxlaya bilsə, bu hadisələrin fundamental nəticəsi o olacaq ki, əgər əvvəllər Ermənistanın taleyini Qarabağ ermənileri həll edirdisə, indi Ermənistan ermənileri həll edəcəklər.

Məlum olduğu kimi, qarabağlılar Azərbaycandan ayrılmaqdan başqa heç nə eşitmək istəmirlər, hətta bunun üçün ən dəhşətli əvəzlər ödəsələr belə. Ancaq Ermənistan vətəndaşlarının çoxu müharibənin perspektivsiz olduğunu başa düşür və öz övladlarının gələcək taleyi üçün narahatdır.

İndi də növbə ekspertlərindir: Nikol Paşinyan kimdir? Nə etmək fikrindədir? Nələri edə biləcək? Bu sualların cavablarını axtarıb tapmaqla məşğuldurlar.

Qeyd olunduğu kimi, N.Paşinyan

– uzun illərdir ki, hakimiyyətlə mübarizə aparır, korrupsiyaya bulaşmayıb;

– Qərb tərəfdarıdır;

– siyasətdə təcrübəsizdir və heç bir inzibati təcrübəsi yoxdur;

– populizmdən, hətta şovinizmdən uzaq deyil.

[1] "TURAN" İnformasiya Agentliyi, 14 May 2018

Satış üçün nəzərdə tutulmayıb

Ancaq gəlin Paşinyanın yuxarıda sadalanan xüsusiyyətlərini və ictimaiyyətə açıqladığı hədəfləri nəzərdən keçirək.

Nikol Paşinyan korrupsiyaya uğramış deyil, amma təcrübəsizdir. Hansı variantın daha yaxşı olduğu hələ sübuta yetirilməyib.

Parlamentdə Baş nazir seçilmədən öncəki çıxışında bildirib ki, bundan sonra seçkilər, insan hüquqları, məhkəmələr, biznesə münasibət – hər şey vicdanla olacaq!

O, heç kimdən intiqam almağa hazırlaşmır. Ölkənin yeni hökuməti milli barış hökuməti olacaq.

Rusiya ilə əlaqələri kəsmək niyyətində deyil. "Əgər xalq bunu istəyirsə..." (bu sözlərə diqqət yetirmək lazımdır – guya özü o qədər də istəmir, ancaq madam ki, xalq istəyir, nə etmək olar), Ermənistan bundan sonra KTMT-nin və Avrasiya İqtisadi Birliyinin üzvü olaraq qalacaq. Ancaq bu üzvlüyü səmərəli etmək lazımdır. Eyni zamanda ABŞ və Aİ ilə əməkdaşlığı inkişaf etdirmək lazımdır (müşahidəçilər bildirirlər ki, Paşinyan fransız diasporuna meyllənir).

Qısası, hər şey düzgün və yeni formada olacaq, təkcə Qarabağ əvvəlki kimi qalacaq!

"Qarabağın müstəqilliyinin dünya səviyyəsində tanınmasına, sonra isə Ermənistanla birləşdirilməsinə nail olmaq lazımdır". "Bundan ötrü Azərbaycanın daha böyük şəhərini tutmaq lazımdır ki, onu yola gətirmək mümkün olsun".

"Bizim əsgərləri yaxşı yedirtmək lazımdır, başqa sözlə desək, hərbi xərcləri artırmaq lazımdır".

"1915-ci il erməni soyqırımının beynəlxalq səviyyədə tanınmasını tələb etməyə davam etmək lazımdır".

Paşinyan "Arsax respublikası" və diaspor ilə birlikdə yeni Ermənistan quracaq.

Bu məqsədlərin reallaşması mümkündürmü? Xarici siyasət üzrə eyni kursu yürütməklə ölkənin daxili işləri ilə bağlı islahatlar aparmaq olarmı? Ekspertlərin çoxu bunun mümkün olmadığını bildirir.

 Satış üçün nəzərdə tutulmayıb

Paşinyanı yarımislahatçı adlandırmaq daha düzgün olardı. Əgər Paşinyanın Ermənistanı Azərbaycanla savaşa davam edəcəksə və buna görə ona Rusiyanın köməyi lazım olacaqsa əvvəl olduğu kimi, bu, ona öz müstəqilliyi və inkişafı bahasına başa gələcək.

Bundan əlavə, Paşinyan öz siyasi fəaliyyətinin başlanğıcında Rusiya ilə əlaqələrə yenidən baxılmasının və Qərblə əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyini bildirib. Ancaq Paşinyana kütləvi dəstək verən erməni ictimaiyyəti bunu istəmir. İctimaiyyət Qarabağ uğrunda savaşmağa davam etmək istəyir.

Və Paşinyan geri çəkilməli olacaq: "Əgər xalq bunu istəyirsə..., – Paşinyan bəyan edir, – biz Rusiyanın rəhbərlik etdiyi hərbi və gömrük ittifaqının üzvü olaraq qalacağıq və beləliklə, Qarabağ müharibəsində Moskvanın dəstəyindən istifadə edəcəyik..."

Bu məqamda biz yenidən Köhnə Ermənistanı görürük – öz müstəsnalığı, ətrafdakıların düşmən, özünün günahsız olması, tarix boyunca haqq etmədiyi bədbəxtliyə düçar olması haqda miflərlə yaşayan ölkəni görürük.

Demək olar ki, Nikol Paşinyan Köhnə Ermənistanın möcüzəyə olan son ümididir.

Çox güman ki, onun bəyan etdiyi kurs reallıqla toqquşaraq uğursuzluğa düçar olacaq. Ola bilsin ki, ancaq bundan sonra erməni ictimaiyyəti, nəhayət, mifdən əl çəkəcək və biz o zaman Yeni Ermənistanı görəcəyik.

 Satış üçün nəzərdə tutulmayıb

RUSİYA HƏM ERMƏNİSTANI, HƏM DƏ AZƏRBAYCANI QARMAQDA SAXLAMAQ İSTƏYİR[1]

Azərbaycanın Rusiyadakı keçmiş səfiri Hikmət Hacızadə Amerikanın Səsinə müsahibəsində Ermənistan-Rusiya münasibətləri və Dağlıq Qarabağ münaqişəsindən danışıb.

Amerikanın Səsi: Ermənistanın yeni baş naziri ilk səfərini Rusiyaya etdi. Rusiya-Ermənistan münasibətlərinin perspektivləri necə görünür?

Əvvəl Paşinyanı qərbpərəst kimi tanıyırdılar. Xüsusilə də deyirdilər ki, o, Fransa diasporasının təsiri altındadır

Hikmət Hacızadə: Çətin sualdır. Hələ ki, Nikol Paşinyan təzə başlayıb və fəaliyyətinə ziddiyyətli çıxışlarla başlayıb. O müxalifətdə olanda deyirdi ki, Rusiya ilə münasibətlərə yenidən baxmalıyıq. Deyirdi ki, lazım olanda Rusiya Ermənistanı qabağa çəkir, lazım olanda satır, lazım olanda, elə-belə, oyuncaq kimi bizimlə davranır. Xüsusilə onun fikirləri, daha çox aprel müharibəsindən (2016-cı il aprelin 2-dən 5-dək Dağlıq Qarabağda hərbi əməliyyatların bərpası nəzərdə tutulur – red) sonra yayıldı. Deyirdi, yenə ruslar satdı, azərbaycanlılar gəldi bizi qırdı, rus tərpənmədi və s. Bununla bağlı Paşinyan

[1] "TURAN" İnformasiya Agentliyi, 15 May 2018 https://www.amerikaninsesi.org/a/siyaset/4394661.html

Satış üçün nəzərdə tutulmayıb

bir neçə dəfə fikir səsləndirdi ki, Rusiya ilə münasibətlərə yenidən baxmalıyıq. Ancaq Paşinyan hakimiyyətə gəlməyə yaxınlaşanda, onun fəaliyyəti geniş vüsət alanda, böyük hərəkat başlayanda, hərəkat bundan tələb etməyə başladı ki, xeyr, Rusiya bizə lazımdır, Rusiya bizə vacibdir. Xahiş edirik, Rusiyanın xətrinə dəyməyin və o geri çəkildi. Başladı ki, hə, yox mən elə deməmişəm, mən başqa cür demişəm. Rusiya bizim can-ciyərimizdir, həmişə bir olacağıq. Bəzi məsələləri yenidən danışacağıq. Amma, ümumən biz onun hərbi, ticari ittifaqlarında fəal iştirak edəcəyik. Bax belə, qalıbdır bu iki fikrin arasında. Burada qərb məsələsi də var. O qərblə münasibətlərini necə quracaq? Əvvəl-əvvəl Paşinyanı qərbpərəst kimi tanıyırdılar. Xüsusilə də deyirdilər ki, o, Fransa diasporasının təsiri altındadır. O qərblə bütün əməkdaşlığın genişləndirlməsinin tərəfdarıdır. Avropa İttifaqı ilə əməkdaşlıq sazişinin genişləndirilməsinin tərəfdarı kimi tanınırdı. İndi isə Ermənistanın ruspərəstləri onu sıxırlar. Baxaq görək, o, dözə biləcək, ya yox. Amma, hər halda ürəyində qərbpərəstdir.

Amerikanın Səsi: Nikol Paşinyanın Moskva səfəri zamanı Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı hər hansı açıqlama verilməyib? Münaqişənin bundan sonrakı nizamlanma prosesində bir yenilik ola bilərmi?

Rusiya həm Ermənistanı, həm də Azərbaycanı qarmaqda saxlamaq istəyir.

Hikmət Hacızadə: Yenilik gözləmirəm. Həmin vəziyyət olacaq, yəni Rusiyanın mövqeyi belədir ki, status-kvo necə var, elə də qalacaq. Rusiya həm Ermənistanı, həm də Azərbaycanı qarmaqda saxlamaq istəyir. Buna görə də indiki vəziyyət Rusiyaya sərf edir. Kim də ki, nəsə Rusiyanın xoşuna gəlməyən addımlar atsa, o saat onu cərimələyirlər. Ya Azərbaycanı Ermənistanın üzərinə buraxırlar, ya Ermənista-

 Satış üçün nəzərdə tutulmayıb

nı Azərbaycanın üzərinə buraxırlar. Status-kvo belə qalacaq, çünki Rusiya belə istəyir.

Amerikanın Səsi: Azərbaycanın xarici işlər naziri mayın 15-də ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə münaqişə ətrafında yaranmış son durumu müzakirə edib. Münaqişənin nizamlanmasında ATƏT-in Minsk Qrupunun həmsədrlərinin mövqeyində hansı yeniliklər ola bilər?

Hikmət Hacızadə: Heç bir yenilik gözləmək olmaz. Ümumən, bu Minsk Qrupu mənasız bir qurumdur. Qarabağ probleminin bütün açarları Moskvadadır. Moskvaya fikir verin. Məsələni izləyirsinizsə, baxın, görün Moskva necə davranır, nə deyir, hansı eyhamlar edir. Qalanlarının Azərbaycanla heç bir işi, marağı yoxdur. Nə Fransanın, nə Amerikanın. Əfsus ki, belədir. Başları qarışıb Suriya, Ukrayna, indi də İran, Fələstin problemlərinə. Hələ ki Azərbaycana çox da maraq yoxdur.

Amerikanın Səsi: Azərbaycan indiki vəziyyətdə hansı addımları atmalıdır? Xüsusilə xarici siyasət sahəsində hansı addımlar atmalıdır?

Bizim anti-demokratikliyimiz, avtoritarizmimiz bizim zəifliyimizdir. İslahatlar lazımdır.

Hikmət Hacızadə: Mən belə deyə bilərəm ki, bizi başqa bir təhlükə gözləyir. Ola bilsin, Ermənistan demokratikləşəcək, indi Paşinyanın planları belədir. Amma Azərbaycan bu yolda heç bir addım atmır. Bu bizim zərərimizədir. Onda dünya ictimaiyyətinin gözündə demokratik Ermənistan, anti-demokratik Azərbaycanla toqquşur. Əlbəttə, bütün simpatiyalar (rəğbət – red) Ermənistanın tərəfində olacaq. Bunu düşünmək lazımdır. Bizim anti-demokratikliyimiz, avtoritarizmimiz bizim zəifliyimizdir. İslahatlar lazımdır. Geniş si-

Satış üçün nəzərdə tutulmayıb

yasi islahatlar. Siyasi məhbuslar buraxılmalıdır. Söz azadlığı təmin olunmalıdır. Beynəlxalq təşkilatlar Azərbaycana qayıtmalıdır. Biz bunu etməsək, Ermənistan etsə, bu artıq bizim üçün minusdur.

Pərvanə Bayramova
Tapdıq Fərhadoğlu

Satış üçün nəzərdə tutulmayıb

XƏZƏRİN BÖLÜNMƏSİ HAQQINDA MÜQAVİLƏ HAZIRDIR: BÜTÜN TƏRƏFLƏR ÖZ QƏLƏBƏLƏRİNİ BƏYAN EDİR[1]

Xəzəryanı ölkələrin Xəzərin statusu haqqında iyirmi illik danışıqları, deyəsən, başa çatıb. Bu ölkələrin liderləri, çox güman ki, 2018-ci ilin sonlarında Qazaxıstan sammitində Xəzərin statusu haqqında konvensiyanı imzalayacaqlar.

Sənədə əsasən, Xəzərin dibi (və burada mövcud olan resurslar) konvensiya iştirakçıları arasında sektorlara bölünəcək və ölkələr Xəzərin dibindən dövlətlərarası kommunikasiya və nəqliyyat xətləri çəkə biləcəklər. Xəzər hövzəsi isə (ərazi sularından başqa) Xəzəryanı ölkələrin mülki və hərbi gəmiləri üçün açıq olaraq qalacaq. Xəzərə və Xəzər limanlarına digər dövlətlərin hərbi gəmiləri buraxılmayacaq. Beləliklə, Rusiya hərbi donanmasının Xəzərdəki üstünlüyü təmin ediləcək.

SSRİ dövründə Xəzərin statusu RSFSR və İran arasında 1921-ci il müqaviləsi və SSRİ və İran arasında Xəzərin statusunu daxili su hövzəsi kimi müəyyən edən və beynəlxalq hüquq kimi tanınan 1940-cı il müqaviləsi ilə təmin edilirdi. Bu müqavilədə gəmiçiliyin və balıqçılığın azadlığı, habelə Xəzəryanı olmayan ölkələrin bayraqları altında gəmilərin üzməsinə qadağa məsələsinə baxılırdı. 1921 və 1940-cı il müqa-

[1] "TURAN" İnformasiya Agentliyi, 28 İyun 2018

Satış üçün nəzərdə tutulmayıb

vilələri yeraltı sərvətlərdən istifadə, təbii mühitin qorunması və hərbi fəaliyyət məsələlərinə toxunmurdu.

SSRİ dağıldıqdan sonra bəzi Xəzəryanı ölkələr, xüsusən Azərbaycan bu müqavilələrin qüvvəsini tanımaqdan imtina etdi. Və həmin vaxt 1996-cı ildə Xəzəryanı ölkələr Xəzərin hüquqi statusu haqqında konvensiya hazırlamaq üçün "Xüsusi İşçi Qrup" təşkil etdilər. 20 il davam edən danışıqlar başladı.

Eyni zamanda, bəzi Xəzəryanı ölkələr arasında Xəzərlə bağlı ikitərəfli sazişlər imzalanmağa başladı. Belə ki, 1998-ci ildə Rusiya və Qazaxıstan arasında Xəzər dənizinin şimal hissəsinin dibinin bölünməsi haqqında Saziş imzalandı, 2002-ci ildə bu Saziş üzrə həmin zonada yeraltı sərvətlərdən istifadəni tənzimləyən Protokol imzalandı.

2001-ci və 2003-cü illərdə Qazaxıstan və Azərbaycan arasında Xəzər dənizinin bu ölkələr arasında bölünməsi haqqında Saziş imzalandı.

2003-cü ilin mayında Rusiya, Azərbaycan və Qazaxıstan arasında Xəzər dənizinin dibinin həmhüdud hissələrinin bölünməsi xətlərinin qovuşma nöqtələri haqqında saziş bağlandı. 2003-cü ilin noyabrında bu ölkələr Xəzər dənizində dəniz mühitinin antropogen təsirlərdən qorunması üzrə konvensiya imzaladılar.

2011–2012-ci illərdə bütün Xəzəryanı ölkələr dəniz mühitinin neft çirklənmələrindən qorunması haqqında müqavilələr imzaladılar.

20 illik danışıqlar ərzində Aşqabadda (2002), Tehranda (2007), Bakıda (2010) və Həştərxanda (2014) sammitlər keçirilib. Bu sammitlərdə Xəzərin hüquqi statusu haqqında konvensiyanın hazırlanmasına ümumi yanaşmalar üzərində işlənilib.

Danışıqlar uzanırdı, çünki Xəzəryanı ölkələrin hər biri hazırlanan sazişdə öz maraqlarını təmin etməyə çalışırdı.

Rusiya yeraltı sərvətlərin və şelfin bölünməsinin tərəfdarıdır, amma hövzənin bölünməsinə qarşı çıxır, çünki Xəzər hövzəsində öz hərbi-strateji üstünlüyünü təmin etməyə çalı-

 Satış üçün nəzərdə tutulmayıb

şır. Bundan başqa, Rusiya Türkmənistan və Azərbaycan arasında Xəzərin dibindən keçən boru kəməri ilə enerji resurslarının Avropaya nəqli layihələrinə qarşı çıxır;

Azərbaycan, Qazaxıstan və Türkmənistan Xəzərdə öz hissələrinin yeraltı sərvətlərindən və coğrafi mövqeyindən əlverişli şəkildə istifadə etmək üçün Xəzəri orta xətdən bölmək istəyir.

Türkmənistan Azərbaycanın dəniz dibinin bəzi hissələrinə olan iddiaları ilə razı deyil.

İran Xəzərin hövzəsinin və dibinin "bərabər şəkildə" – hər bir tərəfə 20% olmaqla bölünməsinin tərəfdarı idi. Bundan başqa, İran ikitərəfli sazişlərin bağlanmasına qarşı çıxır.

Amma 2017-ci ildə Rusiya hökuməti bildirib ki, tərəflər, nəhayət, mühüm güzəştlər əldə ediblər və saziş layihəsi 2018-ci ilin sonuna qədər imzalanacaq.

Bəs əvvəllər Rusiyanın bu güzəştlərə getməsinə nə mane olurdu?

Xəzər məsələsində iki strateji problem Kremli narahat edirdi.

Birincisi – Xəzər karbohidratlarının Avropaya maneəsiz çatdırılması üzrə layihələr. Bu layihələr uğurlu olarsa, Rusiya Avropanı karbohidratlarla şantaj etmək imkanından məhrum olacaq.

İkincisi isə Rusiyanın cənub sərhədində, o cümlədən Xəzərdə düşmən hərbi qüvvələrin (NATO və ya ABŞ nəzərdə tutulur) peyda olması ehtimalı idi.

Hadisələrin gedişatı göstərib ki, birinci halda Xəzərin enerji resurslarının Avropaya nəqli planlarını pozmaq mümkün olmur. Bakı-Tbilisi-Ceyhan uğurla fəaliyyət göstərir, TAP və TANAP işə salınır. Azərbaycan və Türkmənistan Xəzər dənizinin dibindən öz sahilləri arasında qaz kəməri çəkməyə hazırlaşır və buna mane olmaq asan olmayacaq. Odur ki, burada ən yaxşısı güzəştə getməkdir.

Xəzərdə NATO hərbi dəniz qüvvələri və bazaları isə, Kremlin fikrincə, ekzistensial məsələdir. Bununla əlaqədar 2018-ci ilin yazında Rusiya KİV-ləri Qazaxıstanın Xəzərdəki

Satış üçün nəzərdə tutulmayıb

limanlarını ABŞ hərbi gəmilərinə təqdim etməsi və Qazaxıstanda ABŞ hərbi bazası açılması haqqında sazişlər imzaladığı barədə materiallar dərc ediblər. Astana söhbətin yalnız Qazaxıstanın Əfqanıstana yük nəqlində Qərb ölkələri koalisiyasına kömək etməsindən getdiyini bəyan edərək bu məlumatı təkzib etsə də, Rusiya KİV-lərindəki isterika Xəzərdə hadisələrin bu cür inkişafından narahatlıq səviyyəsini göstərir.

Həmçinin, ABŞ və İran arasında labüd olan münaqişəni də nəzərə almaq lazımdır – Xəzər dənizi bu ölkələr arasında hərbi əməliyyatlar səhnəsinə çevrilə bilər. Beləliklə, əlbəttə ki, başqalarının hərbi gəmilərini Xəzərə buraxmaq olmaz və 2017-ci ildə Rusiya hökuməti Xəzərdə dəniz limanlarının inkişafı haqqında strategiyanı təsdiq etdi. Kaspiysk şəhərində (Dağıstan) yeni hərbi dəniz bazasının tikintisi planlaşdırılır, bunun üçün 20 mlrd. rubl ayrılıb. Kaspiysk hövzədə əsas hərbi dəniz bazası olacaq. Baza Rusiyanın Yaxın Şərqdə və Orta Asiyada vəziyyətə nəzarət etməsinə imkan verəcək.

Yuxarıda sadalanan strateji problemləri nəzərə alan Rusiya Xəzərin statusu haqqında sazişin tezliklə müəyyən edilməsi zərurəti haqqında qərar qəbul etdi. Digər Xəzəryanı ölkələr etiraz etmədi, çünki saziş tərəflərinin hər biri istədiyini əldə edəcək.

"İnterfaks"ın məlumatına görə[1], imzalanmaq üçün hazırlanmış Xəzərin hüquqi statusu haqqında Konvensiya layihəsi aşağıdakı müddəaları ehtiva edir:

Xəzərin dibi və yeraltı sərvətləri sektorlara bölünəcək.

Xəzərin hövzəsi daxili sulara və ərazi sularına, balıqçılıq zonalarına və ortaq su məkanına bölünür. Hər bir tərəf eni 15 dəniz milini keçməyən ərazi sularını müəyyən edir. Onlar konvensiyaya uyğun olaraq müəyyən edilmiş başlanğıc xətlərindən ölçülür.

Hər bir tərəf ərazi sularına bitişik eni 10 dəniz mili olan balıqçılıq zonası müəyyən etmək hüququna malikdir.

---

[1] http://www.interfax.ru/russia/618102

 Satış üçün nəzərdə tutulmayıb

Konvensiya layihəsinin 6-cı maddəsinə əsasən, hər bir tərəfin suverenliyi "onun quru ərazisinin və daxili sularının hüdudlarından kənara, ərazi suları adlandırılan bitişik dəniz zolağına, eyni zamanda onun dibinə və yeraltı sərvətlərinə, habelə onun üzərindəki hava məkanına" şamil olunur.

Ərazi sularının xarici sərhədi dövlət sərhədidir. "Sahilləri həmsərhəd olan dövlətlər arasında daxili suların və ərazi sularının bölünməsi onlar arasında razılaşmalar əsasında beynəlxalq hüquq norma və prinsipləri nəzərə alınmaqla həyata keçirilir", deyə konvensiya layihəsində qeyd edilir.

"Xəzərin dibinin və yeraltı sərvətlərinin sektorlara bölünməsi onların yeraltı sərvətlərdən istifadə və dəniz dibinin resurslarının və yeraltı sərvətlərinin mənimsənilməsi ilə bağlı digər təsərrüfat-iqtisadiyyat fəaliyyətinin həmsərhəd və qarşı-qarşıya yerləşən dövlətlərin beynəlxalq hüquq normaları əsasında razılaşmalarına uyğun həyata keçirilir".

Sahil dövləti öz sektorunun hüdudları daxilində "süni adaların, qurğuların və tikililərin kənar xəttinin hər bir nöqtəsindən etibarən 500 metrdən çox olmayan təhlükəsizlik zonaları müəyyən edə bilər".

"Xəzərdə birgə bioloji su resurslarının ovlanması qaydası və şərtləri bütün tərəflər arasında ayrı-ayrı sazişlərə əsasən müəyyən edilir".

Sazişin iştirakçısı olan ölkələr layihələri beynəlxalq müqavilələrdə təsbit edilmiş ekoloji tələblərə və standartlara uyğun olması şərtilə Xəzərin dibindən sualtı kabel və boru kəmərləri çəkə bilərlər.

Üçüncü ölkələrin silahlı qüvvələrinin Xəzərdə iştirakı yolverilməzdir.

Ərazi sularından keçən saziş tərəflərindən birinə məxsus hərbi gəmilər, sualtı qayıqlar və digər nəqliyyat vasitələri müvafiq icazə olmadan digər tərəfin ərazi suları daxilindəki limanlara girmək və lövbər salmaq hüququna malik deyil.

Satış üçün nəzərdə tutulmayıb

Aİ VƏ AZƏRBAYCAN SAZİŞ İMZALADI. SİYASİLƏR HƏBSDƏ[1]

Azərbaycan hökumətinin diplomatiyası hazırkı məhələdə növbəti uğurunu bəyan edə bilər – 2018-ci il iyulun 11-də Brüssel və Bakı Azərbaycanın irəli sürdüyü şərtlərlə "Tərəfdaşlığın prioritetləri haqqında Saziş"i imzaladı: iqtisadi əməkdaşlığa hə, demokratik islahatlara isə yox.

Tərəfdaşlıq prioritetlərinin yaxın bir il üçün əməkdaşlıq istiqamətlərini müəyyən etdiyini nəzərə alaraq, onların təsdiq edilməsi Aİ və Azərbaycan arasında münasibətlərdə irəliyə doğru mühüm addımdır, deyə xarici işlər üzrə Ali Nümayəndənin ofisinin məlumatında bildirilir.

Xüsusən, tərəflər aşağıdakı prioritetləri müəyyən ediblər:

* İnstitutların möhkəmləndirilməsi və korrupsiyaya qarşı mübarizə, dövlət idarəetməsində islahat və cinayətkarlığa və terrorçuluğa qarşı mübarizə üçün potensial yaradılmasından ibarət olan yaxşı idarəçilik.

- İqtisadi inkişaf və iqtisadiyyatın sabit şəkildə şaxələndirilməsini, ÜTT-ə üzvlüyün dəstəklənməsini və işgüzar və investisiya mühitinin yaxşılaşdırılmasını nəzərdə tutan bazar imkanları.

[1] "TURAN" İnformasiya Agentliyi, 23 İyul 2018

Satış üçün nəzərdə tutulmayıb

- Cənub Qaz Dəhlizinin həyata keçirilməsi nəzərə alınmaqla, Azərbaycanın ticarət, logistika və nəqliyyat qovşağı kimi fəaliyyət göstərmək imkanına dəstəkdən ibarət olan enerji səmərəliliyi, ətraf mühit və iqlim.
- Təhsil və insan kapitalına dəstək, Aİ və Azərbaycan vətəndaşları üçün görüşməsi və təcrübələrini bölüşməsi üçün daha çox imkan verilməsini əhatə edən mobillik və insanlar arasında əlaqə.

Tərəfdaşlığın prioritetləri həm də 2018–2020-ci illərdə maliyyə əməkdaşlığı üçün əsas olacaq.

Tərəfdaşlığın prioritetləri çərçivəsində Aİ və Azərbaycan Avropa Qonşuluq Siyasətinin dəyərlərini və prinsiplərini, o cümlədən insan hüquqlarına riayət olunmasına, demokratiyaya, qanunun aliliyinə və vətəndaş cəmiyyəti ilə dialoqu əks etdirən ambisiyalı və hərtərəfli gündəliyə sadiq olduqlarını təsdiq edirlər.

"Yeni ikitərəfli saziş haqqında davam edən danışıqlarla yanaşı, tərəfdaşlıq prioritetlərinin imzalanması Azərbaycan xalqının və Avropa İttifaqının rifahı naminə müsbət nəticələr gətirmək üçün Aİ və Azərbaycan arasında münasibətləri möhkəmləndirmək niyyətini sübut edir. Tərəfdaşlıq prioritetləri Avropa İttifaqı və Azərbaycan tərəfindən rəsmi olaraq təsdiq ediləcək, daha sonra qəbul ediləcək", deyə Aİ-nin xarici əlaqələr üzrə Ali Nümayəndəsinin ofisinin məlumatında bildirilir.

Saziş imzalandı, amma siyasi məhbuslar hələ də azad edilmədi. Bəlkə də, sənəd təsdiq edilənə qədər "Aİ-nin əsas (demokratik – H.H) dəyərləri və hüquqları" nəzərə alınacaq və yerinə yetiriləcək, amma bu, baş verməsə, Bakı Brüsselli diplomatlar üzərində qələbə çaldığını bəyan edə biləcək.

Yuxarıda qeyd edilən saziş tərəflərin qibtə oyadan inadkarlığı ilə bir neçə ildir müzakirə olunurdu. Aİ hər yolla və əməkdaşlığın müxtəlif modelləri vasitəsilə Azərbaycanı

 Satış üçün nəzərdə tutulmayıb

özünə tərəf çəkməyə çalışırdı, Azərbaycan isə eyni inadla Aİ-nin insan hüquqları sahəsindəki standartlarından imtina edirdi.

Görünür, Azərbaycanda hazırkı rejim dünya demokratik ictimaiyyəti ilə yaxınlaşmada öz mövcudluğu üçün ekzistensional təhdid görüb, bu zaman Bakı iqtisadi sahədə əməkdaşlığa həvəslə razılaşırdı. Aİ ilə əməkdaşlığın daha bir problemi Bakının, əsaslı olaraq, Aİ-nin öz sərhədlərinə yaxınlaşmasını narahatlıqla müşahidə edən Moskvanın və hətta Tehranın reaksiyasından ehtiyatlanmasından ibarət idi.

Nəticədə, Azərbaycan Gürcüstan, Ukrayna və Moldovadan fərqli olaraq, tammiqyaslı "Aİ ilə Assosiasiya Sazişi"-ni imzalamaqdan imtina edir və Brüssel əməkdaşlıq üçün başqa, "daha yumşaq variantlar" axtarmaq məcburiyyətində qalır.

Bakı Aİ ilə danışıqlarda əmin davranırdı – neft pulları Aİ-nin liberal islahatlar müqabilində təklif etdiyi maliyyə yardımından imtina etməyə imkan verirdi. Amma 2014-cü ilin iyulunda dünyada neft qiymətləri iki dəfədən çox – 110 ABŞ dollarından 40 dollara qədər düşdü. Geniş miqyaslı maliyyə böhranı ölkəni əhatə etdi və Bakı yardım üçün Qərbin maliyyə institutlarına müraciət etməli oldu. Belə bir yardım vəd olundu, amma Bakının insan hüquqları və "yaxşı idarəçilik" sahəsində Avropa standartlarını qəbul etməsi müqabilində.

Bakı bu şərtlərlə razılaşmaqdan imtina etdi. Prezident İ.Əliyev ictimai çıxışında etiraf etdi ki, ondan güzəşt tələb edən Qərbin təzyiqinə məruz qalır, amma bu güzəştlərə getməkdən imtina edir. Böhrandan çıxmaq üçün lazım olan pula gəlincə, o bildirib ki, "Biz Şərqdən pul alacağıq".

Şərqdən pul gəlib çıxmadı və Aİ ilə danışıqlar ləngidi. Aİ boşalan büdcənin Bakını daha üzüyola edəcəyini gözləyirdi, amma Bakı insan hüquqları və rejimin təhlükəsizliyi sahəsində öz standartlarına həddindən artıq sadiq idi. 2017-ci ilin payızında Avropa Şurasının Parlament Assambleyası Azər-

 Satış üçün nəzərdə tutulmayıb

baycanda demokratiya və insan hüquqları ilə bağlı vəziyyəti pisləyən qətnamə qəbul etdi. Buna cavab olaraq prezident İ.Əliyev ölkənin ümumiyyətlə Avropa Şurasından çıxa biləcəyini bildirdi: "Azərbaycan Avropa Şurasını tərk etsə nə olar... heç nə olmaz", dedi o.

2018-ci ildə vəziyyət Bakının xeyrinə düzəlməyə başladı – neft qiymətləri yüksəlməyə başladı və 80 ABŞ dollarına çatdı. Beləliklə, Aİ-nin Azərbaycana maliyyə yardımı ilə təsir etmək imkanları yox oldu. İndi reallıqda Aİ-nin Azərbaycanla əməkdaşlıq modelinin necə olacağını demək çətindir. Bu gün isə, AŞPA-nın Azərbaycanla sazişin mütləq insan hüquqları sahəsində vəziyyətin yaxşılaşması ilə müşayiət olunması haqqında tövsiyələrinə baxmayaraq, onlar yerinə yetirilməmiş qalır. Yuxarıda qeyd edildiyi kimi, saziş imzalanıb, amma siyasi məhbuslar azad edilməyib. Strateji və iqtisadi cəhətdən əhəmiyyətli olan Azərbaycanla əlaqələrin itirilməsi perspektivi Aİ-ni sənədin təsdiq edilməsi zamanı demokratiya və yaxşı idarəçilik sahəsindəki tələblərini yumşaltmağa vadar edəcəyini gözləmək olar.

Satış üçün nəzərdə tutulmayıb

ERMƏNİSTAN İNQİLABININ TƏXİRƏSALINMAZ VƏZİFƏLƏRİ HAQQINDA[1]

Ermənistanda may inqilabı (2018) həm maraqlanan ölkələrin ictimaiyyətinin, həm də siyasi elmlər sahəsində ekspertlərin diqqətini çəkir. Ekspertlərin yüksək diqqətini Ermənistan rəhbərliyi qarşısında çox mürəkkəb və bir-birinə zidd siyasi vəzifələrin durması şərtləndirir:

- Hər yeri əhatə edən korrupsiyanı aradan qaldırmaq və effektiv dövlət idarəçiliyi sistemi yaratmaq;
- İşğal edilmiş Qarabağı əlində saxlamaq;
- Ermənistanın Rusiyadan total asılılığına son qoymaq və Avrointeqrasiya prosesinə başlamaq.

Bizə elə gəlir ki, 2 nömrəli vəzifə 1 və 3 nömrəli vəzifələrlə sıx əlaqəlidir və hətta onlara ziddir.

Müşahidəçilərin ümumi fikrinə görə, Ermənistanda hərtərəfli korrupsiya şəbəkəsinə Rusiyanın dövlət qurumları və onlara yaxın oliqarxlar da cəlb olunub. Beləliklə, korrupsiyaya qarşı mübarizə təkcə Ermənistan deyil, Kreml korrupsionerlərinə də zərbə endirəcək, sonuncular isə narazı qalsalar, Kremldən Qarabağ məsələsində kömək gözləmək də əbəs olacaq.

[1] "TURAN" İnformasiya Agentliyi, 28 İyul 2018

Satış üçün nəzərdə tutulmayıb

Və aydındır ki, inqilabın lideri, Ermənistanın yeni hökumət başçısı Nikol Paşinyan Avrointeqrasiya kursu həyata keçirməyə başlasa (bu, ölkənin Rusiya ilə əlaqələrini zəiflətməyə bilməz), yenə də Qarabağ müharibəsində Rusiyanın dəstəyi gözlənilmir.

Ermənistan inqilabı bu gün Hamletin sualı ilə üz-üzədir – Qarabağı və işğal edilmiş torpaqları əldə saxlayıb, əvvəlki rejimdə olduğu kimi, yoxsulluq və alçaqlıq vəziyyətində yaşamalı, ya Böyük Ermənistan mifindən imtina edib Qərb istiqamətində hərəkətə başlamalı, nəticədə rasional, ədalətli, inkişaf etmiş və dinc dövlətə çevrilməli?

Bu vəzifənin həlli əsasən Nikol Paşinyan və onun komandasından asılıdır və bu vəzifəni Ermənistan cəmiyyətinin hər şeyi – Avrointeqrasiyanı da, Qarabağı da eyni anda əldə etmək istəyi çətinləşdirir.

Bir qədər Paşinyan haqqında danışaq. N.Paşinyanın isteblişmentə qarşı uzun illərdir mübarizə apardığı, korrupsiyaya aludə olmadığı qeyd edilir. Sadə dillə desək, o, xalqın içindən sadə və vicdanlı insandır və Qərbpərəstdir. Hakimiyyətinin ilk saatlarından etibarən Paşinyan inqilabın yuxarıda sadalanan – 1, 2 və 3 nömrəli vəzifələri arasındakı ziddiyyətləri həll etməyə çalışır. "Rusiya ilə əlaqələrimizi kəsmirik, amma Avropa İttifaqı ilə əlaqələrimizi möhkəmləndirməyə çalışacağıq", deyə o, hər yerdə bildirir. Amma məntiq və vicdanlı şəxs mentallığı onu başqa yoldan getməyə məcbur edir.

Nikol Paşinyan yuxarıda sadalanan vəzifələri yerinə yetirərək, iki ayda artıq aşağıdakı nəticələrə nail olub. Ermənistan mətbuatının məlumatına görə, Paşinyan:

* Yerevan meri Taron Marqaryanın – keçmiş hakim partiyanın çoxillik funksionerinin istefasına nail olub.

Satış üçün nəzərdə tutulmayıb

* Ermənistanın İctimai Televiziyasının rəhbərliyini və əvvəlki hakimiyyətin itaətkar təbliğatçılarına çevrilmiş televerilişlərin prodüserlərini dəyişdirib.

* Ermənistanın İctimai Televiziyasında maliyyə auditi həyata keçirib, onun nəticələrinə görə cinayət işləri açılıb.

* Keçmiş baş nazir, "Qazprom"un adamı Karen Karapetyanla hesablaşmağa başlayıb.

* Keçmiş hökumət məmurları arasında təmizlik aparıb. Demək olar ki, bütün regionların merləri və qubernatorları qovulub.

* Keçmiş hakim partiya ilə əlaqəsi olan oliqarxlara məxsus böyük supermarketlər şəbəkələrinin boykotunu təşkil edib, onları malların qiymətini endirməyə məcbur edib.

* 30 kriminal avtoritetin və cinayətkarın evində axtarış aparıb, onların yarısını ölkəni tərk etməyə, əsasən Rusiyaya getməyə məcbur edib.

* General və müdafiə nazirinin keçmiş müavini Manvel Qriqoryanın, onun həyat yoldaşının və oğlunun – Eçmiədzin şəhər merinin erməni əsgərlərinə humanitar yardımı mənimsəmə və qanunsuz silah saxlama ittihamı ilə həbsi.

* Prezident Sarkisyanın mühafizə xidmətinin keçmiş başçısı Vaçagel Kazaryanın evində 9 mln. dollar məbləğində dövlət vəsaitinin mənimsənməsi ittihamı ilə axtarış və onun həbsi.

* Oliqarxın və milyarderin, "Çiçəklənən Ermənistan" Partiyasının liderinin mühafizə xidmətinin rəhbəri Qagik Tsarukyanın adam döymə ittihamı ilə həbsi. Tsarukyanın özünə hələlik toxunmurlar.

* Keçmiş prezident Robert Koçaryanın ailəsi ilə əlaqəli olan "Spayka" şirkətinin vergilərdən yayınması ilə bağlı araşdırma aparılıb. Koçaryanın özü ilə bağlı 1 mart 2008-ci

ildə Yerevanda nümayişçilərin dağıdılması ilə bağlı araşdırma başlanıb. Koçaryan RF-yə gedib.

* Keçmiş prezident və qısa müddətlik baş nazir Serj Sarkisyanın ailəsi ilə hesablaşmağa başlayıb. Onunla və qohumları ilə bağlı fondlarda axtarış və həbslər həyata keçirilib. Serj Sarkisyanın hər iki qardaşı – Aleksandr (Saşik 50%) və Levon, qardaşı qızı Ali Sarkisyan və qardaşı oğulları Narek və Ayk Sarkisyanlar barəsində axtarış elan olunub.

* Ermənistanın Kassasiya Məhkəməsinin rəhbərliyini dəyişdirib.

* Ermənistanın İstintaq Komitəsinin rəhbərliyini dəyişdirib.

* Sərhəd Qoşunlarının, Baş Qərargahın və Quru Qoşunlarının rəhbərliyini dəyişdirib. Həmçinin Dağlıq Qarabağda güc qurumlarının rəhbərlərinin qovulmasına nail olub.

* Vəzifə səlahiyyətlərindən sui-istifadəyə görə kənd icmalarının başçılarına qarşı 71 cinayət işi qaldırıb.

* Keçmiş müdafiə naziri Mikael Arutyunyanın evində 1 mart 2008-ci il tarixli işlə bağlı axtarış və həbs həyata keçirilib, onun özünün barəsində axtarış elan edilib. O, RF-yə gedib.

* Rusiya ermənilərini birləşdirən yeni təşkilatın yaradılmasına nail olub. Köhnə təşkilatın səmərəsiz olduğu və korrupsiyaya məruz qaldığı hesab olunub, onun rəhbəri, oliqarx Ara Abramyana qarşı isə araşdırma başlayıb.

* Hər axşam (və ya bir gündən bir) Facebook-da canlı yayıma çıxmağın və seçicilərlə ünsiyyətin əsasını qoyub və bunu ənənəyə çevirib. Həmçinin, Facebook-da ilk Paşinyanla "Birbaşa xətt" keçirib.

* Aztəminatlı ailələr üçün elektrik enerjisinin qiymətini endirib, oliqarx Samvel Karapetyana məxsus "Taşir Qrup" şirkətini bunu etməyə razılaşdırıb.

Satış üçün nəzərdə tutulmayıb

* "Yüksək voltlu elektrik şəbəkələri" QSC-nin "Taşir Qrup"un nəzarəti altına verilməsi üzrə müqaviləni ləğv edib, onları dövlətin nəzarəti altında saxlayıb.

* "Qazprom Ermənistan"ı aztəminatlı ailələr üçün əhali təyinatlı qazın qiymətini 20% azaltmağa məcbur edib.

* Vaxtından əvvəl seçkilər ərəfəsində Seçki Məcəlləsinə düzəlişlərin hazırlanması üzrə komissiya yaradıb.

Və nəhayət

Bir tərəfdən, o, Rusiyanın rəhbərlik etdiyi KTMT və Aİİ ilə əməkdaşlığın gücləndirilməsi haqqında sənədləri imzalayıb.

Amma digər tərəfdən, əvvəllər Rusiya FTX qoşunları tərəfindən mühafizə olunan Ermənistan–Türkiyə sərhədində Yerevanın nəzarətinin qurulması prosesi başlayıb.

Ermənistanın yeni müdafiə naziri David Tonoyan 2018-ci il iyulun 8-də deyib: "RF sərhəd qoşunlarının Ermənistandakı statusuna yenidən baxılacaq". Bununla bağlı Rusiyanın "Kommersant" qəzetinin şərhində deyilir ki, bəyanat "müstəqilliyinin ilk illərindən (1992-ci ildən – H.H.) respublikada olan Rusiya hərbiçilərinin ünvanına ən sərt ifadə oldu".

Çox güman ki, Ermənistanın müstəqilliyinin möhkəmləndirilməsi üzrə addımlar Kreml tərəfindən cavabsız qalmayacaq. Və bu nəhəngin təzyiqinə dözmək üçün Paşinyanın inqilab komandasının Ermənistan cəmiyyətinin dəstəyinə, beynəlxalq demokratik ictimaiyyətin fəal dəstəyinə, habelə Qarabağ nizamlanması məsələsində sülh prosesinə ehtiyacı var.

Satış üçün nəzərdə tutulmayıb

AZƏRBAYCAN–FRANSA: $2 MLRD. VƏ İNSAN HÜQUQLARI HAQQINDA BİR KƏLİMƏ BELƏ YOXDUR[1]

Toplar danışanda, muzalar susur

2018-ci il iyunun 20-də prezident İlham Əliyevin Fransaya səfəri zamanı ümumi məbləği 2 mlrd. dollar olan mülki aviasiya, su təchizatı sahəsində, kosmik sahədə əməkdaşlıq haqqında bir sıra sənədlər imzalanıb. Prezidentlərin görüşündə neft-qaz sektorunda, nəqliyyat, metro tikintisi sahəsində, hərbi-texniki sahədə əməkdaşlıq məsələləri də müzakirə olunub. Danışıqlar zamanı siyasi, iqtisadi sahədə, energetika, ekologiya, nəqliyyat sahələrində, təhlükəsizlik, mədəniyyət sahəsində ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi qeyd edilib. Bu zaman Azərbaycanda beynəlxalq təşkilatların iddiasına görə, böhran vəziyyətində olan demokratiya və insan hüquqları ilə bağlı problemlər haqqında bir kəlimə belə deyilməyib.

Brüsseldə Azərbaycan və Aİ arasında "Tərəfdaşlığın prioritetləri haqqında" saziş imzalanarkən də (11.07.18) insan hüquqları yada salınmayıb. Prezident Trampın Azərbaycanın müstəqilliyinin elan edilməsinin 100 illiyi ilə bağlı təbrik məktubunda da insan hüquqları haqqında heç nə deyilməyib. Azərbaycanın humanitar sahədə üzərinə götürdüyü öhdəlikləri pozması məsələsinə məhəl qoyulmaması

[1] "TURAN" İnformasiya Agentliyi, 28 İyul 2018

Satış üçün nəzərdə tutulmayıb

ölkə demokratlarının məyusluğuna və beynəlxalq siyasət sahəsində ekspertlərin təəccübünə səbəb olur, axı əvvəllər, demək olar ki, istənilən diplomatik akt Qərbin bu sahədə böhranı tənqidi olmadan ötüşmürdü.

Bizə elə gəlir ki, "kollektiv Qərbin" Azərbaycanda humanitar vəziyyətə yanaşmasında bu dəyişiklik regionda hərbi-strateji dəyişikliklərlə, konkret olaraq Qərb və Rusiya arasında Kremlin Gürcüstan və Ukraynaya qarşı təcavüzündən sonra, habelə Suriya hadisələri və ABŞ, İran və Şimali Koreya arasında qarşıdurmadan sonra başlayan yeni Soyuq Müharibə ilə bağlıdır.

Bu yeni Soyuq Müharibədə bir-birinə qarşı duran tərəflər etibarına baxmayaraq, istənilən müttəfiqlərinin dəstəyini qazanmağa çalışırlar. Artıq dəfələrlə yazıldığı kimi, Azərbaycan sərfəli coğrafi mövqeyi və zəngin sərvətləri ilə əlaqədar Avrasiyada mühüm strateji nöqtədir və qlobal müharibə zamanı belə mühüm ölkənin hökumətini insan hüquqlarının pozulması haqqında məzəmmətlə incitmək məqsədəuyğun deyil.

Məsələn, ABŞ-ın təsbit edilmiş qanunvericiliyi, xarici siyasi maraqları aşağıdakı prinsiplərə əsaslanır:

1. Hərbi-strateji maraqlar
2. İqtisadi maraqlar
3. İnsan hüquqları və demokratiya

Yəni, strategiya və iqtisadiyyata ziyan gələcəksə, insan hüquqlarını anmamaq daha yaxşıdır və böyük müharibədə qələbə naminə istənilən despotik rejimlə əməkdaşlıq etmək lazımdır. Qərbi Avropa ölkələri də öz maraqlarını belə sıraya düzürlər, baxmayaraq ki, bu müddəalar qanunvericilikdə qeydə alınmayıb.

Xatırlayaq ki, SSRİ-yə qarşı aparılan birinci Soyuq Müharibə zamanı da kollektiv Qərbin məhz belə davranışı mü-

 Satış üçün nəzərdə tutulmayıb

şahidə olunurdu. Planetdə yayılmış kommunizm epidemiyası qarşısında qorxu Qərbi kommunizm ideologiyasının və SSRİ-nin təsirinin yayılmasına qarşı duran Latın Amerikasının diktator rejimlərini, Afrikanın kannibal rejimlərini və islam ölkələrində fundamentalist hərəkatları dəstəkləməyə sövq edirdi. Amma SSRİ dağılan kimi, Latın Amerikası və Afrika diktaturaları imkan daxilində ləğv olundu. İslam ekstremistləri isə hələ də fəaldırlar, amma onların mövcudluğu Qərbin onlardan Yaxın Şərqdə və Şimali Qafqazda Rusiyanın təsirinin möhkəmlənməsinə qarşı mübarizədə istifadə etməsinə imkan verir.

Beləliklə, nə qədər ki yeni Soyuq Müharibə gedir, demokratiya və insan hüquqları ikinci plana keçir. Necə deyərlər, "Toplar danışanda, muzalar susur". Amma bu vəziyyət uzun müddət davam etməyəcək. Rusiya, İran və Şimali Koreya məsələsi yoluna qoyulan kimi demokratiya və insan hüquqları məsələsi yenə gündəliyə gələcək, çünki onlarsız nə səmərəli əməkdaşlıq, nə sabit inkişaf, nə də dünyada təhlükəsizlik təmin edilə bilər.

Satış üçün nəzərdə tutulmayıb

RUSİYADA 9 SENTYABR SEÇKİLƏRİ SÜRPRİZLƏR GƏTİRƏ BİLƏR[1]

RF-də 9 sentyabr 2018-ci il tarixində vahid səsvermə günündə müxtəlif seçkili orqanlara seçkilər, o cümlədən ölkə parlamentinə 7 deputat seçkisi, Federasiyanın 26 subyektinin rəhbərlərinin seçimi və Federasiyanın 17 subyektində qanunverici orqanlara seçkilər keçiriləcək. Bundan başqa, Moskva və RF-nin digər 6 şəhərinin mer seçkiləri keçiriləcək.

Müşahidəçilər həyat səviyyəsinin bir qədər aşağı düşməsi və pensiya yaşının artırılması ilə əlaqədar seçicilər arasında müxalif əhvalİ-ruhiyyənin gücləndiyini və hakim "Yedinaya Rossiya"nın ("Vahid Rusiya") reytinqinin düşdüyünü qeyd edir. Ümumrusiya İctimai Rəyin Öyrənilməsi Mərkəzinin keçirdiyi sorğunun nəticələrinə görə, hakim partiyanın məşhurluğu yeddi il əvvəlki səviyyəyə düşüb və 37% təşkil edib. Beləliklə, sistemli müxalifətin (RFKP, RLDP və "Spravedlivaya Rossiya" ("Ədalətli Rusiya")) namizədlərinin şansı bir qədər artıb, real müxalifətin namizədlərinə gəlincə, hakimiyyət özünü böyük gözlənilməzliklərdən sığortalayaraq onların əksəriyyətini seçkilərə buraxmayıb.

Partiya siyahıları üzrə səsvermə keçiriləcək seçkilərdə "Yedinaya Rossiya"nın 50% yığmayacağı gözlənilir. Kommunistlərin mövqeyi güclü olan regionlarda (Buryatiya, İrkutsk böl-

[1] "TURAN" İnformasiya Agentliyi, 19 Avqust 2018

Satış üçün nəzərdə tutulmayıb

gəsi) RFKP hakim partiyanı sıxışdıra bilər. Partiya siyahıları üzrə seçkilərdə "Yedinaya Rossiya"nın zəifliyini qabaqcadan görən hakimiyyət inzibati resurs sayəsində təkmandatlı dairələrdə qalib gəlməyə və beləliklə, regional parlamentlər üzərində nəzarəti əlində saxlamağa ümid edir.

Xabarovskda vəziyyət maraqlı şəkildə inkişaf edir, burada imza toplanması ilə bağlı münaqişələrdən sonra Navalnının regional qərargahının rəhbəri Aleksey Vorsin qeydiyyata alınıb.

Seçkilərdə qeyd-şərtsiz favorit olan "Yedinaya Rossiya" bu il iyunun 3-də öz cərgələrində ilkin seçkilər – praymeriz keçirib. Qeyd edək ki, "Yedinaya Rossiya" RF-də praymeriz keçirən yeganə partiyadır. Praymeriz ilk dəfə 2006-cı ildə regional səviyyədə keçirilib.

Moskva meri seçkilərində də hakimiyyət qələbə qazanmaq iqtidarında olan müxalifləri seçkilərə buraxmayaraq artıq öz qələbəsini təmin edib.

Beləliklə, seçicilər arasında güclənən etiraz əhvali-ruhiyyəsinə baxmayaraq, "Vahid səsvermə günü" RF dövlət idarəçiliyi sisteminə əhəmiyyətli dəyişikliklər gətirməyəcək.

Amma əvvəlcədən uğursuz olan şəraitdə belə mübarizəsini davam etdirən real və sistemli müxalifətin israrlılığı müşahidəçilərin diqqətini cəlb edəcək. Belə ki, çox güman, pis idarəetmə və Qərbin sanksiyaları nəticəsində ölkədə iqtisadi vəziyyət pisləşməkdə davam edəcək və ciddi sosial sarsıntıları istisna etmək olmaz. Ola bilər ki, növbəti federal seçkilər gözlənilməyən sürprizlər gətirsin.

Satış üçün nəzərdə tutulmayıb

QIRĞIZISTANDA TÜRKDİLLİ ÖLKƏLƏRİN ALTINCI SAMMİTİ KEÇİRİLİB. PANTÜRKİZM YAŞAYIRMI?[1]

Sentyabrın 3-də Çolpon-Ata şəhərində (Qırğızıstan) türkdilli dövlətlərin Əməkdaşlıq Şurasının (bundan sonra Türk Şurası) VI sammiti keçirilib. Bu sammit Özbəkistan prezidentinin iştirakı ilə yadda qaldı. Çünki bundan öncə Türk Şurasının işində iştirakdan imtina edirdi. Sammitdə iştirak etmək üçün Macarıstanın baş naziri Viktor Urban da gəlib. Çox güman ki, məqsəd Macarıstan cəmiyyətinin özünün türk kökəni ilə ümumi bağlılığına artan marağı dəstəkləməkdir. Sammitdə Macarıstan Türk Şurası yanında müşahidəçi statusunu alıb. İştirakçı ölkələrin rəhbərləri Türk Şurasının VI sammitinin bəyannaməsini imzalayıblar və təşkilatın yeni baş katibini seçiblər. Qazaxıstanın nümayəndəsi Bağdat Amreyev yeni baş katib seçilib.

* * *

Tezliklə Türk Şurası, deyək ki, Avropa İttifaqına sanballı inteqrasiya layihəsinə çevriləcəkmi? Ekspertlər bununla bağlı şübhəli fikirlər söyləyirlər. Şura ölkələrinin ümumi iqtisadi potensialı böyük deyil. Şura ölkələrinin ümumu ÜDM-i cəmi 3 trilyon ABŞ dolları təşkil edir. Halbuki, Avropa İttifaqının

[1] "TURAN" İnformasiya Agentliyi, 10 Sentyabr 2018

Satış üçün nəzərdə tutulmayıb

ÜDM-i 17 trilyon ABŞ dolları təşkil edir. Axı planlaşdırılan birgə layihələrə görə kimsə ödəniş etməlidir, ancaq hələlik Türk Şurasında səxavətli böyük qardaş yoxdur.

Hələlik strateji baxımdan zəif olan Türk Şurasının geosiyasi gələcəyinə gəlincə, o, özünə müttəfiq kimi ya Qərbi, ya Rusiyanı, ya da Çini seçməlidir.

Türkiyə Şura ilə bağlı qarşıya daha praqmatik məqsədlər qoyur. Tanınmış türkiyəli ekspert və Türkiyə parlamentinin deputatı Sinan Ohan deyib: "Nə Türkiyə, nə türk dünyası siyasi birlik yaratmağı planlaşdırır. İnteqrasiya türkdilli ölkələr arasında vizasız rejimin müəyyən edilməsinə, qarşılıqlı iqtisadi fəaliyyət üçün gömrük maneələrinin aradan qaldırılmasına yönəlib". Yəni, Türkiyə Türk Şurası ölkələri ərazisində özünün biznesi üçün əlverişli şərait yaratmağa çalışır.

Eyni zamanda qeyd etmək lazımdır ki, türk birliyi ideyası qısa zamanda geniş məzmun kəsb edib. Türk Şurası 2009-cu ildə yaradılıb. Onun üçün model Britaniya Millətlər Birliyi, Ərəb Dövlətləri Liqası olub.

Türkdilli dövlətlərin qarşılıqlı fəaliyyəti SSRİ-nin süqutundan və bu ölkələrin müstəqillik əldə etməsindən sonra başlayıb.

Türkdilli dövlətlərin birinci sammiti 1992-ci ildə İstanbulda keçirilib və o vaxtdan bu cür sammitlər demək olar ki, hər il türkdilli ölkələrin paytaxtlarında keçirilir. 1992-ci ildə Türkiyədə türkdilli ölkələrlə əməkdaşlığın inkişafı üzrə xüsusi təşkilat (TİKA) yaradılıb. Bu təşkilatın türkdilli ölkələrdə öz koordinasiya ofisləri var və türkdilli ölkələrin şirkətlərinin iştirakını, onların yerli təşkilatlarla əməkdaşlığını koordinasiya edir.

Qeyd etmək lazımdır ki, türk inteqrasiyası prosesinin əsas hərəkətverici qüvvəsi həmin ölkələrin ümumi dili, mədəniyyət və tarixidir. N.Nazarbayev deyib: "Artıq birləşdirici tarixi platforma seçilib: ümumi türk tarixi dərsliyi yaradılıb. Dərslik məktəb tədrisi sisteminə tətbiq ediləcək. Bundan əlavə,

Satış üçün nəzərdə tutulmayıb

tədricən əlifbanın latın qrafiki ilə dəyişdirilməsi prosesi gedir. Bunun sayəsində ümumi türk ədəbi dilinin yaradılması ideyası və vahid türkdilli təhsil məkanının fəaliyyəti həyata keçirilə bilər".

Diqqətlə nəzər salsaq, bütün bunlar tükdilli xalqların birləşməsi və tərəqqisi – pantürkizm barədə məlum ideyanı xatırladır. Müasir inteqrasiya prosesi də bundan başlayıb. Bir qədər sonra burada iqtisadi əməkdaşlıq faktı nəzərəçarpacaq rol oynamağa başladı. Lakin bundan əlavə, son illər inteqrasiya prosesi Putin hökumətinin bəyan etdiyi Rusiyanın aqressiv siyasəti ilə üzləşməli olub. Belə ki, Putin açıq şəkildə bildirib ki, SSRİ-dən ayrılan respublikalar itirilmiş Rusiya torpaqlarıdır və onları geri qaytarmaq pis olmazdı. Bu kontekstdə Türk Şurasına Rusiyanın rəhbərlik etdiyi Avrasiya İttifaqı layihəsinə alternativ kimi baxmaq olar.

19–20-ci əsrlərdə xaricdə tatar maarifçi Qasprinski, azərbaycanlılar Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev kimi türk maarifçilər və Çar Rusiyasının ictimai xadimləri tərəfindən formalaşan pantürkizm ideyası bütün dünya türklərinin kolonializm və assimilyasiyadan qorunmasına yönəlib. O vaxtdan onun daşıyıcılarına qarşı amansız repressiyalara baxmayaraq, ideya sönməyib və cəmiyyətdə türk xalqlarının dirçəlişinə ümid yaratmaqda davam edib.

İlk Azərbaycan Respublikasının (1918–1920) siyasi partiyaları və vətəndaş cəmiyyəti bu ideyanı fəal şəkildə dəstəkləyiblər. Lakin 1920-ci ildə bolşeviklərin gəlişi ilə pantürkizm və ya sadəcə türkizm tərəfdarlarını ölüm hökmü gözləyirdi. Stalinin ölümü və repressiyanın bir qədər zəifləməsi ilə pantürkizm yenidən populyarlıq qazanmağa başladı. 1978-ci ildə Azərbaycanda istedadlı şərqşünas-türkoloq Aydın Mirsaleh oğlu Məmmədovun (1944–1991) rəhbərliyi ilə yaradılmış "Ana dili" ictimai təşkilatını qeyd etmək lazımdır. "Ana dili" türkdilli xalqların mədəni irsinin bərpası mövzusunda müntəzəm seminarlar keçirməyə başladı. Bundan

 Satış üçün nəzərdə tutulmayıb

əlavə, "Ana dili"nin emissarları bütün Sovet İttifaqı boyunca gedərək türkdilli müttəfiq və muxtar respublikaların ziyalıları ilə əlaqə qurdular, bununla da ümumittifaq araşdırıcılar və ictimai xadimlər ümumtürk irsi ilə məşğul olan şəbəkə yaratdılar. "Ana dili" Azərbaycan və rus dillərində "Xəzər" jurnalını buraxmağa başladı. Jurnalda türkologiya sahəsində tarixi baxımdan mühüm sənədlər və dünya araşdırmaları ilk dəfə olaraq tərcümə edilib.

Türk ideyasının təbliği uzun müddət kolonializm və assimilyasiyaya məruz qalmış türkdilli respublikalarda geniş dəstək ala bilmirdi. Ancaq bu, öz maarifçilik işini həm Azərbaycanda, həm də türkdilli xalqların yaşayış arealında davam etdirən "Ana dili" fəallarını və digər azərbaycanlıları durdurmurdu.

Xoşbəxtlikdən türk birliyi və dirçəlişi ideyasının daşıyıcılarına həyatda ikən öz səylərinin nəticəsini görmək nəsib oldu. Baxmayaraq ki, yeni türkdilli ölkələrin hökumətləri bu ideyaya böyük entuziazm ilə yanaşmırdılar, həmin ölkələrin cəmiyyətlərində türk birliyi ideyası yetərincə ucadan səslənməyə və həmin ölkələrin hüdudlarından kənarda eşidilməyə başladı. Buna parlaq nümunə kimi Qazaxıstanda ümumtürk əhvali-ruhiyyənin artmasını göstərə bilərik. Ölkədə açıq mətbuatda və İnternet şəbəkələrdə "biz Qarabağ məsələsində azərbaycanlı qardaşlarımızı dəstəkləməliyik" kimi çağırışlar səslənməyə başladı. Və ümumiyyətlə, "Azərbaycanda türklərin yaşadığı yerlər var ki, "Qazax" adlanır". Cəmiyyətdəki əhvali-ruhiyyəinin ardınca Qazaxıstan hökumətinin siyasəti də dəyişməyə başladı. N.Nazarbayev Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalına qarşı fəal çıxışlar etməyə başladı. O, öz açıq çıxışlarında daim ümumtürk köklərinə, türk xalqlarının ümumi tarixinə və mədəniyyətinə istinad edir. "Biz ərəb deyilik. Bizim qadınlarımız çadraya

Satış üçün nəzərdə tutulmayıb

bürünməyəcək", – o, bu yaxınlarda regionda islam radikalizminin yayılması ilə bağlı deyib. Türk Şurasının son sammitinə isə Özbəkistan da qoşulub.

Beləliklə, hələlik türk birliyi və irəliləyişi ideyası irəli sürülür, Türk Şurasının özünün də mühüm siyasi və iqtisadi çəkisi yoxdur. Lakin hər nə olursa-olsun, humanitar baxımdan türk inteqrasiyası prosesi, eləcə də Rusiya və Çinin türk xalqlarını öz idarəçiliyinə qaytarmaqla bağlı mümkün cəhdləri inteqrasiya prosesini hər zaman irəlilədəcək.

Satış üçün nəzərdə tutulmayıb

ERMƏNİSTAN – İNQİLAB SONRASI SİNDROM VƏ YENİLMƏZ MANEVRLƏR[1]

Sentyabrın 13-də KİV-də Ermənistandan yayılan xəbərdən bir çox Azərbaycan KİV-ləri çaşqınlığa düşüb. Ermənistanın ölkə parlamentinin Azərbaycana qarşı şərti olaraq müharibə elan etməsi ilə başlayan geniş miqyaslı "Şant-2018" hərbi təlimlərini keçirdiyi bildirilirdi.

İki gün əvvəl Ermənistan hökumətinin rəhbəri Nikol Paşinyan kütləvi mitinqdə tərəfdarları qarşısında 100 günlük hakimiyyəti haqqında hesabatla çıxış edib. O, korrupsiyaya qarşı mübarizəsi, xarici siyasəti və hərbi planları haqqında hesabat verib.

Bundan əvvəl, sentyabrın 8-də Paşinyan Kremldə Putinlə danışıqlar aparıb və məxmər inqilabdan sonra Ermənistan və tarixi müttəfiqi Rusiya arasında ortaya çıxmış problemləri müzakirə edib.

Eyni vaxta təsadüf edən bütün bu mühüm xəbərlər bir daha müşahidəçilərin diqqətini Ermənistan hadisələrinə çəkib. Onları ənənəvi adla – inqilabsonrası sindrom kimi ifadə etmək olar.

Bu gün Ermənistanda, demək olar ki, dəqiqliklə hər bir böyük inqilabdan sonra baş verənlər baş verir. İstər 1789-cu il Böyük Fransa inqilabı olsun, istər 1917-ci il Rusiyada bolşe-

[1] "TURAN" İnformasiya Agentliyi, 14 Sentyabr 2018

Satış üçün nəzərdə tutulmayıb

vik inqilabı. Kütləvi etirazların və köhnə rejimin devrilməsinin arxasınca inqilab düşmənlərinin təmizlənməsi, vətəndaş müharibəsi və qonşularla müharibə gəlir. Hadisələrin bütün iştirakçıları emosiyalarla və hiperaktivliklə doludur, onların bəyanatlarında və əməllərində ardıcıl və səmərəli bir şey tapmaq çətindir.

Paşinyanın və onun tərəfdarlarının hakimiyyətə gəldikdən sonra elan etdikləri inqilabın strateji hədəfləri ziddiyyətli və yerinə yetirilməsi çətin hədəflər kimi görünürdü:

a) korrupsiyaya qarşı mübarizə və inkişaf etmiş hüquqi dövlətin qurulması;

b) ölkənin suverenliyinin möhkəmləndirilməsi (Rusiyadan asılılığın azaldılması) və Avrointeqrasiya;

c) Azərbaycanla müharibədə qələbə və Azərbaycanın işğal edilmiş ərazilərinin Ermənistana birləşdirilməsi

Sentyabrın 11-də yeni hökumətin hakimiyyətinin 100 günlüyünə həsr olunmuş mitinqdə Paşinyan korrupsiyaya və köhnə hökumətdən ölkəni talan edən və Rusiyanın vassalına çevirən oliqarxlara qarşı mübarizə haqqında uğurlu hesabat verə bilib. Amma iki digər məqsədə nail olunmasında uğurlar haqqında hələlik deyəcək sözü olmayıb.

Rusiyadan uzaqlaşmadan Avropa istiqamətində irəliləməyin necə mümkün olacağı hələlik düşünülməyib. Rusiyanın himayəsindən imtina edərək, Qarabağ müharibəsində necə qalib gəlmək olar? Ölkəni həm iqtisadiyyatda, həm də müdafiə sahəsində bütün hakim yüksəkliklərə malik olan Kremllə sıx əlaqədə olan oliqarxlardan necə xilas etmək olar? Görünür, inqilab törətmək inqilabsonrası ölkəni idarə etməkdən çox-çox asan imiş.

Yeni hökumətin tənqidçiləri artıq Paşinyanın və onun komandasının üzvlərinin hökumətin planları və islahatların həyata keçirilməsinin gedişatı haqqında ziddiyyətli ifadələrini qeyd etməyə başlayıblar. Belə ki, məsələn, ölkənin yeni mü-

 Satış üçün nəzərdə tutulmayıb

dafiə naziri David Tanoyan ötən ay Rusiya sərhədçilərinin Ermənistan–Türkiyə və Ermənistan–İran sərhədindən çıxarılacağını və erməni sərhədçilərlə əvəz olunacağını bəyan edib. Rusiyadan asılılığın azaldılması üzrə bu konkret addım Kremli narahat etməyə bilməzdi. Rusiya dərhal Ermənistandan bəzi kənd təsərrüfatı mallarına embarqo qoymaqla hədələyib. Ermənistanda Rusiyayönlü dairələr dərhal Paşinyanın Ermənistanı sadiq tarixi müttəfiqsiz qoymaq istədiyi barədə həyəcan təbili çalıblar və deyiblər ki, ümumiyyətlə, yaxşı olardı ki, Rusiyanı qəzəbləndirməsinlər.

Paşinyanın xeyrinə demək lazımdır ki, o, dərhal vəziyyəti düzəltməyə çalışıb, Moskvaya son səfəri zamanı deyib: "Rusiya sərhədçilərinin Ermənistan–Türkiyə və Ermənistan–İran sərhədini qoruması davam etdiriləcək, belə ki, bu, Ermənistana çox kömək edir. Moskvanın Ermənistanın mövqeyində belə bir çevrilişə nə dərəcədə etibar etmək iqtidarında olduğu məlum deyil.

"Exo Moskvı" radiostansiyasına müsahibəsində Paşinyan Putinlə görüşdə müzakirə etdiyi məsələlərdən danışıb:

– Ermənistanda Rusiyanın 102-ci hərbi bazası Ermənistanın təhlükəsizlik maraqları üçün mövcuddur və fəaliyyətini davam etdirəcək.

– Azərbaycanla müharibə təhlükəsi artır və Rusiyanın Əliyevi müharibədən çəkindirmək üçün hər cür imkanı var.

– Rusiya sərhədçilərinin Ermənistan–Türkiyə və Ermənistan–İran sərhədini qoruması "davam etdiriləcək, belə ki, bu, Ermənistana çox kömək edir".

– Rusiyanın bizə daha bir atom stansiyası tikməyə kömək edəcəyinə ümid edirik.

Bundan başqa, Paşinyan "Exo"ya müsahibəsində bildirib ki, "erməni diasporlarının, o cümlədən Rusiyadakı erməni diaspor nümayəndələrinin Ermənistanın hökumət qurumlarında xidmət edə bilməsi üçün Konstitusiya dəyişdiriləcək".

 Satış üçün nəzərdə tutulmayıb

Parlament seçkiləri isə "oktyabrda da, noyabrda da, dekabrda da, maya qədər keçirilə bilər".

Bütün bunlar kifayət qədər real səslənir, yalnız belə bir Rusiya ilə əməkdaşlığın dərinləşdirilməsi kursu varkən, həm də Avrointeqrasiya kursunu həyata keçirməyin necə mümkün olacağı sual altındadır.

"İnqilab düşmənləri"nin öhdəsindən gəlmək də o qədər asan olmayacaq. Hakimiyyətdən kobud şəkildə sui-istifadə etmiş keçmiş ölkə liderlərinin cinayətlərinin ifşasına və Ermənistanın keçmiş hakim Respublika Partiyasından (ERP) nüfuzlu korrupsionerlərin həbsinə baxmayaraq, Ermənistan müxalifəti belə tez təslim olmaq niyyətində deyil. Belə də olmalıdır, axı parlament, dövlət aparatı və ordu hələlik əhəmiyyətli dərəcədə ERP üzvlərindən və müştərilərindən ibarətdir. Bundan başqa, köhnə rejimin üzvlərinin Kreml tərəfindən fəal şəkildə dəstəklənməsi onlara qarşı mübarizəni xeyli çətinləşdirir.

Dinc nümayişdə güllələmənin təşkilinə görə həbs edilmiş (28.07.18) Ermənistanın keçmiş prezidenti Robert Koçaryan (1998–2008), çox güman ki, Moskvanın təzyiqi ilə azadlığa buraxılıb (13.08.18). 3 gün sonra Koçaryan bildirib ki, siyasətə qayıdır. Aydındır ki, Koçaryan fiquru ətrafında yeni kursun bütün düşmənləri toplaşacaq.

Hələlik Paşinyanın tənqidçilərinin əsas arqumenti onun Avrointeqrasiya və Rusiyadan asılılığı azaltmaq kursudur, bu, Ermənistanın Qarabağı itirməsinə gətirib çıxara bilər. Paşinyan və onun komandasının üzvləri Soros-un pulu ilə bəslənmiş və təhsil almış Qərbin casusları elan edilir. Yəni Paşinyan, anti-Rusiya siyasəti Abxaziya və Cənubi Osetiyanın itirilməsinə gətirib çıxaran ikinci Saakaşvili kimi təqdim edilir.

Bundan başqa, ölkədə korrupsioner oliqarxlara qarşı mübarizə artıq onların əksəriyyətinin öz bizneslərini qurmağa

 Satış üçün nəzərdə tutulmayıb

və kapitallarını Ermənistandan çıxarmağa başlamasına gətirib çıxarıb...

Azərbaycanla ehtimal olunan müharibə zamanı əməliyyatların işləndiyi 4 günlük geniş miqyaslı "Şant-2018 manevrlərinin nəticələri hələ hərbi ekspertlər tərəfindən diqqətlə araşdırılacaq və şərh ediləcək. Manevrlər zamanı bütün ölkə "şərti hərbi vəziyyətə" keçiriləcək, deyə dünən Paşinyan Ermənistan Müdafiə Nazirliyinə baş çəkərkən bildirib. Ssenari çox sayda qaçqın qəbul edilməsi üzrə addımların işlənib hazırlanmasını da nəzərdə tutur. Yerli özünüidarə orqanlarının işinə də diqqət yetirilib, onlar ordu və dövlət aparatı ilə uyğun şəkildə fəaliyyət göstərməlidir. "Şant-2018" ssenarisində "Artsax Silahlı Qüvvələri"nin rəhbərliyinin fəaliyyəti də nəzərə alınıb, belə ki, Paşinyanın sözlərinə görə, "Ermənistan Artsaxın təhlükəsizliyinin zəmanətidir, bu şərti müharibə isə, aydındır ki, Qarabağ problemi ilə bağlıdır".

Ölkənin Baş Qərargah rəisi Artak Davtyanın sözlərinə görə, "ssenariyə əsasən, Ermənistan şərti olaraq itirilmiş əraziləri qaytarır... Həmsərhəd zonaya düşmən artilleriyası tərəfindən atəş açılıb, yaralananlar və həlak olanlar var. Ermənistan SQ atəş nöqtələrini yatırır". Qısacası, kağız üzərində Ermənistan qalib gəlib...

Bizim fikrimizcə, "Şant-2018" manevrlərinin keçirilməsinin bir neçə məqsədi olub: Birincisi, xüsusilə 2016-cı ildə 4 günlük müharibədən sonra aşağı səviyyədə olması erməni strateqlərini ciddi şəkildə narahat edən ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsidir.

İkincisi, "Şant-2018" Paşinyanın rəqiblərinin yeni hökumətin Qarabağı Azərbaycana təhvil verməyə hazırlaşdığı və Avropaya doğru can atdığı haqqında iddialarına vaxtında verilmiş cavabı oldu.

Və əlbəttə ki, manevrlər əhalinin əhvali-ruhiyyəsini qaldırmaq, Ermənistanın resursları Ermənistanın resursların-

Satış üçün nəzərdə tutulmayıb

dan çox-çox artıq olan Azərbaycana qarşı dura biləcəyinə ümid yaratmaq məqsədi daşıyır. Digər inqilablarda, böhranlarda da olduğu kimi, ölkəyə yenilməz müharibə lazımdır. Müharibə olmasa isə, yenilməz manevrlər.

Beləliklə, qarşıya qoyulmuş məqsədlərin ziddiyyətli olmasına baxmayaraq, inqilabçı Paşinyan hökuməti ilk 100 günü hakimiyyətdə qalmağa müvəffəq olub. Bundan başqa, Paşinyan çox məşhurdur. Sosioloji sorğular göstərir ki, əhalinin 74%-ə yaxını bu gün parlament seçkilərində onun rəhbərlik etdiyi hərəkata səs verməyə hazırdır. Amma yarım il sonra, əhali həyat səviyyəsində konkret yaxşılaşma tələb etməyə başladıqda nə olacağı aydın deyil. Axı hazırkı ziddiyyətli proqramla belə bir yaxşılaşdırmaya nail olmaq çətin olacaq. İnqilabi entuziazm əbədi deyil. Demək olar ki, seçkilər nə qədər çox təxirə salınsa, Paşinyan seçkilərdə o qədər çox narazılıqla qarşılaşmalı olacaq.

Satış üçün nəzərdə tutulmayıb

AZƏRBAYCAN VƏ ERMƏNİSTAN MÜHARİBƏ ŞƏRAİTİNDƏ[1]

Sentyabrın 17-dən 22-nə qədər Azərbaycanda böyük miqyaslı manevrlər keçirilib. Tədbirdə 20 mindən çox hərbi qulluqçu, 200-dən çox tank və digər zirehli texnika, 30-a yaxın ordu və cəbhə aviasiyası iştirak edib. Bu manevrlər Azərbaycan–Ermənistan münaqişəsinin siyasi cəhətdən ciddi şəkildə gərginləşməsi fonunda keçirilib və Ermənistanda 11–14 sentyabr 2018-ci il tarixlərində keçirilmiş geniş miqyaslı manevrlərdən dərhal sonra baş tutub.

İlk dəfə olaraq Ermənistan manevrlərə ölkə parlamentinin Azərbaycana qarşı şərti müharibə elan etməsi ilə başlayıb. Öz növbəsində, Azərbaycan ilk dəfə olaraq bildirib ki, sentyabr manevrlərinin məqsədi Ermənistanın Azərbaycan ərazilərini işğal etmiş hərbi hissələrinin dağıdılmasıdır.

Hər iki tərəf manevrlərin planlaşdırılması zamanı qarşıya qoyulmuş bütün məqsəd və vəzifələrin uğurla yerinə yetirildiyi barədə raport veriblər. Ermənistan manevrlər zamanı Azərbaycan silahlı birləşmələrini, Azərbaycan isə, müvafiq olaraq, erməni birləşmələrini dağıdıb. Manevrlər zamanı hər iki tərəf bildirib ki, atışlar döyüş xarakteri daşıyıb.

15 sentyabr 2018-ci il tarixində Türkiyə-Azərbaycan birgə qüvvələri tərəfindən Bakının bolşevik-erməni qoşunlarından azad edilməsinin 100 illiyinə həsr edilmiş hərbi parad-

[1] "TURAN" İnformasiya Agentliyi, 27 Sentyabr 2018

Satış üçün nəzərdə tutulmayıb

da Türkiyə prezidenti R.Ərdoğan iştirak edib. Türkiyə lideri tribunadan bildirib ki, Türkiyə-Azərbaycan qardaşlığı sarsılmazdır və "Qarabağ problemi ədalətli şəkildə həll olunana qədər Türkiyə-Ermənistan sərhədinin açılmasından söhbət belə gedə bilməz"...

Hərbi manevrlər və münaqişə tərəflərinin hazırlıqları Ermənistanın yeni lideri Paşinyan tərəfindən başladılmış və əvvəllər görülməmiş emosional söz dueli ilə müşayiət olunub. Paşinyan, göründüyü qədər, hələ də inqilabi eyforiya əhvali-rühiyyəsində qalmaqda davam edir.

Paşinyan hakimiyyətə gələn kimi dərhal bildirib ki:

– heç bir nəticə verməyən danışıqlardan imtina edir;

– danışıqlar prosesində Qarabağ da iştirak etməlidir;

– Ermənistan Azərbaycanı tar-mar edəcək, belə ki, indi bu, tamamilə başqa – birliyi olan ölkədir, bütün dünyada erməni diasporu onu fəal şəkildə dəstəkləyəcək;

– tərəddüd etmədən, Qarabağı Ermənistana birləşdirməyin vaxtı çatıb.

Azərbaycan prezidenti İlham Əliyevin cavabı da gecikməyib:

– "Müharibə hələ bitməyib";

– "Tezliklə Qarabağ üzərində Azərbaycan bayrağı dalğalanacaq" və

– "Yaxşı olardı ki, Paşinyan sakitləşib yerinə otursun, yoxsa lazımi cavabı alacaq".

Daha sonra hər iki lider öz oğullarını orduda həqiqi hərbi xidmətə göndərdi. Bu, elitanın əvvəllər əlindən gəldiyi qədər övladlarını orduya çağırışdan azad etməyə çalışdığı ölkələr üçün görünməmiş hadisədir.

2018-ci ildə neft gəlirlərinin artdığı dövrdə Azərbaycan ordusunun yenidən silahlandırılması üzrə yeni proqrama başlayıb. Sentyabrın 18-də Biləsuvar rayon sakinləri ilə görüşdə İ.Əliyev deyib: "Ordumuzu gücləndirməyə davam edəcəyik, orduya daha çox vəsait ayıracağıq və onun müdafiə qabiliyyətini hər yolla gücləndirəcəyik".

 Satış üçün nəzərdə tutulmayıb

Maraqlıdır ki, keçmiş kiçik və böyük böhranlardan fərqli olaraq, beynəlxalq vasitəçilər Ermənistan və Azərbaycan ştabçılarının hazırkı gərginliyinə münasibət bildirməyib. ATƏT-in Minsk Qrupunun həmsədrləri gərginliyə son qoymaq məqsədilə tərəflərin əməllərinə, demək olar ki, reaksiya vermədi.

Bununla əlaqədar İsrailin müdafiə nazirinin (13–18 sentyabr) səfərini qeyd etmək lazımdır. O, beş gün Bakıda qaldı, Azərbaycan prezidenti və müdafiə naziri ilə ölkələr arasında hərbi əməkdaşlığın genişləndirilməsi haqqında, o cümlədən Azərbaycana İsrailin yüksək texnoloji silahlarının satışı haqqında danışıqlar apardı. Detaly.co.il-in məlumatına görə, "2017-ci ildə İsrailin silah ixracının həcmi 9,1 mlrd. dollara çatıb. İsrailin silah ixracının 13%-i Azərbaycanın payına düşür".

Sentyabrın 27-də isə RF prezidenti V.Putin Azərbaycana səfər edib. O, prezident İ.Əliyevin Soçi səfərində müəyyən edilmiş qarşıda duran altı il üçün Rusiya–Azərbaycan ticari-iqtisadi əməkdaşlığının genişləndirilməsi kursunu davam etdirib. Əməkdaşlığın hərbi aspekti haqqında açıq heç nə deyilməyib. Amma qeyd etmək lazımdır ki, Putinin səfəri Bakıda keçirilən müdafiə sərgisi ilə eyni vaxta təsadüf edib, burada Rusiya istehsalçıları öz silahlarını təqdim ediblər və o, gələcəkdə Rusiya silahlarının ixracı perspektivlərini müzakirə etməyə bilməzdi.

Bütün bu manevrlər, paradlar, söz duelləri və xarici liderlərin regiona səfərləri müşahidəçilərə münaqişə zonasında müəyyən geniş miqyaslı hadisələrin xəbərçisi kimi görünə bilər. Yerevan və Bakının son bəyanatlarından da görünür ki, münaqişə tərəfləri qələbə ilə nəticələnənə qədər böyük müharibəyə həm psixoloji, həm də maddi cəhətdən hazır olduqlarını düşünürlər.

Amma, belə bir müharibə ehtimalı nə dərəcədə ciddidir?

Ermənistan irimiqyaslı müharibə istəmir, onu hazırkı *status quo* tamamilə qane edir.

Rusiya belə bir müharibə istəmir, çünki hər iki münaqişə tərəfinin Rusiyanın dəstəyindən asılı olmasına səbəb olan hazırkı *status quo* onu da tamamilə qane edir.

Qərb də belə bir müharibənin tərəfdarı deyil, çünki o, Xəzərdə enerji resurslarının hasilatına və nəqlinə və digər mövcud və gələcək layihələrə yatırılmış çoxmilyardlıq investisiyalara ziyan vura bilər.

"Azadlıq müharibəsi" yalnız Azərbaycan üçün arzu olunandır, amma hətta böyük müharibəyə hazırlıq mərhələsində belə Bakı böyük ehtimalla nüfuzlu dünya "sülhməramlı alyansı" ilə qarşı-qarşıya gələcək.

Belə bir müharibə Azərbaycan üçün ölkələrin və ya alyansların – münaqişənin moderatorlarının maraqları təmin edildiyi halda, baş verə biləcək "sülhməramlı" alyans zəifləyəcəyi təqdirdə nəticə verə bilər. Bu ölkələr və ya alyanslar Azərbaycanda fəallığı artırır, burada neft-qaz, hərbi və digər milyardlıq layihələr ətrafında sövdələşmələr dönür, doğru bölgü aparılarsa, onlar Bakı üçün üstünlüyə və onun təhlükəsizlik çətirinə çevrilə bilər.

Ermənistanın şərti deyil, real düşmən göstərməklə oynadığı hərbi oyunlar belə olan vəziyyətdə qərargah proqramları olaraq qalacaq, Ermənistan–Azərbaycan münaqişəsində "nə müharibə, nə sülh" statusu isə dağılmağa başlaya bilər. Azərbaycan Ermənistanın özünü sakit hiss etməsinə imkan verməmək üçün, çətin ki, düşmənlə təmas xəttində daimi gərginlik yaratmaqdan imtina etsin. Erməni əsgərləri başqasının ərazisində minalardan və snayperlərdən həlak olacaq. Ermənistanın iqtisadi, demoqrafik tənəzzülündən və onun regional təcridindən göründüyü qədər, erməni cəmiyyəti üçün bu *status quo*-ya dözmək asan olmayacaq.

БАКУ ЗАИНТЕРЕСОВАН В ОСВОБОЖДЕНИИ КАРАБАХА, А МОСКВА – В ПОЯВЛЕНИИ СВОИХ ВОЙСК В АЗЕРБАЙДЖАНЕ[1]

Собеседник Minval.az – экс-посол Азербайджана в России, политолог Хикмет Гаджизаде.

— Как Вы оцениваете сегодняшний уровень российско-азербайджанских отношений?

— На данный момент сложился определенный статус-кво, который устраивает Россию, но не устраивает Азербайджан. И это связанно с карабахским вопросом, решение которого находится в руках России. Таким образом, благодаря этому конфликту, Москва держит Азербайджан в подвешенном состоянии. Мы хотим, чтобы Россия помогла нам возвратить наши захваченные Арменией территории, или же, во всяком случае, не мешала бы нам вернуть их. В ответ на это российская сторона просит Баку пойти на определенные уступки, а именно – согласиться на присутствие российских войск под видом миротворческих сил. Они говорят нам, мол, вернем земли, поможем, но армяне якобы не верят вам, и им нужно присутствие наших миротворцев. А кто эти миротворческие силы? Это российская армия. Как

[1] 9 Oktyabr 2018, https://minval.az/news/123829904

Satış üçün nəzərdə tutulmayıb

только российские военные появятся в Карабахе, можно сказать, что территории мы потеряем навсегда. Так же как это было в Абхазии и Южной Осетии, где по решению Эдуарда Шеварднадзе был размещен российский миротворческий контингент, который позднее превратился в оккупационный, а дальше все мы знаем, что произошло. Вот что требует от нас Москва. И дело вовсе не в том, вступим мы в Евразийский союз или ОДКБ. Это не так волнует Москву, поскольку мы можем вступить в эти структуры, а спустя время – покинуть их ряды. Россия требует присутствия своих войск на территории Азербайджана. Они убеждены, что это станет гарантией нахождения Азербайджана на долгое время под влиянием России. Вот такие у нас взаимоотношения.

Не считая карабахского вопроса, между Азербайджаном и Россией, кажется, все вроде бы хорошо. Нам говорят о дружбе между Москвой и Баку, но все это иллюзия. Все озвученные азербайджанской стороной в адрес России комплименты преследуют одну цель – мы рассчитываем на помощь Москвы в карабахском вопросе. Но у российской стороны свои интересы.

— Но тем не менее мы видим, что армяно-российские отношения испортились после прихода к власти премьера Пашиняна. Открывает ли ухудшение отношений между Ереваном и Москвой окно возможностей для карабахского урегулирования?

— Да, между Москвой и Ереваном отношения явно ухудшились, но особых изменений в политике двух стран не наблюдается. Россия предпочитает молчать, она заняла выжидательную позицию, ждет, чем завершится в Армении внутриполитическая борьба. Если даже Ереван попытается оторваться от Москвы, все равно, для того, чтобы наказать Армению, Россия попросит от Баку возвращения своих войск. Да, у нас возникла определенная надежда, но надо понимать, что просто так Россия не позволит освободить

 Satış üçün nəzərdə tutulmayıb

Нагорный Карабах, не станет помогать нам. Нам скажут, мол, Армению мы потеряли, зато хотим вернуть Азербайджан в свою политическую орбиту.

— Периодически представители российской общественности, в том числе и некоторые российские парламентарии озвучивают антиазербайджанские заявления. Как думаете, почему озвучиваются такие заявления?

— Возможно, это лоббистская деятельность армянского правительства. Но я наблюдаю в последнее время другую картину: в российском правительстве стараются больше ругать Армению и хвалить Азербайджан. Правда, есть отдельные депутаты, к примеру, тот же Константин Затулин… Он вообще профессиональный лоббист российских интересов на кавказском фронте. Кто больше ему заплатит, он то и говорит. Не думаю, что его антиазербайджанские заявления — позиция официальной Москвы.

— Накануне супруга премьер-министра Армении Никола Пашиняна – Анна Акопян посетила вместе с группой российских женщин оккупированный Нагорный Карабах, вопреки протестам Баку. Что Вы думаете о ее "миротворческой" инициативе "Женщины за мир"?

— Это просто пропагандистская акция. Она — первая леди Армении, и хочет что-то сделать, проявить определенную активность. Но с другой стороны, я думаю, Пашинян не столь непримирим, как Серж Саргсян. Небольшая надежда у нас есть, но миротворческие шаги супруги армянского премьера – это всего лишь самопиар.

Бахтияр Сафаров

Satış üçün nəzərdə tutulmayıb

ERMƏNİSTAN UĞRUNDA MÜBARİZƏ: PARLAMENT MƏRHƏLƏSİ[1]

Ermənistanda 2018-ci il məxmər inqilabı davam edir və onun nəticəsi hələlik müəyyən olunmayıb. N.Paşinyanın rəhbərlik etdiyi dəyişikliklər uğrunda kütləvi hərəkatın və parlamentdə əksəriyyət təşkil edən köhnə rejimin tərəfdarlarının qarşıdurması yenidən gərginləşib.

Ona düşmən olan parlament tərəfindən baş nazir vəzifəsinə seçilmiş (xalq etirazlarının təzyiqi altında) Paşinyan bu paradoksal vəziyyətdən çıxış üçün 2018-ci ilin dekabrında parlamentə növbədənkənar seçkilər keçirmək planını elan edir. Paşinyanın fikrincə, bu seçkilər ölkənin qanunverici iclasında inqilabçı əksəriyyətin seçilməsi ilə başa çatmalıdır. Beləliklə, həm Ermənistan hökuməti, həm də parlamenti islahat tərəfdarlarından ibarət olacaq.

Əvvəlcə bütün parlament partiyaları növbədənkənar seçkilər ideyasını dəstəkləyib, amma Yerevanın Ağsaqqallar Şurası seçimlərində Paşinyan tərəfdarları 81% səs qazandıqdan sonra köhnə rejimin tərəfdarları bu parlament seçkilərində onları nə gözlədiyini başa düşüblər; onlar birləşməyə və bu seçkilərin keçirilməsinə qarşı durmağa başlayıblar.

[1] "TURAN" İnformasiya Agentliyi, 10 Oktyabr 2018

 Satış üçün nəzərdə tutulmayıb

Məxfilik şəraitində Ermənistanın keçmiş hakim Respublika Partiyasının üzvləri (ERP) parlamentin 2 oktyabr 2018-ci il tarixli sessiyasında qəbul etməli olduqları yeni reqlament layihəsinə əlavələr hazırlayıblar. Bu düzəlişlərə əsasən, ştatdankənar hallarda (boykot, xarici təzyiq və s.) parlamentin iclası baş tutmamış deyil, təxirə salınmış hesab olunacaq. Paşinyanın fikrincə, bu düzəliş parlamentin buraxılmasını əngəlləməyə imkan verir və onun 2018-ci ilin dekabrına təyin etdiyi növbədənkənar seçkilərin ləğvi təhlükəsi yaradır.

Paşinyan bu düzəlişlər haqqında yalnız 2018-ci il oktyabrın 2-də öyrənib və dərhal öz tərəfdarlarına bu "biabırçı qanun layihəsinin" qəbul edilməsinin qarşısını almaq üçün parlamentin qarşısında yığışmaq çağırışı ilə müraciət edib.

Elə həmin gün Paşinyanın minlərlə etirazçı tərəfdarı parlament qarşısında yığışıb, amma yenə də köhnə rejimin tərəfdarlarının irəli sürdüyü qanun layihəsi qəbul edilib...

Bu lokal məğlubiyyətə baxmayaraq, Paşinyanın tərəfdarları iğtişaş törətmədilər. Yerli müxbirlərin məlumatına görə, parlamentin ətrafındakı qazon belə tapdalanmayıb. Paşinyan öz tərəfdarlarını dağılışmağa, qanuna və paytaxtda intizama riayət etməyə çağırıb.

Əvəzində, ertəsi gün səhər – 3 oktyabr 2018-ci il tarixində Paşinyan bir sıra nazir və qubernatorun – müxalif ERP, "Daşnaksütun" və "Çiçəklənən Ermənistan" üzvlərinin vəzifədən azad edilməsi haqqında fərmanlar imzalayıb, bu da köhnə rejimin tərəfdarlarının səsvermənin gedişatına müdaxilə etmək imkanını azaltmalıdır.

Kütləvi etirazlara baxmayaraq, köhnə rejimli parlament niyə qeyd edilən düzəlişləri qəbul etməyə cürət etdi və niyə Paşinyan xalqı fiziki qarşıdurmaya, parlamentə hücuma çağırmadı? Bütün bunlar klassik inqilaba çox da oxşamır. Amma, göründüyü kimi, bu hərəkatın erməni spesifikası belə-

Satış üçün nəzərdə tutulmayıb

dir. Bəlkə də bu, zamanın tələbi, bütün dünyada baş verən, insanları öz hüquqlarını çox qan axıtmadan əldə etməyi öyrədən ictimai inkişafın nəticəsidir. İnqilab – bəli, amma konstitusiya çərçivəsində...

Həmçinin, islahat tərəfdarlarının güc tətbiq etməsinin onların mövqeyinin daha az legitim olmasına səbəb olardı. Əleyhdarları onları konstitusiyanı pozanlar və qəsbkar elan edə bilərdi, belələrinə qarşı isə xaricdən də dəstəklənən cavab gücü tətbiq etmək xeyli asan olardı.

Köhnə rejimin tərəfdarlarının arxasında qüdrətli Rusiyanın dəstəyi açıq-aydın görünür. İslahatçıların dəfələrlə "ehtiyatlı olmağa" çağırılması və hətta Moskvadan üstüörtülü təhdidlər köhnə rejimçiləri müqavimətə ilhamlandırır; onların pulu da çoxdur (18 il ərzində yığıblar), həm bürokratlar arasında, həm də güc qurumlarında tərəfdarları da az deyil. Ermənistanda elə bu zaman (2018-ci il oktyabrın 8-də) Ermənistan–Rusiya birləşmiş qoşun qrupunun təlimləri başlayıb. Çox vaxtına düşüb.

Köhnə rejim tərəfdarlarının inqilabdan ilk şoku keçib, indi onlar səhnədən elə-belə getmək niyyətində deyillər.

Paşinyan isə xalqın dəstəyinə arxalanır, o, hələ də çox məşhurdur, o – sadə xalqın daha yaxşı həyat ümididir. Yuxarıda artıq qeyd edildiyi kimi, Yerevanın Ağsaqqallar Şurasına seçkilərdə islahat tərəfdarları səslərin mütləq əksəriyyətini yığıb.

Avropa və ABŞ Yerevana əməkdaşlıq çağırışı edərək və dəstək vəd edərək, islahat tərəfdarlarını dəstəkləməyə çalışır. Belə ki, yaxın günlərdə ABŞ prezidentinin milli təhlükəsizlik üzrə nüfuzlu müşaviri Con Boltonun Ermənistana səfər edəcəyi bildirilir. O, çox güman ki, Ermənistanı Suriya və İran məsələsində kor-koranə Kremlin siyasətinin ardınca getməkdən imtina etməyə və Qərblə hərtərəfli əməkdaşlığı inkişaf etdirməyə çağıracaq.

 Satış üçün nəzərdə tutulmayıb

Beləliklə, Ermənistan uğrunda mübarizə davam edir. Onun yekunları 2018-ci ilin sonlarına doğru – ölkə parlamentinə növbədənkənar seçkilər başa çatdıqda qismən aydın olacaq. Ermənistan inqilabının son nəticələri isə yalnız ölkənin Rusiya, Azərbaycan və Türkiyə ilə bağlı xarici siyasi problemləri həll edildikdən sonra aydın olacaq.

Satış üçün nəzərdə tutulmayıb

PUTİNİN REYTİNQİ DÜŞÜR, AMMA, GÖRÜNÜR, O, VƏZİYYƏTİ NECƏ DÜZƏLDƏ BİLƏCƏYİNİ BİLİR[1]

Putinin hakimiyyətdə olduğu on səkkiz il boyunca müstəqil sosioloji xidmətlər onun məşhurluq reytinqini diqqətlə izləyir, seçicilərin nəhayət ki, prezidenti ilahiləşdirməyə son qoyacağına ümid edirdi. Amma hələlik bu ümidlər əbəsdir. On səkkiz illik hakimiyyəti ərzində Putinin məşhurluğu 5 dəfə azalıb və yenidən bərpa olunub.

İlk azalma 2004–2005-ci illərdə, prezident seçkilərindən dərhal sonra, pensionerlərin kütləvi etirazlarına gətirib çıxaran imtiyazların ləğv edilməsi nəticəsində baş verib. Həmin vaxt Putinə etimad 71%-dən 41%-ə düşüb. Amma Putin çıxış yolu tapıb: ölkəni hərbi vətənpərvərlik isteriyası bürüyüb: Düşmən qapıya dayanıb. Biz heç vaxt təslim olmayacağıq... və s. Bütün bu tezislər 2007-ci ildə Münhendə təhlükəsizlik məsələləri üzrə konfransda Putinin nitqində səslənib. O, konfransda bildirib ki, Rusiya kollektiv Qərbin qalan dünyanı talamasına imkan verməyəcək. Rusiya heç vaxt müstəqil xarici siyasət yürütmək üstünlüyündən imtina etməyəcək. Və Putin 2008-ci ilin avqustunda Gürcüstan torpaqlarına soxularkən də müstəqil siyasət yürüdüb. Onun reytinqi 90%-ə yaxınlaşıb.

[1] "TURAN" İnformasiya Agentliyi, 24 Oktyabr 2018

Satış üçün nəzərdə tutulmayıb

İkinci azalma 2011-ci ildə baş verib, prezidentə etimad 2008-ci ildəki 70%-dən 2011-ci ilin sonlarında ölkədə parlament seçkilərində saxtalaşdırmalara qarşı kütləvi etirazlar zamanı 44%-ə düşüb. Moskvada Bolotnaya meydanında və Rusiyanın digər 99 şəhərində çoxminlik nümayişlər keçirilirdi. Amma tezliklə yenə hərbi-vətənpərvərlik məsələsi və Kremlin Şərqi Ukraynadakı əməliyyatları nəticəsində Putinin məşhurluğu 54%-ə yüksəlib.

Üçüncü azalma 2013-cü ildə müşahidə olunub, prezidentə etimad 54%-dən 43%-ə düşüb, bu, prezident vəzifəsinə qayıdan Putinin ölkənin idarəetməsində hər hansı uğurunun olmaması ilə bağlı idi. Amma Krımın işğalı (2014-cü ildə) yenidən prezidentə qarşı etimadı artırıb. 2014-cü ilin oktyabrında Putin "Valday nitqini" səsləndirir, yenə Qərbi dünyanın təhlükəsizlik sistemini pozmaqda ittiham edir və heç bir sanksiyaya baxmayaraq, Rusiyanın öz milli maraqlarının müdafiəsindən imtina etməyəcəyini bildirir. Krımın ələ keçirilməsindən sonra başlayan saxta vətənpərvərlik dalğası yenidən Putinə qarşı etimadı 88%-ə yüksəldir.

Dördüncü azalma 2015-ci ildə güclənən sosial problemlər və Krım "dadı"nın azalması ilə əlaqədar başlayıb. İl yarım ərzində prezidentə etimad 76%-dən 58%-ə düşüb. Amma mühasirəyə alınmış qala təbliğatı yenidən prezidentə qarşı etimadı 70%-ə qədər yüksəldib.

Beşinci azalma Rusiyada kütləvi olmayan pensiya islahatı və ölkə iqtisadiyyatına qarşı Qərb sanksiyalarının nəticəsi ilə bağlıdır. "İctimai rəy" fondunun məlumatına görə, Putinə qarşı etimad 70%-dən 47%-ə düşüb (iyul, 2018). Respondentlərin təkcə Putinə deyil, həm də hökumətə (26%) və par-

Satış üçün nəzərdə tutulmayıb

lamentdə əksəriyyət təşkil edən partiyaya – "Yedinaya Rossiya"ya ("Vahid Rusiya") (30%) etimadı da azalıb. Bu, son 10 il ərzində ən aşağı göstəricidir. Eyni zamanda, Jirinovski və Zyuqanovun reytinqləri artıb, onları rusların 10%-i dəstəkləyib.

* * *

Hər hansı fövqəladə tədbirlər görülməsə, ölkənin hazırkı idarəetməsi və Qərbin güclənən sanksiyaları fonunda, görünür, Putini və onun partiyasını artıq yüksək reytinqlər gözləmir.

Putinin mühasirəyə alınmış qala siyasətini nə qədər inadla həyata keçirdiyini (yəni Krımı azad etmək və Qərblə barışmaq niyyətində deyil) bildiyimizə görə, onun məşhurluğunu bərpa etmək üçün o qədər də çox variantı qalmadığı bəllidir.

Məsələn, pensiya islahatını ləğv etməyi sınamaq olar. Amma onda pensiya ödənişi üçün pulun haradan alınacağı aydın deyil. Pensiya Fondu boşdur.

Hərbi isteriyanı davam etdirmək olar, prinsipcə, bu, artıq baş verir. Növbəti Valday Forumunda (oktyabr, 2018) Putin yenidən:

– ABŞ-ı dünya intizamını pozmaqda ittiham edib;

– müharibə olarsa, Rusiya vətəndaşlarının Vətən uğrunda canlarından keçməyə hazır olduqlarını, Qərb insanlarının isə buna çox da hazır olmadıqlarını;

– Rusiyaya nüvə hücumu olarsa, onun əvəzinin qaçılmaz olacağını bildirib;

– və deyib ki, belə olan halda *"biz təcavüz qurbanlarıyıq və biz şəhid olaraq cənnətə düşəcəyik, onlar isə sadəcə olaraq gəbərəcəklər, çünki tövbə etməyə belə fürsət tapmayacaqlar"*.

Satış üçün nəzərdə tutulmayıb

Putinin nitqi Qərbə ağır təsir göstərib. Putin paranoyyasında səmimidir, yoxsa bu növbəti qaraqorxudur? Amma evində, Rusiyada bu cür nitqlərlə nə vaxta qədər məşhurluğa nail olmaq olar?

Bu cür nitqlər artıq kömək etməsə, Putinin hakimiyyəti dövründə həyata keçirdiyi strategiya çərçivəsində yalnız bir təsirli vasitə qalır: Kiçik yenilməz müharibə!

Keçmiş SSRİ ərazisində və ya Yaxın Şərqdə bir yerdə yeni hərbi münaqişələrə və ya işğallara başlamaq lazımdır... Məsələn, Ermənistana qoşun yürütmək və orada yeni hökuməti dəyişdirmək. Belarusu ələ keçirmək və özünə birləşdirmək. Suriya üzərində nəzarəti gücləndirmək... Və prezidentin reytinqi yenidən yüksələcək.

Satış üçün nəzərdə tutulmayıb

США ПЛАНИРУЮТ ЗАМКНУТЬ КОЛЬЦО ВОКРУГ ИРАНА, А ДЛЯ ЭТОГО ИМ НЕОБХОДИМ СОЮЗ С БАКУ[1]

Наш собеседник – экс-посол Азербайджана в России, политолог Хикмет Гаджизаде.

— Как вы прокомментируете итоги визита советника президента США по национальной безопасности Джона Болтона в Баку?

— Безусловно, этот визит был связан с американской политикой в регионе, в первую очередь с Ираном, с санкциями в отношении этой страны. Если в дальнейшем Вашингтон решит ужесточить эти санкции, и дело дойдет до прямого военного столкновения с Ираном, то таком случае Азербайджан будет крайне необходим для США в качестве союзника. Думаю, главным образом в ходе переговоров в Баку обсуждались именно эти вопросы. Что касается карабахского конфликта, то Джон Болтон озвучил известную позицию Белого дома о том, что конфликт этот нужно решить мирным путем. С этой точки зрения, ничего нового мы не услышали. Зато нам стало ясно, что США планируют замкнуть кольцо вокруг Ирана, а для этого им необходим союз с Баку. Возможно, в Вашингтоне считают, что американские санкции станут

[1] 25 Oktyabr 2018, https://minval.az/news/123834389

 Satış üçün nəzərdə tutulmayıb

эффективнее, в том числе и от политики, которую в регионе проводит Баку.

— Находясь в Баку, Болтон также сообщил, что не привез каких-либо новых предложений, связанных с урегулированием карабахского конфликта. По его словам, он прибыл в регион, чтобы лучше понять проблему, и отметил, что нужно достичь результата, который удовлетворит обе стороны конфликта.

— К сожалению, мы ничего поделать не можем, так как не находимся в той позиции, когда можно требовать что-либо от США. К тому же в вопросе Нагорного Карабаха, и вообще в нашем регионе, США имеют крайне незначительные рычаги. Здесь всем управляет Россия. Она ведет переговорный процесс, ставит условия сторонам конфликта, в ее руках все рычаги давления на Баку и Ереван. Именно Россия ведет реальные переговоры. А все остальные – Франция, США — как бы отодвинулись в сторону, они понимают, что пока Россия сильна, и всячески старается сохранить свое влияние в нашем регионе. Поэтому мы пока тоже ничего не можем сделать. Однако, думаю, если санкции в отношении Москвы будут ужесточены, то Россия может ослабеть. И тогда международное сообщество потребует от нее уступок, в том числе и в вопросах, связанных с Нагорным Карабахом, Грузией и Украиной. Но все произойдет не скоро.

— В Ереване он заявил о готовности американской стороны содействовать урегулированию карабахского конфликта как в рамках Минской группы ОБСЕ, так и “иными возможными шагами”. Что, на ваш взгляд, имел в виду советник американского лидера?

— Это просто пустые слова. Американцы ничего не могут сделать в нашем регионе, пока здесь присутствует влияние России, ее войска. Возможно, советник пре-

Satış üçün nəzərdə tutulmayıb

зидента США послал месседж, что Вашингтон окажет сторонам помощь в решении конфликта, если Азербайджан и Армения отойдут от России.

— Кстати, "американский ястреб" также подчеркнул, что Южный Кавказ — значимый для США регион. И особенно это касается Азербайджана. Но тем не менее, в США не спешат с отменой 907-ой поправки. При этом Болтон не исключает, что президент Дональд Трамп может использовать свои возможности для того, что приостановить ее действие. Как считаете, это предмет торга?

— В США существует конституционный механизм, и президент этой страны может приостановить действие данной поправки. Что, в принципе, он и делает. Он не отменяют данную поправку, потому что Конгресс просто уперся рогами. Нам это понять сложно, так как у нас нет своего Конгресса, и нам кажется, что в США все управляется из одного кабинета. Но это не так. Данную поправку не отменяют из-за исторически сложившихся противоречий между Конгрессом и любым из президентов США. Вашингтон взамен пока ничего не требует от нас, потому что действие поправки приостановлено. И при желании Соединенные Штаты могут оказать помощь Баку. Эта поправка не является помехой для этого. Она символически "зависла" в воздухе, как доказательство того, что Конгресс США способен принимать собственные решения и стоять на своем.

Бахтияр Сафаров

 Satış üçün nəzərdə tutulmayıb

POLİETNİKLİK TÜRKİYƏ VƏ AZƏRBAYCANDA MİLLİ BİRLİK ÜÇÜN PROBLEM KİMİ[1]

Türkiyə

Türkiyədə növbəti ümummilli problem yaranıb – əhalinin polietnikliyi məsələsi. Şəriət, kürd separatizmi, beynəlxalq islam terrorizmi, regionda alilik uğrunda güc dövlətlərinin mübarizəsi naminə Atatürk dünyəviliyindən imtina kimi digər problemlərlə yanaşı polietniklik (və ya SSRİ-də deyildiyi kimi, çoxmillətlilik) problemi də ictimai təhlükəsizliyə və bəlkə də ölkənin birliyinə növbəti təhlükə ola bilər.

Bu yaxınlarda prezident Ərdoğanın türk (etnik) olmadığını, laz (gürcü) olduğunu, xanımının isə etnik ərəb olması barədə dediyi fikirlərlə əlaqədar neçə on illikdir davam edən problem yenidən ictimaiyyətin diqqətini cəlb etdi ki, niyə onun kimi adamlar hər gün məktəbdə Atatürkün tətbiq etdiyi andı "Türküm, doğruyum, çalışkanım və ne mutlu türküm diyene" sözlərini təkrar etməlidir?

Görünür, Ərdoğan bu anda etiraz edən tək adam deyil. Müasir araşdırmalar göstərir ki, ölkədə etnik türklər cəmi 60%-ə yaxın təşkil edir, qalan 40%-i kürdlər, şimali qafqazlılar, albanlar, yunanlar, ərəblər və s. təşkil edir.

Lakin Türkiyə Konstitusiyası ölkədə etnik azlıqların olduğunu qəbul etmir və ölkənin hər bir vətəndaşını türk ad-

[1] "TURAN" İnformasiya Agentliyi, 10 Oktyabr 2018

Satış üçün nəzərdə tutulmayıb

landırır (1982-ci il Konstitusiyasının 66-cı maddəsinə görə, "türk dövləti ilə vətəndaşlıq bağları olan hər kəs türkdür"). Ola bilsin ki, Atatürk özü və onun tərəfdarları Konstitusiyanı tərtib edərkən qarşıya assimilyasiya məqsədini qoymayıblar, yalnız əhalinin islam birliyinin milli birlik ilə əvəzlənməsini istəyiblər. Ancaq bu gün etnik azlıqların nümayəndələri hesab edirlər ki, konstitusiyanın bu müddəası onların assimilyasiyasına yönəlib, onların insani ləyaqətini alçaldır və ikinci sort vətəndaşlara çevirir.

2013-cü ildə Ərdoğanın təklif etdiyi ölkənin demokratikləşməsi tədbirləri paketi çərçivəsində Atatürkün andı ləğv edildi. Lakin Ali Məhkəmə bu qərarı ləğv etdi və indi real etnik mənsubiyyətlilik uğrunda mübarizə davam edir.

Etnik azlıqların və liberal birliklərin nümayəndələri tərəfindən qaldırılan bu məsələ ilk baxışda göründüyündən də mürəkkəbdir. Polietnikliyin əleyhdarları – Kamalçılar və türk millətçiləri əhalinin polietnikliyinin Konstitusiya tərəfindən tanınması və sonra onlara bütün mümkün mədəni hüquqların verilməsi ölkədə milli birliyin zəifləməsinə və sabitliyin pozulmasına gətirib çıxara bilər. Axı Türkiyə elə ölkələrin əhatəsində yerləşir ki, güc dövlətlərinin region üzərində nəzarət uğrunda mübarizəsi səngimir. Bu məsələni qaldıran hər kəs opponentlər tərəfindən dövlətə xəyanətdə və Atatürk irsinə xəyanətdə ittiham olunub.

Lakin vüsət almaqda olan bu hərəkəti ləyaqətlə durdurmaq mümkün olmur. Dünyanın hər yerində olduğu kimi, bu cür hərəkatlar hüquqların, insan ləyaqətinin, qadınlar, müxtəlif irqlər, dini, mədəni və etnik azlıqlar, repressiya edilmiş xalqlar və ayrı-ayrı şəxsiyyətlər üçün tarixi yaddaşın bərpasını tələb edir. Əgər Türkiyə demokratik yolla irəliləsə milli birlik üçün başqa model seçməli olacaq, nəinki "Ne mutlu türküm diyene".

Ərdoğan özü ölkədə polietnikliyin tətbiqinə dair ideyasını çox ehtiyatla irəli sürüb. Öncə deyib: "*Ben türküm, ama*

 Satış üçün nəzərdə tutulmayıb

türkçü değilim". Bir müddət sonra daha açıq danışıb: "Mən atamdan soruşdum: biz lazıq, yoxsa türk? Bir çoxları deyir ki, biz türkük, başqaları deyir laz. Atam dedi: "Oğlum, mənim ulu babam molla idi. Mən ondan soruşdum ki, "ata, biz lazıq, ya türk?" Ulu baba atama deyib: "Bir gün biz öləcəyik. Allah-taala bizdən soruşacaq: "Tanrın kimdir, peyğəmbərin kimdir, dinin nədir?" O, səndən hansı cinsdən, tayfadan, millətdən olduğunu sormayacaq. Odur ki, səndən soruşanda "Əlhəmdüllah, mən müsəlmanam, söylə".

Məhz bu fikirlər Ərdoğan və onun tərəfdarlarının islamizm və neo-osmanizmə sadiq olduqlarının səbəblərindən birini açа bilər. Çünki islamda millətçilik yoxdur. Bütün etnik qruplar Allahın qarşısında bərabərdir. "Əlhəmdüllah, mən müsəlmanam" söyləyib hərəkət edirsən.

Sosioloji araşdırmalar göstərir ki, etnik azlıqların nümayəndələrinin çoxu həmin səbəbdən Ərdoğana səs verir.

Bir qədər sonra isə Ərdoğan açıq şəkildə: "Mən isə gürcüyəm. Bizim gürcü ailəmiz Batumidən Rizəyə köçüb".

Və nəhayət, yuxarıda deyildiyi kimi, öz ləyaqətinin xeyrinə ifadə işlədib: "Mən türk deyiləm, niyə hər səhər "Nə mutlu türküm diyene" söyləməliyəm?"

Bəli, islamizm və neo-osmanizm etnik problemi həll edir, ancaq inkişafa mane olan digər çoxlu problemlər gətirir. Atatürk bu problemlərdən danışmışdı. Problemin həlli üçün demokratik yol axtarmağa başlamaq olmazmı? Əlbəttə, bundan ötrü demokratik respublika lazımdır, Türkiyə isə bu yolda bir qədər irəliləyib.

Əvvəla, problemin geniş və sərbəst ictimai müzakirəsinə başlamaq lazımdır. Və çalışmaq lazımdır ki, radikal millətçilər və radikal islamçılar öz emosiyalarını saxlaya bilsinlər (Türkiyədə bunu təşkil etmək mümkündür). Sonra məşhur andla bağlı bir şeylə etmək olar. Məsələn,

"Ben türküm" sözlərini "Ben türkiyeliyem" sözləri ilə əvəzləmək olar. Sonra Konstitusiyaya mühüm düzəliş edərək

 Satış üçün nəzərdə tutulmayıb

"Türk" sözünü "Ben Türkiyeli" sözü ilə əvəz etmək olar. Rusiyada olduğu kimi. Orada da müvafiq hallarda "rus" sözünün "rusiyalı" sözü ilə əvəzlənməsini düşünüblər.

Yeri gəlmişkən, ABŞ-da Ali Məhkəmə "Yeqovo şahidləri" dini sektasının tələbilə Amerika bayrağına məktəbli andını qeyri-məcburi edib. Belə ki, sekta hesab edir ki, öz Allahından başqa heç bir bayrağı və ya bütü tanımır. Andı qeyri-məcburi ediblər və heç bir dəhşətli hal baş verməyib.

Növbəti addım milli azlıqlara milli azıqların müdafiəsi üzrə Avropa Konvensiyasında təsbit edilmiş mədəni hüquqlar şamil edilə bilər. Vacib deyil ki, sənədin bütün müddəaları dərhal qüvvəyə minsin, ancaq bu istiqamətdə hərəkət etmək lazımdır. Bu, daha səmərəlidir, nəinki islamçı mövqeyindən çıxış edərək ölkənin bütün bədbəxtliyində Qərbi ittiham etməkdən.

Azərbaycan

Bu cür etnosiyasi dram Azərbaycanda müşahidə olunur. Ancaq bu problem barədə ucadan danışmırlar, ona görə ki, bizim ölkədə bütün diskussiyalar qadağan olunub və öz hüquqlarını tələb etmək qəbul edilməyib. Lakin təsəvvür etdiyimiz demokratik Azərbaycanda biz bu mövzu ilə bağlı daha çox dramatik şeylər bilərdik.

Biz bilərdik ki, 19 və 20-ci əsrlərin qovuşuğunda islam mənsubiyyətliliyi azərbaycanlı maarifçilərin səyləri ilə etnik mənsubiyyətlilik ilə əvəzlənməyə başlamışdı və türk köklərinə mənsub insanlar özlərini müsəlman yox, türk adlandırmağa başlamışdılar. O zamanlar Azərbaycanda türklər 59.6% *(Sovet ensiklopediyası 1926., c. 1., s. 641.)* təşkil edirdi – təxminən Türkiyədə olduğu faiz qədər. Sonra Stalin türk mənsubiyyətliliyini qadağan etməyi qərara aldı və ölkə türklərini azərbaycanlı adlandırdı. Bundan əlavə, ölkənin etnik azlıqlarının böyük hissəsini zorla etnik azərbaycanlı yazdırdılar. Beləliklə, sonda ölkədə 91% azərbaycanlı oldu

 Satış üçün nəzərdə tutulmayıb

(2009). Sovet hakimiyyətinin əvvəlində məcburən öz doğma etnonimini "azərbaycanlı"ya dəyişən vətəndaşların dəqiq sayını hesablamaq hazırda çətin olar. Çünki SSRİ-nin süqutu və Qarabağ münaqişəsi nəticəsində böyük sayda rus və erməni ölkəni tərk edib. Fikrimizcə, bu gün bu rəqəm təxminən bir neçə yüz min adam edər.

Vahid etnik millətin formalaşması vəzifəsini qarşıya qoysaq, yəni etnik azlıqları assimilyasiya etməyə çalışsaq, Stalin üsulu olduqca uğurludur və o, hər cür etnik ziddiyyətləri aradan qaldırardı. Lakin gözlənilməz hadisə baş verdi: "Zeit Geist" – "Zamanın ruhu" dəyişdi. O, demokratiya və insan hüquqlarına doğru dəyişdi. Artıq insanın həyatı və onun ləyaqəti orta əsrlərdə olduğundan daha dəyərli oldu.

Real etnik mənsubiyyətliliyin bərpası prosesi Azərbaycanda da vüsət alır, ancaq aşağıdakı çətinliklərlə üzləşir. Türk mənsubiyyətliliyinin müdafiəçiləri "azərbaycanlı" etnoniminin "türk" və ya "Azərbaycan türkü" ilə əvəzlənməsini tələb edir. Məsələn, prezident Elçibəy bütün azərbaycanlıları öz türklüyünü dərk etməyə, onların mənsubiyyətliliyinə zorakılığın edildiyini anlamağa, "türk" adının özünə qaytarmağın vacibliyini bilməyə və bütün dünya türkləri ilə dostluğa çağırırdı. Ancaq problem ondadır ki, bir neçə yüz minlərlə müasir azərbaycanlı digər, türk olmayan köklərə sahibdir. Elçibəy və onun həmfikirləri isə bunu unutmuşdular...

Müsavat Partiyasının keçmiş üzvü Qurban Ələkbərov öz Facebook səhifəsində yazmışdı: "...Xanımım ilə televizorun qarşısında əyləşib prezident Elçibəyin ölkə vətəndaşlarına yeni il təbrikini dinləyirdik. Və birdən dedi: "Mənim türk xalqım, səni Yeni il münasibətilə təbrik edirəm! Ancaq mən və mənim xanımım türk deyilik. Biz özümüzü alçalmış hesab etdik". Sonralar Qurban Ələkbərov Müsavatı tərk edərək ölkədən getdi.

Beləliklə, türk əsilli azərbaycanlılar durmadan bəyan edirlər ki, "biz hamımız türkük", türk əsilli olmayan azərbaycan-

Satış üçün nəzərdə tutulmayıb

lılar isə bildirirlər "biz türk deyilik" və "biz azərbaycanlıların yenidən türk adlandırılmasının əleyhinəyik". Təsəvvür edin, bir neçə yüz min azərbaycanlı mümkün türkçülük və ya əsasən Xalq Cəbhəsinin şinelindən çıxmış siyasətçilərin bəyan etdikləri beynəlxalq türk həmrəyliyindən məmnun deyil. Qeyd edək ki, Xalq Cəbhəsinin əsas vəzifələrindən biri Azərbaycan türklərinin repressiyaya məruz qalmış etnik mənsubiyyətliliyinin bərpası idi.

Türk əsilli olmayan azərbaycanlılar Milli demokratçılara səs verməyəcəklər, odur ki, sonuncu milli birlik üçün başqa daha əhatəli model hazırlamalı olacaq, nəinki "biz hamımız türkük". Bəzən ölkənin türk olmayan əhalisi bu mövzuda (elə hər mövzuda) hər cür sərbəst diskussiyanı qadağan edən diktaturanı tərcih edir, nəinki Azərbaycanın türk torpaqları olduğunu deyib bununla da türk olmayanları öz torpağında qonağa çevirən türkçülərin idarəçiliyini.

Ərdoğan Türkiyədə polietniklik məsələsini islamizmin köməyilə həll etməyə çalışdığı kimi, Azərbaycan hökuməti də bu problemi onun hər cür müzakirəsini qadağan etməklə həll etməyə çalışır.

Ancaq düşünürsən ki, Azərbaycan üçün polietniklik məsələsinin demokratik yolla həlli var. Yenə də bundan ötrü ölkə demokratik olmalıdır, sərbəst diskussiya təmin olunmalıdır. Hələlik bizdə belə azadlıq yoxdur. Ancaq heç olmasa demokratik düşərgədə belə açıq diskussiya keçirilə bilər.

Əlbəttə, həm geniş elmi, həm də ictimai müzakirələr təşkil etmək lazımdır. Belə müzakirələrdən aşağıdakı tövsiyələr irəli sürülə bilər:

– Qeyri-türk əsilli vətəndaşlar Azərbaycanda türk mənsubiyyətliliyinin hansı repressiyalara və rəzilliyə məruz qaldığını anlamalıdır və türklərin öz etnonimlərinin bərpası uğrunda hərəkatına anlayışla yanaşmalıdır. Qəbul etmək lazımdır ki, türk əsilli azərbaycanlıların türk etnonimi özlərinə qaytarmağa, yəni özlərini türk və Azərbaycan türkü adlandırmağa haqqı var.

 Satış üçün nəzərdə tutulmayıb

– Türk əsilli vətəndaşlar türkçülərin fəallığını görən qeyri-türklərin həyəcanını başa düşməlidir. Türk əsilli olmayan azərbaycanlıların onların kökənlərinə uyğun etnonim seçmək hüququ var. Və ya onlar "azərbaycanlı" etnonimindən istifadəni davam etdirə bilər.

– Ölkənin hər bir vətəndaşı özü-özünə etnonim seçmək hüququna malikdir və ölkə vətəndaşının etnik mənşəyi heç bir dövlət sənədində göstərilməyəcək.

– İstənilən etnik mənşəli Azərbaycan vətəndaşı azərbaycanlı politonimi ilə birləşəcək. Türklər, ləzgilər, talışlar, ruslar və ölkədə yaşayan digər etnik qrupun nümayəndələri azərbaycanlı adlandırılacaq.

– Bütün etnik qrupların nümayəndələri qanun qarşısında bərabərdir və Azərbaycan torpağı orada yaşayan vətəndaşların vətəni, əksər hallarda tarixi vətənidir.

– Məktəblərdə Azərbaycanda məskunlaşmış bütün etnik qruplara dair tarix keçmək lazımdır.

– Etnik azlıqlar milli azlıqların müdafiəsi üzrə Avropa Konvensiyasına əsasən öz dillərini və mədəniyyətlərini saxlamaq imkanları əldə etməlidir.

Əgər bu şərtlər təmin olunarsa, etnik mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlar belə Vətənlə qürur duyacaqlar.

Etnik ziddiyyətlərin həlli prosesi asan olmayacaq, həm də çox emosional olacaq. Başqa cür desək, bu problemin qeyri-demokratik həlli yolu yoxdur. Problemi həll etməmək isə mümkün görünmür, çünki bu gün bütün dünyada adamlar arenalara çıxaraq öz hüquqlarını, ləyaqətlərinin bərpasını tələb edirlər. Susmaqla və ya laqeydliklə onları geri qaytarmaq olmaz.

P.S. Yeri gəlmişkən, mən də, mənim valideynlərim də türkdür.

Satış üçün nəzərdə tutulmayıb

ŞƏRAB SATAN REKTOR, KLANLAR, QƏRBÇİLƏR VƏ RUSPƏRƏSTLƏR[1]

İctimaiyyət prezidentin Bakı Dövlət Universitetinin (BDU) rektoru, akademik Abel Məhərrəmovu vəzifəsindən azad etməsini (15 noyabr 2018) müzakirə etməkdə davam edir.

Onun vəzifədən azad edilməsinin səbəbləri elan edilməsə də, hökumətə yaxın KİV-lərin məlumatına görə, akademik nalayiq davranışına, daha dəqiq isə, qeyri-adi sahibkarlıq növünə görə işdən çıxarılıb – o, İspaniyaya Azərbaycan şərabı aparır, orada oğlunun – AR-in İspaniyadakı səfirinin yardımı ilə onu üzərində İspaniya etiketləri olan şüşələrə doldurur və bu şüşələri öz ictimai iaşə obyektlərində satmaq üçün yenidən Azərbaycana gətirirdi. http://musavat.com/news/abel-meherremov-ozunu-nece-yandirdi-prezident-rektoru-bu-sebebden-qovdu-sensasiya_570717.html

Amma belə bir biznes növünə görə yüksək vəzifəli məmurun işdən azad edilə biləcəyi ehtimalı kiçikdir. Vaxtaşırı ictimaiyyətə yüksək vəzifəli məmurların daha qəribə biznes macəraları məlum olur və bu zaman onlardan heç biri vəzifədən azad edilməyib. Çox güman ki, rektorun işdən azad edilməsi barədə qərar onun kənarlaşdırılması üçün yalnız bəhanə olan insidentdən xeyli əvvəl qəbul edilib.

[1] "TURAN" İnformasiya Agentliyi, 23 Noyabr 2018

 Satış üçün nəzərdə tutulmayıb

Amma, bundan başqa, yuxarıda linki təqdim edilmiş məqalədə bildirilir ki, hökumət nümayəndə heyətinin tərkibində İspaniyada səfərdə olarkən Məhərrəmov sərxoş halda qalmaqal salıb, guya nüfuzlu şəxs olduğunu, çox minlik kollektivə rəhbərlik etdiyini, "istəsə onların gücü ilə bir anda ölkədəki sabitliyi poza biləcəyini" bildirib.

Bu ifadə bir çox müşahidəçilərin diqqətini cəlb edib. Məlum olduğu kimi, A.Məhərrəmov Ermənistandan çoxsaylı məcburi köçkünlər klanının (və ya öz-özünü adlandırdığı kimi – Qərbi Azərbaycanlıların) nümayəndəsidir. Kobud hesablamalara görə, Azərbaycanda onların sayı 400.000 nəfərdən çox ola bilər, 20-ci əsr boyunca Kreml və Ermənistan hakimiyyəti onları öz torpaqlarından Azərbaycan Respublikasına qovub.

Yada salmaq lazımdır ki, nəsibsiz Ermənistandan gəlmələr (EG) Azərbaycan Xalq Cəbhəsinin sovet sisteminə qarşı mübarizəsində və müstəqillik uğrunda mübarizədə onun əsas müttəfiqlərindən biri olublar. Klanın nüfuzlu fiqurları (professorlar və akademiklər) 1990-ların əvvəllərində Xalq Cəbhəsinin Məclisində öz yerlərini tutublar.

Amma ölkənin siyasi səhnəsinə Heydər Əliyev fiquru çıxdıqda EG nümayəndələrinin əksəriyyəti dərhal özü də Ermənistandan gəlmə olan H.Əliyevin düşərgəsinə keçdilər. Bu uzaqgörən manevrin nəticəsi olaraq EG nümayəndələri AXC hökumətinin devrilməsindən sonra hakimiyyət uğrunda mübarizənin şanlı veteranları olaraq yeni rejimdə bir sıra məsuliyyətli vəzifələri və hətta ölkənin idarəetmə sahələrini əldə etdilər. Belə ki, EG nümayəndələri parlamentə, səhiyyə, təhsil, kənd təsərrüfatı nazirliyinə, metropolitenə və respublikanın digər qeyri-strateji agentliklərinə rəhbərlik ediblər. Güc qurumlarında, elə istənilən büdcə təşkilatında da onları görmək olar.

Hakimiyyət uğrunda mübarizədə dəstəklərinə görə EG nümayəndələri Heydər Əliyev tərəfindən layiqincə mükafatlandırılıblar, amma onun vəfatından sonra rejimin EG ilə itti-

Satış üçün nəzərdə tutulmayıb

faqı çat verməyə başlayıb. EG liderləri İlham Əliyevin prezident vəzifəsinə namizədliyi ilə razı deyildilər və özlərinin bu vəzifəni tuta biləcəkləri qənaətinə gəldilər. Prezident vəzifəsi uğrunda mübarizə nəticəsində EG liderləri İlham Əliyevin komandasına uduzublar, həbs ediliblər və uzunmüddətli azadlıqdan məhrumetmə cəzalarına məhkum ediliblər.

Beləliklə, EG liderləri həbsdədir, amma klan özü yaşayır! O, hakimiyyətə o dərəcədə qarışıb ki və sayı o qədər çoxdur ki, ölkənin sabitliyini riskə atmadan EG nümayəndələrinin ümumi təmizliyinə başlamaq mümkün görünmür.

Bu gün EG və prezident arasında tam razılıq yoxdur. EG hesab edir ki, taxt-taca gəlmək üçün bütün hüquqlara malikdir, prezident isə hesab edir ki, EG-nin, elə hakimiyyət uğrunda mübarizə zamanı Heydər Əliyevin ətrafında toplaşan digər klanların da nümayəndələri dövlətin yeni idarəetmə vəzifələrinə uyğun deyillər. Onlara keçmiş loyallıqlarına görə artıq kifayət qədər təşəkkür edilib və bu gün prezident hakimiyyət uğrunda mübarizənin şöhrətli veteranlarını bir-bir qovmağa və onları, onun fikrincə, daha təcrübəli olan gənc kadrlarla əvəz etməyə başlayıb. Son vaxtlar sosial təminat naziri Səlim Müslümov, kənd təsərrüfatı naziri Heydər Əsədov, Gömrük Komitəsinin rəhbəri Aydın Əliyev, baş nazirin müavinləri Abid Şərifov və Elçin Əfəndiyev, "Azərenerji"nin rəhbəri Etibar Pirverdiyev, Binəqədi rayon icra hakimiyyətinin rəhbəri Xaləddin İsgəndərov, Gədəbəy rayonunun icra başçısı Ramiz Yediyarov vəzifələrindən azad edilib. Çox güman ki, Abel Məhərrəmov bu siyahıda sonuncu idi.

EG-nin qüvvəsini toplayıb, İspaniyadakı banketdə Abel Məhərrəmovun bəyan etdiyi kimi, kütləvi çıxış etməsi ehtimalını ayrılıqda qiymətləndirmək lazımdır. Amma müstəqil Azərbaycanın qısa tarixində belə çıxışların nümunəsi yoxdur. Bizə EG-nin necə gizli intriqalar yaratdığı məlumdur, amma EG məmurlar camaat qarşısında gündə üç dəfə prezidentə sədaqət andı içirlər. Biz prezidentin yenicə vəzifədən

Satış üçün nəzərdə tutulmayıb

azad etdiyi EG məmurların ağzından belə andları xüsusilə coşqun şəkildə eşidirik. Hakimiyyət uğrunda mübarizəni İlham Əliyevə uduzan EG liderlərinin həbsindən sonra yarım milyonluq EG dəstəsi tərəfindən heç bir kütləvi çıxışların, etirazların, itaətsizlik aksiyalarının olmadığını yada salmaq olar. EG üçün acınacaqlı faktdır.

Bütün bunlar EG-nin siyasi hadisələrin gedişatına təsir etmək üçün heç bir imkanının olmadığı demək deyil. EG açıq şəkildə çıxış edən siyasi qüvvələrlə ittifaqa girə bilər və ilk zamanlar özünü müdafiə edə bilər. Belə bir alyans artıq qorxulu siyasi qüvvə olardı.

* * *

Ölkədə avtoritar rejim siyasi mübarizəni gizli – xarici müşahidə üçün əlçatmaz vəziyyətə gətirib. Amma indiyədək susan klanların və repressiyaya məruz qalan siyasi qüvvələrin çoxluğu göz qamaşdırır. Birincisi, bu, prezidentə sadiq insanların klanıdır, onların kim olduğu və ona nə məsləhətlər verdiyi bizə məlumdur; daha sonra iqtisadiyyat və maliyyədə nüfuzlu olan prezidentin həyat yoldaşının klanı – Paşayevlər; Naxçıvanlılar; Ermənistandan gəlmələr; kürdlər; talan edilmiş demokratlar; demokratik gənclik; dini ekstremistlər... Mətbuat həmçinin hakimiyyətdə bir-birinə qarşı mübarizə aparan iki qruplaşmanın – Qərbçilərin və Kremlpərəsət məmurların mövcudluğundan bəhs edir, burada kimin Qərbçi olduğunu, kimin olmadığı da aydın şəkildə məlum deyil.

http://reportyor.az/?p=94032&fbclid=IwAR0CF4M9WhthHUrRmnVdWrnHbmjOfyq7b3VFxWkc94u8Qh3_z8uOO7FbtmM

Kiçik Azərbaycan üçün öz vaxtını gözləyən qruplaşmaların sayı çox deyilmi?

PAKİSTAN AZƏRBAYCANIN STRATEJİ MÜTTƏFİQİ OLACAQMI?[1]

Hərbi analitiklər 2018-ci ilin noyabrında Pakistandan alınmış 10 ədəd MFİ-395 "Super Mushshak" təlim təyyarəsindən 5-nin Azərbaycana gəlməsini, həmçinin Pakistanın JF-17 qırıcı-bombardmançı təyyarələrinin alınması haqqında danışıqların başa çatmasını fəal şəkildə müzakirə edirdilər ("İnterfaks-Azərbaycan").

Bakı və İslamabad arasında 2017-ci ilin iyulunda imzalanmış müqaviləyə əsasən, Azərbaycan Pakistandan təkcə silah deyil, həm də hərbi texnologiyalar alacaq. Bu məsələ ilə bağlı Azərbaycan prezidenti İlham Əliyev bildirib ki, biz bir tədarükçüdən asılı olmamaq üçün silahı müxtəlif mənbələrdən alırıq. Bu gün Azərbaycan Rusiyadan, Türkiyədən, İsraildən, Belarusdan, Ukraynadan, İtaliyadan, İrandan, CAR-dan, Cənubi Koreyadan silah və hərbi texnologiyalar alır. İndi isə Pakistandan qırıcı təyyarələr alınıb.

Bu sövdələşmə tərəflərin iqtisadiyyat və xarici siyasət sahələrində dərin qarşılıqlı anlaşma, əməkdaşlıq və qarşılıqlı yardım haqqında çoxillik diplomatik vədlərinin yekun mərhələsi oldu. Belə ki, Pakistan beynəlxalq təşkilatlarda Qarabağ məsələsində Azərbaycanı fəal şəkildə dəstəkləyir,

[1] "TURAN" İnformasiya Agentliyi, 13 Dekabr 2018

Satış üçün nəzərdə tutulmayıb

Azərbaycan isə Camma və Kəşmir uğrunda Hindistanla münaqişəsində Pakistanı dəstəkləyir.

Amma bu əməkdaşlıq nə qədər inkişaf edə bilər? Pakistan Azərbaycanın etibarlı və ya strateji tərəfdaşı, bəlkə hətta strateji müttəfiqi də olacaqmı? Sadə dillə desək, Ermənistanla genişmiqyaslı hərbi münaqişə başlasa, Pakistan Azərbaycana necə kömək edə biləcək?

Vəziyyəti daha yaxşı anlamaq üçün daha yaxın olan Türkiyə ilə əməkdaşlığın problemlərinə nəzər salsaq yaxşı olardı. Türkiyə və Azərbaycan liderləri yorulmadan ölkələrinin maraqlarının, tarixinin, mədəniyyətinin və hətta xalqlarının genetik kimliyinin bir olduğunu təkrar edir və ölkələrini "strateji müttəfiq" adlandırır. Və baxmayaraq ki, ölkələrimiz arasında strateji müttəfiqlik haqqında müqavilə imzalanmayıb, Türkiyə prezidenti R.Ərdoğan dəfələrlə bildirib ki, Türkiyə bütün sahələrdə Azərbaycanın ən yaxın strateji müttəfiqidir.

Həmçinin qeyd edək ki, "strateji müttəfiq" termini hərbi münaqişə olduqda bu ittifaqın üzvünün dərhal və fəal hərbi dəstəyini nəzərdə tutur, məsələn, İkinci Dünya Müharibəsi zamanı antihitler koalisiyasındakı müttəfiqlərdə olduğu kimi.

Təəssüf ki, fəal iqtisadi, xarici siyasi və hətta hərbi əməkdaşlığa baxmayaraq, Türkiyə hələ ki Ermənistan–Azərbaycan cəbhəsində hərbi müttəfiq qüvvəsi kimi bir dəfə belə çıxış etməyib. Türkiyə Ermənistanla diplomatik münasibətlər qurmaqdan imtina edir, bu ölkəni iqtisadi cəhətdən təcrid edir, Azərbaycana silah satır, amma Qarabağ cəbhəsində müharibə aparmağa, görünür, sözün əsl mənasında Ermənistanın "strateji müttəfiqi" olan Rusiya ilə münaqişəyə girməkdən ehtiyatlandığı üçün, cürət etmir.

Çox güman ki, Azərbaycan–Pakistan qarşılıqlı münasibətlərini də belə aqibət gözləyir. Bakı və İslamabad arasın-

Satış üçün nəzərdə tutulmayıb

da ticarət dövriyyəsi hələlik yüksək deyil – cəmi 5 milyon dollar, baxmayaraq ki, onun genişləndirilməsi üçün, ən azından silah ticarətini götürsək, potensial var. Azərbaycanın Türkiyə ilə ticarət dövriyyəsi isə 2017-ci ildə 2,64 mlrd. dollar təşkil edib. Göründüyü kimi, burada əməkdaşlıq səviyyəsi müqayisəyə belə gəlmir. Amma Bakıya dost, sadiq tərəfdaş lazımdır və əlbəttə ki, nüvə dövləti olan Pakistanın belə bir tərəfdaş olması böyük diplomatik uğur olardı. Həmçinin, yada salmaq lazımdır ki, Pakistan 1991-ci ildə Türkiyədən sonra Azərbaycanın müstəqilliyini tanıyan ikinci ölkə olub. Pakistan Ermənistanı tanımır, Azərbaycan torpaqlarının işğalı ilə əlaqədar onunla diplomatik münasibətləri yoxdur. Pakistan hökuməti də, ictimaiyyəti də xarici siyasi məsələlərdə daim Azərbaycanla həmrəylik nümayiş etdirir.

Pakistanlıların Azərbaycana qarşı rəğbətinin səbəbi, əlbəttə ki, iqtisadi və strateji sahə ilə bağlı deyil. Çətin ki, Bakı Hindistanla hərbi münaqişəsində Pakistana kömək edə bilsin.

Burada Pakistanın milli ideologiyasında və ictimai müzakirələrində mühüm amil olan islam həmrəyliyi əsas rol oynayır. Və təsəvvür edin ki, Pakistan ictimaiyyəti bizim müstəqilliyimizin bərqərar olması və erməni təcavüzü problemləri haqqında yaxşı məlumatlıdır. Pakistanlı araşdırıcılar və jurnalistlərlə söhbətlərimdə şəxsən əmin oldum ki, Pakistan mifologiyasında Azərbaycan maarifli və çox əxlaqlı – əksər ziyalılarının oxuduğu və yaxşı tanıdıqları Nizaminin poemalarının qəhrəmanları kimi insanların yaşadığı uzaq gözəl ölkədir. Mifləşdirilmiş Azərbaycan Pakistan ziyalıları üçün dünyaya dahi islam alimləri və şairlər bəxş etmiş ölkədir. Mən bütün bunları eşitdikdə yalnız bir şey istəyirdim – Pakistanlı həmsöhbətlərim bugünkü, real Azərbaycanla tanış olmasınlar. Qoy bu gözəl miflə yaşasınlar.

 Satış üçün nəzərdə tutulmayıb

Pakistan hələlik bizim strateji müttəfiqimiz olmaq iqtidarında deyil, amma aydındır ki, Azərbaycan–Pakistan qarşılıqlı fəaliyyəti, Azərbaycana rəğbət bəsləyən 200 milyonluq nüvə dövləti ilə əməkdaşlıq bizim xarici siyasətimizin prioritet istiqaməti olmalıdır. Və gələcəkdə Azərbaycan–Türkiyə–Pakistan hərbi-siyasi alyansının qurulacağı istisna deyil, axı bu gün bu ölkələr, demək olar ki, bütün dünya problemlərinə eyni baxışı paylaşırlar.

Satış üçün nəzərdə tutulmayıb

QARABAĞLA BAĞLI DANIŞIQLAR BƏRPA EDİLİB, AMMA SÖHBƏT NƏDƏN GEDİR?[1]

Yanvarın 16-da Parisdə ATƏT-in Minsk Qrupunun vasitəçiliyi ilə Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında danışıqlar keçirilib. Danışıqlar üç saat davam edib. Bu, Ermənistanda N.Paşinyan hökumətinin hakimiyyətə gəlməsindən sonra dördüncü belə görüşdür. Görüşün yekunlarına görə hər iki tərəf görüşün faydalı və konstruktiv olduğunu; ən yüksək səviyyədə danışıqlar prosesini davam etdirmək niyyətində olduqlarını; öz xalqlarını sülhə və iqtisadi əməkdaşlığa hazırlamaq niyyətində olduqlarını bəyan ediblər.

Göründüyü kimi, Paşinyanın

– danışıqlar aparmaq naminə sonsuza qədər danışıqlar aparmayacağı;

– Qarabağ ermənilərinin danışıqlar prosesinin bir hissəsi olmalı olduğu;

– "Kimsə erməni xalqının növbəti soyqırımının baş verməsinə imkan vermək istəmirsə, Dağlıq Qarabağın Azərbaycanın tərkibində ola bilməyəcəyi"[2] haqqında radikal bəyanatlarına və tələblərinə baxmayaraq, danışıqlar prosesi davam edəcək.

---

[1] "TURAN" İnformasiya Agentliyi, 21 Yanvar 2019

[2] Paşinyanın BMT Baş Assambleyasının 73-cü sessiyasındakı çıxışından

Satış üçün nəzərdə tutulmayıb

Bəs münaqişə tərəfləri nə barədə razılıq əldə edəcəklər? Danışıqlar masasında hansı nizamlanma planı var?

"Madrid prinsipləri" (2007) – Dağlıq Qarabağın statusu məsələsinin həlli təxirə salınmaqla, Minsk Qrupuna daxil olmayan ölkələrdən beynəlxalq sülhməramlı qüvvələrin cəlb edilməsi ilə mərhələli nizamlanma planı işə yaramadı. Ermənistan bu planı qəbul etmədi, Azərbaycan isə ona şübhə ilə yanaşdı. ATƏT-in Minsk Qrupunun tərəfləri barışdırmaq üzrə növbəti cəhdi uğursuzluğa düçar oldu.

Və bu zaman Moskvadan Qarabağ məsələsinin yalnız Moskvada həll edilə biləcəyi və həll ediləcəyi haqqında yeni fikir səsləndi.

Rusiyanın planına (və ya Lavrovun planına) əsasən, ermənilər Dağlıq Qarabağ ətrafında işğal edilmiş bir neçə Azərbaycan rayonunu azad etməlidir, Qarabağ ermənilərinin artıq Azərbaycan ordusunun gələcək hücumlarından qorxmaması üçün isə yeni təmas xəttinə Rusiyanın sülhməramlı qoşunları yerləşdiriləcək.

Regionda ermənilər və azərbaycanlılar arasında məhz rus qoşunlarının yerləşdirilməsi onların planının məğzi və Moskvanı maraqlandıran əsas məsələdir! Moskva bu manevrlə Ermənistanı və Azərbaycanı uzun müddətlik özünə bağlaya bilər. Nə Ermənistan, nə də Azərbaycan Rusiyanın nüfuzu altından çıxa, Dağlıq Qarabağı da alaraq Avropaya gedə biləcək.

Gürcüstanda artıq belə sadə plan tətbiq edilib, Abxaziya və Cənubi Osetiya ilə sərhəddə rus sülhməramlıları yerləşdirilib. Və həmin vaxtdan etibarən Gürcüstan üçün bu ərazilər itirilmiş oldu.

Beləliklə, Azərbaycan və Ermənistanın yeni hökuməti arasında danışıqlarda müzakirə olunan plan belədir. Planın qalan təfsilatı prinsipial deyil.

Münaqişə tərəflərinin, şübhəsiz ki, bu plana ciddi düzəlişləri var. Əminliklə ehtimal etmək olar ki, Ermənistan iş-

Satış üçün nəzərdə tutulmayıb

ğal edilmiş bir neçə Azərbaycan rayonunun azad edilməsi müqabilində Qarabağın müstəqilliyini əldə etmək istəyir; Azərbaycan isə rus deyil, beynəlxalq sülhməramlı qüvvələr tələb edə bilər.

Amma ən dəhşətlisi, hazırkı Azərbaycan hökuməti Moskvanın bu və ya digər formada Azərbaycanın Dağlıq Qarabağ üzərində öz suverenliyini bərqərar etməsinə imkan verəcəyinə və hazırkı hakimiyyət üçün ən az bunun qədər əhəmiyyətli olan məsələyə – Moskvanın hazırkı rejimin əbədi hakimiyyətdə qalmasının zamini olacağına ümid edərək, rus ordusunun öz ərazisinə daxil olmasına (daha dəqiq desək, *qaytarılmasına)*[1] razılıq verərsə, baş verəcək.

Böyük ehtimalla demək olar ki, belə olan halda:

a) Azərbaycan Dağlıq Qarabağı, həmişəlik olmasa da, uzun müddətlik itirəcək;

b) Gürcüstanda Abxaziya və Cənubi Osetiya ilə bağlı olduğu kimi, Azərbaycanın suverenliyi – xarici, daxili və iqtisadi siyasəti daim Dağlıq Qarabağı birdəfəlik itirmək təhdidi ilə şantaj ediləcək.

[1] Rusiya qoşunları Azərbaycandan 1993-cü ildə Elçibəy hökuməti dövründə çıxarılıb.

 Satış üçün nəzərdə tutulmayıb

QARABAĞ DANIŞIQLARI NİYƏ LƏNGİYİR?[1]

Qarabağ danışıqları ləngiyir. İnqilabi Paşinyan hökumətinin Qarabağ məsələsində daha çox güzəştlərə hazır olacağı barədə ümidlərə baxmayaraq, danışıqlarda sıçrayış olmadı. Paşinyandan güzəştləri isə əsassız olaraq gözləmirdilər. Axı hələ vəzifəyə seçilməzdən əvvəl o, öz nitqlərində və dərc etdirdiyi "Dünyanın arxa tərəfi" (2009) kitabında Ermənistanın daha çox özü, öz əhalisi haqqında düşünməli və Qarabağ mifinin ardınca daha az düşməli olduğuna işarə edirdi.

Amma hakimiyyətə gələn Paşinyan cəmiyyətdə heç bir güzəşt haqqında eşitmək belə istəməyən qarabağlılardan və hədsiz milliyyətçilərdən ibarət mötəbər qisasçı düşərgə ilə qarşılaşdı və indi Paşinyan onlarla sülh, Avrointeqrasiya və inkişaf arzusu arasında manevr etmək məcburiyyətində qalır.

Paşinyanın Moskvadan sülhə tələsməmək barədə təlimat aldığı ehtimalını da istisna etmək olmaz, belə ki, Moskva hələ Azərbaycandan istədiyini almayıb.

Paşinyan Qərbdən aydın şəkildə səslənən danışıqlarda konstruktivlik çağırışlarına da məhəl qoymur...

Paşinyan Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərini azad edə bilmir – milliyyətçilərdən qorxur, torpaqları azad etməkdən imtina isə Azərbaycanla yeni ağrılı döyüş əməliy-

[1] "TURAN" İnformasiya Agentliyi, 14 Mart 2019

Satış üçün nəzərdə tutulmayıb

yatlarına, habelə Ermənistanın beynəlxalq təcridinə gətirib çıxara bilər. Və, artıq yazıldığı kimi, bu qərarların qəbuluna görə məsuliyyətdən qaçmaq üçün Paşinyan məsuliyyəti Dağlıq Qarabağ (DQ) liderlərinin üzərinə atmağa çalışır, onları Azərbaycan və Ermənistanla birlikdə danışıqlar masasına oturtmağa çalışır.

Paşinyan "məğrur xarici siyasət" yürütməyi vəd edir. Azərbaycan isə DQ-nin danışıqlar formatına daxil edilməsi mümkünlüyünü qəti şəkildə təkzib edir. Bundan başqa, Avropa qurumlarının liderləri birbaşa danışıqlar formatında dəyişikliklərin arzuolunmaz olduğunu bildiriblər...

Bu gün danışıqlar iki əsas səbəbdən ləngiyir:

a) Torpaqların azad edilməsi müqabilində Ermənistan dərhal DQ-nin müstəqilliyini əldə etmək istəyir. Azərbaycan isə DQ-yə təxirə salınmış status vermək istəyir.

b) Ermənistanın Azərbaycanın işğal edilmiş rayonlarından bəzilərini azad etməsindən sonra nə baş verəcəyi məsələsinə indiyədək aydınlıq gətirilməyib. Daha dəqiq isə, düşmən tərəflərin təmas xəttinə hansı sülhməramlı qüvvələr çıxarılacaq?

Minsk qrupunun Amerikalı həmsədri Endryu Şeferin bəyanatına görə, sülh prosesinin vasitəçisi olan ölkələr arasında "sülhməramlı qüvvələrin Minsk qrupu ölkələrindən heç birinə məxsus olmayacağı haqqında centlmen sazişi mövcuddur"... Amma, belə taleyüklü məsələlərdə centlmen sazişlərinə inanmaq olar? Və ümumiyyətlə, nədənsə üfüqdə Minsk Qrupu centlmenləri görünmür.

Erməni mətbuatında dərc edilmiş "Kazan sazişləri"nə əsasən isə, yuxarıda bəhs edilən sülhyaratma əməliyyatını KTMT qüvvələri – yəni rus qoşunları həyata keçirəcək.

Bu halda, cürətlə iddia etmək olar ki, Dağlıq Qarabağ Azərbaycan üçün uzun müddətlik, bəlkə də həmişəlik iti-

 Satış üçün nəzərdə tutulmayıb

riləcək. Rusiya sülhməramlılarının olduğu yerdə hər şey Abxaziya və Cənubi Osetiyadakı kimi olacaq...

Paşinyanın erməni qoşunlarını çıxarmaqdan imtinasına cavab olaraq Azərbaycan danışıqların pozulmasına görə bütün təqsiri Ermənistanın üzərinə atıb və üstüörtülü şəkildə bildirib ki, indi öz torpaqlarını güc tətbiq edərək qaytarmağa tamamilə haqqı var.

Bu gün Azərbaycan fəal şəkildə hərbi əməliyyata hazırlaşır, təbliğat kampaniyası aparır, Moskvaya və Avropaya müraciət edir və – bu, xüsusilə vacibdir – genişmiqyaslı hərbi manevrlər keçirir (11-15 mart 2019), bu manevrlərdə 10.000-ə qədər hərbi qulluqçu, 500 tank və 300 raket və artilleriya qurğusu iştirak edib.

Ola bilər ki, danışıqlar yerindən tərpənməsə hava şəraiti yaxşılaşdıqda (2019-cu ilin yazın sonu – yayın əvvəli) Azərbaycan silahlı qüvvələri, 2016-cı ilin aprel əməliyyatları kimi, öz torpaqlarının azad edilməsi üzrə ortamiqyaslı hərbi əməliyyata başlayacaq. Bu halda Rusiyanın davranışı həlledici olacaq və müşahidəçilər üçün çox şeyə aydınlıq gətirəcək.

Moskva:

– Azərbaycanı dəstəkləyə bilər;

– münaqişəyə müdaxilə etməyə bilər (amma, belə olan halda erməni ordusu ondan təxminən 3 dəfə güclü olan Azərbaycan ordusuna qarşı dura bilməyəcək);

– Bakıdan hərbi əməliyyatı dayandırmağı tələb edə bilər;

– və ya Ermənistanın tərəfində müdaxilə edə bilər.

Beləliklə, təxminən 2019-cu ilin yayında, nəhayət, Dağlıq Qarabağ üzrə sülh danışıqlarının irəli çəkilməsinə kimin mane olduğunu və Rusiyanın Azərbaycandan məhz nə istədiyini anlayacağıq.

Satış üçün nəzərdə tutulmayıb

İSTƏRDİM Kİ, EYNİ SƏRBƏST SEÇKİLƏR ÖLKƏMİZDƏ DƏ OLSUN[1]

Azərbaycanın Rusiyadakı keçmiş səfiri Hikmət Hacızadə Turan agentliyinə müsahibəsində Ukraynadakı prezident seçkilərindən danışıb.

Heç bir siyasi təcrübəsi, komandası olmayan şoumen Ukrayna prezidenti oldu. Bu, ölkənin daxili və xarici siyasətinə necə təsir göstərəcək? Bu sualın cavabında H.Hacızadə deyib ki, bunu heç kim qabaqcadan deyə bilməz. Tarixdə belə şeylər olub. Məsələn, Ronald Reyqan. Onu da deyirdilər ki, aktyordur. Amma gəldi, böyük bir prezident oldu.

"Ukrayna artıq diktatura deyil, ölkədə parlament var, müstəqil məhkəmə var. O ölkənin ictimaiyyəti var, üsyan edə bilən, etiraz edə bilən xalqı var. Müstəqil mediası var. Nəhayət, güclü müxalifəti var. Ona görə də bu ölkənin gələcəyi üçün narahat deyiləm", – H.Hacızadə bildirib.

Hakimiyyət dəyişikliyi Rusiya və digər ölkələrlə münasibətlərə necə təsir göstərə bilər? Bu sualın cavabında H.Hacızadə deyib ki, ölkənin xarici siyasətində ciddi dəyişikliklər gözləmir. Zelenski özü də bir şey deməyib, ancaq Rusiya ilə "ümumi dil tapacağını" vəd edib.

"Azərbaycana gəlincə, bizim hər zaman Ukrayna ilə yaxşı münasibətlərimiz olub. Orada xeyli azərbaycanlı yaşayır, burada ukraynalılar yaşayırlar. Ciddi dəyişiklik gözləmirəm", – o deyib.

[1] "TURAN" İnformasiya Agentliyi, 23 Aprel 2019

 Satış üçün nəzərdə tutulmayıb

Vladimir Zelenski MDB dövlətlərinə Ukraynaya baxıb nümunə götürmələrini məsləhət bilib. Ukraynada seçkiqabağı dövrü və seçkinin özünü necə qiymətləndirmək olar? H.Hacızadə bu suala belə cavab verib: "İlk növbədə cənab Zelenskiyə təşəkkür edirəm ki, hamımıza göstərdi ki, mübarizə aparmaq lazımdır. Əlbəttə, biz də istəyərdik ki, belə azad, ədalətli, şəffaf seçki keçirək. Bizdə hələ ki belə ənənə yoxdur. Azərbaycanda azad seçki yalnız bir dəfə 1992-ci ildə olub. Demokratik seçkilər zamanı Əbülfəz Elçibəy qələbə qazandı. İnanıram ki, gün gələcək, bizdə də belə seçkilər olacaq", – Hikmət Hacızadə vurğulayıb.

 Satış üçün nəzərdə tutulmayıb

ABŞ İRANIN BOYNUNA KEÇİRDİYİ SANKSİYA İLGƏYİNİ SIXIR[1]

Trampın sanksiyaları İranda islam rejiminin əsaslarına qarşıdır

İran İslam Respublikası rejimi dağılmalıdır – 2019-cu il aprelin 8-də ABŞ prezidenti Trampın İranda indiki rejimin sütunu olan İslam İnqilabı Keşikçiləri Korpusuna (İİKK) qarşı elan etdiyi sanksiyalardan belə çıxır. Keşikçilərin sayı hələ İran-İraq müharibəsi dönəmindən möhkəmlənmiş 150 min döyüşçü və zabitdir. İİKK birbaşa İranın dini lideri ayətullah Əli Xameneyiyə tabedir.

Beləliklə, İİKK ABŞ hökuməti tərəfindən terror təşkilatı elan edilib və bundan sonra üçüncü tərəfin İranın bu elitar hərbi bölməsi ilə hər cür hərbi, maliyyə və ya istənilən digər əməkdaşlığı ABŞ federal qanunvericiliyinin pozulması hesab olunacaq.

ABŞ administrasiyası İranda islam rejiminin tam kapitulyasiyası və Amerikanın "Böyük Yaxın Şərq" (GreaterMiddlesEast) planının həyata keçirilməsi yolunda daha bir ciddi addım atıb. Plana əsasən region fundamentalizm, terrorizm, hər cür kriminal üçün plasdarm olmamalı və Avropa sərhədlərində əməkdaşlıq regionuna çevrilməlidir...

[1] "TURAN" İnformasiya Agentliyi, 22 Aprel 2019

 Satış üçün nəzərdə tutulmayıb

Prezident Tramp bildirib: "İran təkcə terror dövləti – sponsoru deyil, həm də İran rəhbərliyi İİKK vasitəsilə bütün dünyada öz terrorçuluq kampaniyasını həyata keçirir. Əsasən İİKK və onun "Əl Qüds" elitar bölməsi Fələstin, Livan, Yəmən, Suriya, İraq, Əfqanıstanda hərbi münaqişələrdə iştirakda ittiham olunur. "Əl-Qüds" anti-qərb rejimlərin tərəfində döyüşür və ya İranpərəst hərbi qruplaşmaları dəstəkləyir. İran onların köməyilə öz sərhədlərinin ətrafında Tehranın müttəfiqlərindən ibarət təhlükəsizlik kəməri yaratmağa çalışır. İran və Fars körfəzi monarxiyalarının hökuməti arasında daim maraqların toqquşması baş verir. Belə ki, hələ 2018-ci ildə Səudiyyə Ərəbistanı və Bəhreyn İİKK-nı özlərinin terrorçu təşkilatlar siyahısına daxil ediblər.

İİKK-ya qarşı sanksiyanın tətbiqindən bir həftə öncə ABŞ Dövlət Departamenti xüsusi bəyanat yayıb. Bəyanata əsasən İran İraqda 600 amerikalı hərbi qulluqçunun ölümünə görə məsuliyyət daşıyır. ABŞ dövlət katibi M.Pompeo deyib: "ABŞ İranın öz "qanunsuz hərəkətinə son qoyması üçün maksimum təzyiq göstərməyə hazırdır".

ABŞ qanunvericiliyinə görə, İİKK-nın terror təşkilatları siyahısına daxil edilməsi prezident Trampın ölkə Konqresinin təqdiri olmadan bu təşkilata qarşı hərbi əməliyyatlar aparmasına imkan yaradır.

Hələlik məlum deyil, ABŞ xüsusi xidməti "Əl-Qaidə" və ya İslam Dövləti liderlərinin ovuna çıxdığı kimi İİKK liderlərinin də ovuna çıxacaq, ya yox. Hadisələrin bu cür inkişafı tamamilə mümkündür, eləcə də İİKK-nın cavab olaraq bütün dünyada amerikalı vətəndaşlara qarşı terror hərəkətləri də mümkündür. İndiki mərhələdə ABŞ iqtisadi təzyiqlə kifayətlənə bilər və İİKK-nın, ümumilikdə İran rejiminin boynuna ilgəyi keçirməyə davam edərək İran enerji resurslarının ixracını sıfıra endirər. Turan İnformasiya Agentliyi məlumat verir ki, "aprelin 9-da İranın energetika birjasında satışa çıxarılmış milyon barel neft öz alıcısını tapa bilməyib".

 Satış üçün nəzərdə tutulmayıb

İİKK - dövlətdə dövlət

İİKK-nın tərkibində Bəsic könüllü təşkilatı (müqavimət hərəkatının səfərbər edilməsi) var. Təşkilat ölkə daxilində rejim əleyhdarlarına, özgəfikirlilərə və islam əxlaq normalarını pozanlara qarşı mübarizə aparır. İİKK-nın ölkə təsərrüfatında mühüm mövqeləri var, İran iqtisadiyyatının 30%-ə qədərini tutur, o cümlədən, bank, tikinti, telekommunikasiya, turizm sektorunda. Həmçinin ölkənin nüvə layihəsinə rəhbərlik edir.

İİKK-nın islam rejimi üçün əhəmiyyətini və ABŞ-ın bu təşkilata qarşı sanksiya tətbiq etməsilə yaranmış vəziyyətin ciddiliyini islam rejimi liderləri tərəfindən acıqlı reaksiya yaxşı nümayiş etdirir. İran hökuməti artıq növbəti gün ABŞ silahlı qüvvələrini özünün terrorçu təşkilatlar siyahısına daxil edib. İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif bildirib ki, Amerika rəsmi şəxsləri bu sanksiyalar ilə İsrailin baş naziri Binyamin Netanyahunun maraqlarından çıxış edərək "ABŞ-ı bataqlığa çəkmək" istəyirlər. İİKK komandanı Məhəmməd Əli Cəfəri bazar günü analoji bəyanatla çıxış edərək xəbərdarlıq edib ki, Amerika hərbçiləri Qərbi Asiyada öz təhlükəsizliklərinə inamdan məhrum ola bilərlər.

İİKK-nın terrorçular siyahısına daxil edilməsini Türkiyə də pisləyib. Aprelin 9-da Türkiyənin xarici işlər naziri Mövlut Çavuşoğlu bildirib ki, "bu cür qərarlar bizim regionda qeyri-sabitliyə yol açır".

ABŞ-ın İrana qarşı hibrid müharibəsi?

ABŞ-ın İrana dair strategiyası böyük sirr deyil, bu barədə çox yazıblar və ətraflı müzakirə edilib.

ABŞ öz əsgərlərini İrana göndərmək fikrində deyil. Ancaq görünür, onlar İrana qarşı hibrid müharibəsinə bənzər bir şey planlaşdırırlar. Amerikalı strateqlərin fikrincə, güclənən iqtisadi sanksiyalar İranı çox zəiflətməlidir, nəticədə ölkədə

 Satış üçün nəzərdə tutulmayıb

hərtərəfli sosial və siyasi böhran başlamalıdır. Nəhayət, əhalinin narazılığı hansısa antiklerikal, liberal inqilaba çevrilə bilər ki, İsrail və NATO uzaqdan bunu dəstəkləyəcəklər.

İİKK Azərbaycanda

İran İİKK vasitəsilə Azərbaycan Respublikasında da müəyyən fəallıq göstərir. İndiki İran rejiminin burada üç böyük vəzifəsi var:

a) Azərbaycana İran islam inqilabını və ya dünya şiə birliyi ideyasını ixrac etmək;

b) 10 milyonluq Azərbaycan Respublikası əhalisinin 30 milyonluq İran Azərbaycanı əhalisi ilə vahid dövlətdə birləşdirilməsinə yönələn Azərbaycan millətçiliyinin təsirini neytrallaşdırmaq;

c) Azərbaycanın anti-iran qüvvələrin (Qərb ölkələri nəzərdə tutulur) təsirinə düşməsinin qarşısını almaq. Bu problem Xəzər dənizinin statusu məsələsində də açıq şəkildə özünü göstərib. Tanınmış azərbaycanlı siyasi ekspert Arif Yunusov: "2001-ci ilin iyulunda hər iki ölkə az qala müharibə durumuna düşəcəkdi: iranlı qırıcılar və dəniz gəmiləri sərhəd yaxınlığındakı neft yataqlarının işlənməsinə müntəzəm olaraq əngəl törədirdilər. 2003-cü ilin avqustunda Tehran Bakını Xəzər dənizinin hərbiləşdirilməsində ittiham etdi. Buna Xəzərdə neft-qaz dəniz platformalarının terrorçulardan qorunması üzrə Azərbaycan-Amerika birgə hərbi-dəniz təlimlərinin keçirilməsi səbəb olmuşdu".

Media qeyd edir ki, həmin üç məsələnin həllində İİKK-dan fəal istifadə olunur. Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdiyi vaxtdan (1991-ci il) tərəflərin kəskin diplomatik demarşlarını müşahidə etmək olar: Tehranın Azərbaycandakı radikal şiə qruplarını dəstəkləməsinə cavab olaraq Bakının Şimali və Cənubi Azərbaycanın birləşdirilməsinə tərəfdar olanları dəstəkləməsi.

 Satış üçün nəzərdə tutulmayıb

ABŞ hərbi-dəniz qüvvələrinin Xəzərdə olması ilə bağlı hipotetik təhlükəyə cavab olaraq İran özünün şimali Gilan əyalətində İİKK HDQ Təlim-Tədris Mərkəzini yaradıb. Mərkəz İmam Xomeyni adına hərbi-dəniz hazırlığı kompleksi adlanır.

2012-ci ildə Azərbaycan ictimaiyyəti ölkənin xüsusi xidmətinin İİKK tərəfindən ələ alınmış 22 azərbaycanlıdan ibarət qrupu zərərsizləşdirməsi barədə məlumatdan sarsılmışdı. Qrup öz pozuculuq fəaliyyətinə 1999-cu ildə başlayıb. Qrupun vəzifəsi Qərb ölkələrinin (əsasən ABŞ və İsrail) səfirlikləri və nümayəndəlikləri barədə məlumat toplamaq olub. Rəsmi bəyanatlarda qeyd olunub ki, saxlanılan şəxslərin bəzisi İran ərazisində Tehran və Kirac yaxınlığında hərbi düşərgələrdə hazırlıq keçiblər.

Orada onlar silah və partlayıcı qurğularla davranmanı, topoqrafik xəritələrlə işi, həmçinin müşahidə aparmaq və məxfi informasiya toplamaq metodlarını öyrəniblər.

2017-ci il fevralın 10-da ABŞ Nümayəndələr Palatasının xarici əlaqələr komitəsinin sədri Ed Roys İİKK-nın Azərbaycan Respublikası ilə bağlı destruktiv fəaliyyəti barədə kəskin bəyanatla çıxış edib. O bildirib ki, İİKK regional sabitlik üçün təhlükə törədir və sanksiyalara məruz qalmalıdır. O, Yəmən və Bəhreyndə İran təhlükəsinin olmasından danışıb. Sonra Roys Azərbaycana toxunub. Onun məlumatına görə, bu gün İİKK agentləri Azərbaycana daxil olur, kəndlərdə adamları hazırlayırlar: "Niyə dünyəvi hökuməti dəstəkləyirsiniz? Siz şiəsiniz. Siz rejimi devirmək üçün işləməlisiniz".

Ekspertlərin çoxu 2015-ci il noyabrın 26-da Nardaranda baş vermiş hadisələri İİKK-nın fəaliyyətilə əlaqələndirir. Şiə radikallara qarşı polis əməliyyatı nəticəsində altı nəfər, o cümlədə iki polis öldürülüb. 2018-ci ilin sonlarında Azərbaycanın xüsusi xidməti tərəfindən casus şəbəkəsi aşkar edilib. Şəbəkə xüsusi xidmətin mərkəzi aparatının əməkdaşlarından (üç zabit, o cümlədən bir polkovnik) ibarət olub.

Görünür, Azərbaycan xüsusi xidməti həm İranpərəst dini radikalların, həm də İİKK tərəfindən ələ alınmış dövlət aparatının öz içindəki casusların öhdəsindən gələ bilir. Ancaq istisna deyil ki, İİKK kəşfiyyatının Azərbaycanda öz fəaliyyətini genişləndirməsi üçün böyük imkanları var və o, öz mərkəzinin göstərişi ilə fəallaşmağa hazırdır.

İİKK və Azərbaycan xüsusi xidmətinin qarşıdurması hələlik dramatik səviyyəyə çatmayıb. Lakin ABŞ və İran arasındakı qarşıdurma təhlükəli həddə çatdıqda münaqişə iştirakçıları Azərbaycandan geosiyasi oriyentasiyanı müəyyən etməyi tələb edəcəklər. Bundan əlavə, ABŞ-ın təzyiqləri nəticəsində böyük iqtisadi və sosial böhranın, kütləvi inqilabi hadisələrin olduğu halda bizim ölkəyə qaçqınlar gələcək... Çoxlu qaçqın. Bəs, Rusiya özünü necə aparacaq? Bu münaqişədə Moskva bizdən nə tələb etməyə başlayacaq? Bütün bu məsələlər hərtərəfli müzakirə və bizim regionda hər cür böhranla bağlı planların hazırlanmasını tələb edir.

Satış üçün nəzərdə tutulmayıb

MƏN İNANIRAM Kİ, BİZDƏ DƏ ELƏ SEÇKİ OLACAQ[1]

Azərbaycanın Rusiyadakı keçmiş səfiri Hikmət Hacızadə Amerikanın Səsinə müsahibəsində Ukraynadakı prezident seçkilərindən danışıb.

Amerikanın Səsi: Seçkilər nəticəsində heç bir siyasi təcrübəsi, komandası olmayan şoumen Ukrayna prezidenti olub. Belə olan təqdirdə Vladimir Zelenskinin idarəetməsi daxili və xarici münasibətlərə necə təsir edəcək?

Hikmət Hacızadə: Bu olduqca çətin bir sualdır. Onu heç kəs qabaqcadan deyə bilməz. Tarixdə elə şeylər olub. Guya təcrübəsiz, bioqrafiyasız adam gəlib hakimiyyətə, idarə edib və sairə. Kim isə uğursuz olub, kim isə uğurlu olub. Məsəl üçün Ronald Reyqan. Onu da deyirdilər ki, aktyordur. Amma gəldi, böyük bir prezident oldu. Odur ki, bəri başdan heç nə demək olmaz. Bir də mən izləyicilərin nəzərinə onu çatdırmaq istəyirəm ki, Ukrayna artıq diktatura deyil. Orada ölkəni idarə edən tək bir adam deyil. Məsəl üçün, Zelenski gəlsin başından, ürəyindən nə gəlirsə, əmr versin, camaat da tökülüşsün onu icra etməyə. O ölkənin parlamenti var, müstəqil məhkəməsi var. O ölkənin ictimaiyyəti var, xalqı var. Üsyan edə bilən, etiraz edə bilən xalqı var. Müstəqil mediası

[1] 23.04.2019: https://www.amerikaninsesi.org/a/hikmet-hacizade-ukrayna/4887482.html

 Satış üçün nəzərdə tutulmayıb

var. Nəhayət, güclü, pullu müxalifəti var. Ona görə də o qədər də narahat deyiləm. Bunların hamısını camaat bilməlidir ki, Ukrayna təkcə gözəl seçki deyil ki, biz baxırıq. Ukrayna, ümumən, artıq demokratik bir ölkədir. Harada ki, cürbəcür qüvvələr hansısa qaydalarla siyasət qurmağa razılaşıbdır. Ona görə, inşaallah yaxşı olar.

Amerikanın Səsi: Ukraynanın yeni prezidenti dövründə Rusiya və digər region dövlətləri, o cümlədən Azərbaycanla münasibətlərdə hansı yeniliklər ola bilər?

Hikmət Hacızadə: Mən xarici siyasətdə o qədər də dəyişikliklər gözləmirəm. Zelenski özü də bu barədə bir şey deməyib. Onun ancaq bir sözü oldu ki, mən çalışacam Rusiya ilə dil tapım. Mən Rusiyaya qarşı o qədər də radikal mövqedə deyiləm. Çalışacam dil tapım. O ki qaldı Azərbaycana, Azərbaycan Ukrayna ilə həmişə mehriban idi, həmişə onun yaxşı əlaqələri var idi, alveri var idi. Bizim insanlar orada yaşayır, burada ukraynalılar yaşayır. Belə, böyük dəyişiklik gözləmirəm.

Amerikanın Səsi: Ukraynanın yeni prezidenti Vladimir Zelenski MDB dövlətlərinə Ukraynaya baxıb nümunə götürmələrini məsləhət bilib. Bu baxımdan Ukraynanın seçki ənənəsi ilə Azərbaycanın seçki ənənəsini müqayisəli necə təhlil edərdiniz?

Hikmət Hacızadə: Mən, birinci, təşəkkür edirəm cənab Zelenskiyə ki, ö sözü hamımıza dedi, göstərdi ki, vuruşmaq lazımdır. Əlbəttə ki, biz də istəyərdik ki, belə, möhtəşəm, azad, ədalətli, şəffaf seçki keçirək, Ukrayna kimi. Bütün dünya o seçkini fəxrlə izləyirdi. Bizdə hələ ki, elə ənənə yoxdur.

 Satış üçün nəzərdə tutulmayıb

Biz ömrümüzdə bir dəfə, 1992-ci ildə düzgün seçki gördük. Demokratik seçki idi, demokratik hökumət seçildi, Elçibəy seçildi (Əbülfəz Elçibəy). İnşaallah, Allahın əlindədir, bizim əlimizdədir. Mən inanıram ki, bizdə də elə seçki olacaq.

Pərvanə Bayramova
Tapdıq Fərhadoğlu

 Satış üçün nəzərdə tutulmayıb

Выступление в Польском Сейме на Саммите Спикеров Парламентов Центральной и Восточной Европы и Конференции, посвященной 30-й годовщине первых свободных выборов в Парламент Польши – 5 июня 1989 года (EUROWAW2019)

Уважаемый господин Маршал Сейма и дорогие участники конференции!

Хочу поблагодарить организаторов конференции за приглашение и отметить историческую беспрецедентность такой конференции, ибо приглашены на нее были не представители властей и не олигархи – денежные мешки, а диссиденты и оппозиционеры того времени – невоспетые герои той мировой демократической волны, которые рискуя своей жизнью в одиночку выступали против лжи и насилия, удушающих наши общества. И мы благодарны вам за это.

Я не буду здесь подробно останавливаться на тех ужасах, которые пришлось испытать нашему народу в советское время, ибо эти ужасы хорошо вам известны и, примерно, одинаковы.

 Satış üçün nəzərdə tutulmayıb

Вот вкратце результаты 70 летнего коммунистического правления: двойная и тройная жизнь простого гражданина, гибель трудовой этики, полнейшее пренебрежение человеческой жизнью, рождение красной элиты, которая до сих пор доминирует над обществом, культура потемкинских деревень – вот достижения СССР.

По официальным данным около 400 тысяч граждан Азербайджана были репрессированы, что по тем временам составляло около 13% населения. Еще полмиллиона граждан были высланы за пределы республики…

Однако, инакомыслие уничтожить не удалось. Одинокие диссиденты постоянно находили способы донести до общества горькую правду о действительности. В 1957 в знак протеста против существующего репрессивного режима два молодых человека – Джахид Халилоглу и Чингиз Абдуллаев – подняли над главной башней столицы национальное трехцветное знамя, и конечно оба они били жестоко за это наказаны. Но движение к свободе и независимости продолжалось и принимало все более массовый характер, и в 1991 году после изнурительной борьбы Азербайджан объявил о своей независимости.

Довольны ли мы сегодня нашей независимостью? Нет, к сожалению. Сегодня гражданские права человека в стране повсеместно попираются, права собственности не соблюдаются, страну захлестнула повсеместная коррупция… Хочу здесь отметить, что наше общество желает евроинтеграции, однако правящий режим противится этому процессу из опасения потерять власть.

Но как бы трудно нам сегодня не было, мы ни на секунду не сожалеем о тех жертвах, которые нам пришлось принести на пути к независимости. И наша борьба за свободу будет продолжаться.

 Satış üçün nəzərdə tutulmayıb

В заключение я хочу выразить благодарность тем странам, сообществам и личностям, которые помогают нам и странам, подобным нашей, на этом пути.

Благодарю за внимание.

 Satış üçün nəzərdə tutulmayıb

ПАСЕ — БЕССМЫСЛЕННАЯ ОРГАНИЗАЦИЯ[1]

Поддержка со стороны Азербайджана в вопросе возвращения России в ПАСЕ никак не отразится на отношениях официальных Баку и Киева, заявил в беседе с *Minval.az* политолог Хикмет Гаджизаде, комментируя итоги голосования в ПАСЕ, согласно которым была принята резолюция, позволяющая России вернуться в ряды этой организации.

Как считает эксперт, ПАСЕ в целом стала бессмысленной организацией. Х.Гаджизаде напомнил также, что в свое время, когда создавалась данная структура, "в ее рядах, в основном, преобладали страны "старой" демократии, с устоявшими моральными принципами":

"Потом они открыли двери и набрали туда из стран социалистического лагеря кого ни попадя. В результате, в подобных спорных голосованиях их можно подкупить, перетащить на свою сторону, надавить и так далее. Сейчас за Россию голосуют из чувства страха. Разве это дело для международной демократической организации? Поэтому я смотрю на ПАСЕ с большим сомнением. И советую читателем отнестись также", — отметил политолог.

[1] 25 İyun 2019, https://minval.az/news/123898714

Satış üçün nəzərdə tutulmayıb

Политолог отметил, что за возвращение России в ПАСЕ проголосовали делегации Франции, Испании, Италии, Австрии, Исландии, Ирландии, Норвегии, Португалии, Сербии, Сан-Марино и Турции, частично Бельгии, Швейцарии, Германии, Нидерландов, Финляндии.

"Я не исключаю того, что делегации этих стран голосовали, исходя из каких-либо стратегических соображений. Исключали Россию по моральным, а приняли обратно, исходя из стратегических соображений, чтобы не делать из нее окончательно врага, к примеру. Или в надежде, что смогут ее как-то уговорить в вопросах, касающихся той же Украины, Сирии или крымской проблемы. Получается, что сработал страх, а не принципы.

Сама мораль, нравственность не присутствовала при голосовании, к сожалению. После того, как пал "железный занавес", многие международные организации стали коррумпированы. НАТО еще как-то держится, а все остальные в плохом состоянии", — резюмировал Х.Гаджизаде.

Бахтияр Сафаров

 Satış üçün nəzərdə tutulmayıb

ÖLKƏ SİLKƏLƏNƏCƏK, CİDDİ PROSESLƏR BAŞ VERƏCƏK... [1]

"Rusiyanın sonluğunu çox acı görürəm. Narazıları susdurmaq üçün çox böyük, qanlı addımlar atmaq lazım olacaq." Sentyabrın 8-də Rusiyada bələdiyyə və regional seçkilər keçiriləcək. Əsas diqqətlər Moskva Dumasına keçiriləcək seçkilərə yönəlib ki, bu seçkilərdə sistemdən kənar müxalifət kənarda qalıb. Bu da aylardır ciddi etirazlara səbəb olub. Şimal qonşumuzu etiraz dalğaları bürüyüb. Artıq etiraz aksiyalarında saxlanılanlardan müxtəlif illər üzrə cəza alanlar da var. Bu da Rusiyada yeni siyasi məhbusların meydana çıxdığını göstərir. Ekspertlər bu faktordan Qərb dairələrinin istifadə edib Rusiyaya yeni sanksiyalar tətbiq edəcəyini ehtimal edirlər. Sentyabrın 8-dən sonra da şimal qonşumuzda narazılıqların səngiməyəcəyi qeyd olunur. Bunun da Rusiyada ciddi fəsadlar yaradacağı bildirilir. Azərbaycanın Rusiyadakı sabiq səfiri, politoloq Hikmət Hacızadə *musavat.com*-a açıqlamasında Kremlin sonunu acınacaqlı gördüyünü vurğulayıb: "Bu, Rusiya dövlətçiliyinin demokratiya yolunda növbəti uğursuzluğudur. Get-gedə Rusiya birpartiyalı sistemə çevriləcək. Bu sistem də ölkəni idarə edə bilməyəcək və sonda böhranlar, süqut baş verəcək. Rusiyanın sonluğunu çox acı görürəm. Bu ölkənin sovet dövrünə qayıtdığını demək olar. Moskva Dumasına seçkilərə müxalifəti buraxmadılar. Hamı-

[1] 25 İyun 2019, https://minval.az/news/123898714

 Satış üçün nəzərdə tutulmayıb

sını çölə atdılar. Hər bir ölkədə paytaxt əsasdır. Bunun üçün də Putin iqtidarı Moskva ilə bağlı belə qanunsuzluqlara əl atdı. Rusiya demokratiyası növbəti uğursuzluğunu yaşadı. Buna çox təəssüflənirəm. Bilmək lazımdır ki, Moskva unikal şəhərdir. 140–150 milyonluq Rusiyanın harasında ağıllı adamlar varsa, gəlib Moskvaya tökülüşürlər. Ora Rusiyanın beyni, ürəyidir. Əgər orada demokratiya uduzdusa, bu o deməkdir ki, başqa yerlərdə, regionlarda da demokratiya uduzdu. Çox pis oldu".

Sabiq səfir Rusiyadakı etiraz aksiyalarına da toxundu: "Rusiyada əvvəllər də siyasi məhbuslar var idi. Sadəcə, indi onların miqdarı çoxalır. Xüsusilə son aylardakı aksiyalar məhbusların sayını artırdı. Dünyada Rusiyanın imici onsuz da bərbaddır. Bu ölkəyə qarşı sanksiyalar tətbiq olunub, onun aqressiv xarici siyasətinə görə. Bu siyasət davam etdikcə, sanksiyalar daha da artacaq. Rusiya get-gedə təcrid olunacaq. Bu isə hökumətin süqutu ilə nəticələnəcək. Bu dövlət indiki birpartiyalı sistemlə idarə oluna bilməz. Vəziyyət belədir. XIX–XX əsrlərdə bu mümkün ola bilirdi. Amma indi mümkünsüzə çevrilib. Rusiyanın, əfsus ki, sonunu süqut gözləyir. Siyasi məhbuslarla bağlı şimal qonşumuza qarşı yeni sanksiyalar tətbiq olunacaq. Siyasi məhbuslar köhnə sanksiyalara da bəraət qazandıracaq. Əvvəllər sanksiyalar olanda müxtəlif fikirlər formalaşırdı ki, bu sanksiyalar düzdür, ya yox, yaxud tətbiq edilsin, ya yox. Amma indi deyəcəklər ki, baxın, sanksiyalar düzgün imiş. Bunun üçün də sanksiyaların getdikcə genişlənəcəyini düşünmək olar".

Politoloq narazılıqların seçkilərdən sonra da davam edəcəyini düşünür: "Proseslər bitən deyil. Orada çox inadkar bir kəsim yaranıb. Onlar radikallaşacaqlar. Onları susdurmaq üçün çox böyük, qanlı addımlar atmaq lazım olacaq. İnterneti bağlamaq, tərpənən adamların hamısını içəri salmaq, təş-

 Satış üçün nəzərdə tutulmayıb

kilatları bağlamaq kimi üsullardan istifadə edilə bilər. Bu da rus iqtidarı üçün çox böyük bir biabırçılıq olacaq. Bu və ya digər formada yeni etirazlar gözlənilir. Orada qəhrəman adamlar var. Onlar danışacaqlar".

H.Hacızadə Putinin iqtidardan devrilməsinin, hələ ki mümkünsüz olduğunu söylədi: "Rusiyadakı narazı kütlənin Putin hakimiyyətini yıxmaq gücü yoxdur. Amma hökumət də narazı kütləni susdurmaq iqtidarında deyil. Bir sözlə, ikitirəlik yaranıb. Nə onlar bunu, nə də bunlar onları yıxa bilir. Rusiyada inqilabın baş verib-verməyəcəyini, hələ ki, heç kəs proqnozlaşdıra bilməyib. Mən də bunu deməkdə çətinlik çəkirəm. Amma ölkə silkələnəcək. Çox ciddi proseslər baş verəcək. İnqilabın olması üçün həm xalqın etirazı olmalıdır, həm də elita parçalanmalıdır. İndiki halda rus elitasının parçalanmasını görmürəm. Ola bilər ki, nə vaxtsa bu baş tutsun. O zaman ciddi dəyişikliklər ehtimalı çoxalacaq".

SƏRHƏDDƏ MONASTIR? HƏR ŞEY OLDUĞU KİMİ QALACAQ...[1]

2019-cu il aprelin sonlarından Azərbaycan və Gürcüstan arasında yerləşən "Keşikçidağ" ("David Qareci" – gürcücə) xristian monastırı ilə bağlı münaqişədə yeni gərginlik başlayıb. Bu münaqişə SSRİ-nin dağıldığı və postsovet respublikalarında müstəqilliyin bərpa olunduğu vaxtdan etibarən davam edir.

Azərbaycanın Gürcüstana qarşı heç bir ərazi iddiası yoxdur, Gürcüstanda radikal milliyyətçi qrupların isə bu cür iddiaları vaxtaşırı oyanır, həm də bu dövlətlər arasında sərhədlərin delimitasiyası və demarkasiyası indiyədək yekunlaşmayıb. İki dövlət arasında 446 kilometrlik ümumi sərhəd var, bunun üçdə biri hələ də bölünməyib.

Sərhədlərin delimitasiyası üzrə İkitərəfli Hökumətlərarası Komissiya hələ 1996-cı ildə fəaliyyətə başlayıb və 2007-ci ildə sərhədin 70%-i bölünüb. Bəzi mübahisəli məsələlər, xüsusən, Keşikçidağ monastırı və Erisimedi kəndi ilə bağlı məsələlər qalıb. Amma 2008-ci ildə Cənubi Osetiyada müharibə başlayıb, daha sonra 2012-ci ildə yeni hökumət gəlib və sərhəd problemi uzun müddətə təxirə salınıb.

[1] "TURAN" İnformasiya Agentliyi, 10 May 2019

Satış üçün nəzərdə tutulmayıb

Azərbaycan ictimaiyyəti Gürcüstanla sərhəd problemindən, demək olar ki, tamamilə xəbərsiz idi və bu problemlə, konkret olaraq monastırın taleyi ilə maraqlanmırdı, amma, görünür, Gürcüstan üçün bu monastır daha böyük mənəvi əhəmiyyət qazanıb, dini bayramlarda monastıra dindarlar axın edir.

Gürcüstanda, "Vətənpərvərlər Alyansı" partiyasını nəzərə almasaq (milliyyətçi, Rusiyayönümlü partiya), əsas siyasi partiyalar monastırın mənsubiyyəti məsələsi ilə məşğul olmurdular. Bu məsələdə radikal dindar vətəndaşlardan ibarət kiçik qruplar, kiçik milliyyətçi qruplar və tələbə qrupları xüsusi fəallıq göstərirdi və onlar hamısı monastırın Azərbaycan hissəsinin yerləşdiyi ərazini Gürcüstana verməyi tələb edirdilər.

Münaqişəni Gürcüstanın yeni seçilmiş prezidenti Salome Zurabişvili yenidən qızışdırdı. 2019-cu ilin fevralında və aprelində monastırı ziyarət edən prezident ciddi şəkildə dövlətlər arasında sərhədlərin delimitasiyası və demarkasiyası üzrə dövlətlərarası komissiyanın işini təxirə salmadan bərpa etməyə çağırıb, Azərbaycan tərəfi də bunu dəstəkləyib. Amma S.Zurabişvilinin ciddiyyəti Gürcüstanda böyük gərginlik və Azərbaycanda narahatlıq dalğası yaradıb.

(Maraqlıdır ki, Gürcüstan prezidenti monastırın Gürcüstan hissəsinə Avropa mədəni irsin müdafiəsi təşkilatı – Europa Nostra-nın nümayəndələri ilə birlikdə baxıb. Bu təşkilat sözügedən monastır kompleksini təhlükə altında olan abidə elan edib.)

Bu gün monastırla bağlı vəziyyət aşağıdakı kimidir: monastır kompleksinin bir hissəsi Gürcüstan, digər hissəsi Azərbaycan ərazisində yerləşir, amma Gürcüstan vətəndaşlarının sərhədi maneəsiz keçib monastırın Azərbaycan hissəsini ziyarət etməsinə icazə verilib.

2019-cu il aprelin 25-də Azərbaycan tərəfi Formula-1 yarışları ilə bağlı təhlükəsizlik məqsədilə Gürcüstan vətəndaşları üçün monastıra sərbəst girişi bağlayıb, bu da Gürcüs-

 Satış üçün nəzərdə tutulmayıb

tanda kütləvi etirazlara səbəb olub və Azərbaycan tərəfdən sərhəd nəzarətinin gücləndirilməsinə gətirib çıxarıb. 3 gün sonra Gürcüstan vətəndaşlarının monastıra girişi Azərbaycan sərhədçiləri tərəfindən bərpa edilib, amma hər iki ölkə ictimaiyyətində gərginlik qalıb. İndi bu məsələ üzrə öz işini bərpa edən dövlətlərarası komissiyanın qərarını gözləmək lazım gələcək.

Bəs bu məsələdə dövlətlərarası komissiyanın qərarı nəyə əsaslana bilər? Əlbəttə ki, bu komissiya problemin tarixi-mədəni aspektini diqqətdə saxlayır, amma bu aspektlər mütləq ola bilməz. 1000 il əvvəl hansısa obyektin tərəflərdən biri tərəfindən inşa edildiyi haqqında arqument mütləq ola bilməz, həm də, bir halda ki, hər iki tərəf monastır kompleksinin onun əhalisinin nümayəndələri tərəfindən yaradıldığını iddia edir. Belə ki, Azərbaycan alimləri sübut edirlər ki, monastır kompleksinin Azərbaycan hissəsi – mağaralarda Azərbaycan yamacında yerləşən hücrələr gürcülər və albanlar tərəfindən deyil, xristianlıqdan çox-çox əvvəl yerli əhali tərəfindən yaradılıb, orada gürcü freskaları və digər artefaktlar isə sonradan ortaya çıxıb.

Dövlətlərarası komissiyanın mütləq nəzərə almalı olduğu məqam 1991-ci ildə Sovet İttifaqının mövcudluğuna son qoyulduğu anda Gürcüstan və Azərbaycan SSR-lərin sərhədləridir. Bu halda SSRİ Nazirlər Sovetinin bu respublikalar arasında inzibati sərhədlərin müəyyən edilməsi haqqında son qərarı əsas sənəd olmalıdır, çünki tərəflərin bu sərhədləri beynəlxalq ictimaiyyət tərəfindən tanınıb və sərhədlər bu qərara əsasən müəyyən edilməlidir.

Bu gün SSRİ-dən qalan sərhədlərin vəziyyətinə baxaraq, əminliklə demək olar ki, SSRİ Nazirlər Sovetinin sərhədlər haqqında son qərarı müasir sərhədlərlə dəqiqliyi ilə üst-üstə düşür və beləliklə, monastır kompleksinin bir hissəsi Gürcüstana, digər hissəsi Azərbaycana məxsusdur.

 Satış üçün nəzərdə tutulmayıb

Bu halda ehtimal etmək olar ki, Gürcüstan tərəfi monastır ərazisinin bir hissəsini sərhəddə eyni əhəmiyyətə malik hansısa Gürcüstan ərazisi ilə dəyişdirməyi təklif edəcək. Amma bu günə qədər Azərbaycan tərəfi bu təklifi rədd edirdi, çünki gürcülərin tələb etdiyi hissə Azərbaycan üçün həm mühüm mədəni, həm də hərbi-strateji əhəmiyyətə malikdir. Bundan başqa, Azərbaycan Ermənistanla münaqişə vəziyyətində olduğu üçün sərhədlərə yenidən baxılması, torpaq verilməsi, status dəyişdirilməsi və s. məsələlərə çox həssas yanaşır... "Burada torpaq verilməsindən söhbət belə gedə bilməz", deyə Azərbaycan Xarici İşlər Nazirliyinin yüksək vəzifəli nümayəndələri bildiriblər.

Bu məsələdə yeni Ümumavropa fəlsəfəsini də nəzərə almaq lazımdır. Helsinki Aktında təsdiq edildiyi kimi, bu cür problemlər bütün mümkün ağrılı, bəzən hətta qanlı ərazi mübadilələri ilə deyil, vətəndaşların hüquqlarının vəziyyətinin, onlara yaxın mədəni dəyərlərə, sosial və iqtisadi hüquqlara çıxışının yaxşılaşdırılması ilə həll edilməlidir.

Sərhəd dəyişikliyi deyil, insan hüquqları dəyişikliyi – hər iki ölkənin imzaladığı Avropa konvensiyalarının bizə diktə etdiyi şey budur.

Beləliklə, problemin mümkün həlli yollarından yalnız biri qalır:

- Monastırın Azərbaycan hissəsi Azərbaycanda qalacaq.
- Gürcüstan vətəndaşlarının monastırın Azərbaycan ərazisinə çıxışı maksimum asanlaşdırılacaq və...
- Hər şey olduğu kimi qalacaq.

ZELENSKİ BİC ADAMDIR...[1]

"Ukrayna üçün nikbinəm, orada xalqın varlığını görürəm".

Ukraynanın yeni prezidenti Vladimir Zelenskiyə "Yeni Başlayanlar üçün Siyasət" adlı uşaq kitabı hədiyyə edilib. Hədiyyə yeni prezidentə Kiyevdə qatıldığı kitab sərgisində verilib. Zelenski hədiyyədən narahat olmayıb, məmnunluq hissi ilə kitabı qəbul edib və gülümsəyərək zarafatla cavab verib.

Hələ ki idarəçilik təcrübəsi olmayan gənc prezident belə hadisələrlə diqqət mərkəzinə gəlir. O, keçmiş televiziya həmkarlarını yanına toplayır, populist çıxışlar edir, şou xarakterli addımlar atır.

Bəzi analitiklərin fikrincə, Ukraynada "dərin dövlət" var və ölkəni pərdəarxasında Zelenskini iqtidara gətirən oliqarx İqor Kolomoyski və daxili işlər naziri Arsen Avakov idarə edir.

Şoumen prezidentin Rusiya siyasətində də xüsusi fəaliyyət planı yoxdur. Təbii ki, ona möhlət verilməlidir və ən əsası parlament seçkilərindən sonra Ukraynada nələrin dəyişəcəyi bilinəcək.

Politoloq Hikmət Hacızadənin "Yeni Müsavat"a bildirdiyinə görə, Zelenskinin zəif fiqur olması haqda fikrə gəlmək doğru deyil: "Çünki o, tək deyil və yan-yörəsində çox güclü adamlar, oliqarxlar var. Ən əsası Kolomoyski onun ar-

[1] 25.05.2019, https://musavat.com/news/hikmet-hacizade-zelenski-bic-adamdir_615833.html

Satış üçün nəzərdə tutulmayıb

xasındadır. Kolomoyskinin arxasında isə İsrail dayanıb. İsrailin arxasında isə Qərb var".

Analitikin fikrincə, Ukrayna artıq demokratik dövlətdir: "Bu ölkədə daha kimsə avtoritarlıq edə, xalqı əzə bilməz. Yəni pis – yaxşı parlament var, etiraz edən bir xalq var. Yəni Ukrayna demokratiya yolunda relsə düşmüş ölkədir.

Hətta Ukraynada rəhbər qəfil xəstələnsə belə, sülh yolu ilə proseslər həllini tapacaq, yeni prezident seçiləcək. Bu mənada Ukraynanın gələcəyi ilə bağlı çox optimistəm".

H.Hacızadə Kolomoyski və Avakov kimi güclü fiqurların Ukraynanın idarəçiliyində təsirini istisna etmir. Onun fikrincə, bundan sonra Zelenski islahatlar aparacaq.

"Zelenski bic adamdır. O, Poroşenkoya baxanda yumşaq görünür. Yəni bağıra-bağıra müharibə edəcəyini demir. Eyni zamanda Ukrayna dilinin rusdilli regionlarda yayılmasını zorla tətbiq etmir. Əksinə, bu məcburiyyəti tətbiq edən qanuna təzədən baxacağını söyləyib və o təbəqəni sakitləşdirib. Bu ölkədə rusdillilər əhalinin yarısıdır, Ukrayna dilində bilmirlər. Bir tərəfdən də Zelenski yəhudidir və ifrat milliyyətçi deyil. Bu da ona imkan verir ki, aqressiv siyasət aparmasın. İndi çoxları dilə gətirmir, amma Zelenski seçkidə rusdillilərin səsini aldı. Ukraynada partiyalar işləyir, plüralizm var, inkişaf gedir" – deyə ekspert qeyd etdi.

Onun sözlərinə görə, bu müddətdə oliqarxlarla mübarizə gedəcək: "Poroşenko korrupsiyaya yol verib, dağıdıb. Ola bilər ki, Zelenski ona cinayət işi açılmasında tələsib. Amma Poroşenko da dinc durmayıb. Ümumiyyətlə, hər bir inqilabda belə dövrlər olur və Ukrayna üçün nikbinəm, orada xalqın varlığını görürəm".

Emil SALAMOĞLU,
"Yeni Müsavat"

 Satış üçün nəzərdə tutulmayıb

TOKAYEV: QAZAXISTAN HAKİMİYYƏTİNDƏ SOVET MƏMURU[1]

2019-cu il iyunun 9-da Qazaxıstanda növbədənkənar prezident seçkilərində seçicilərin 70,8%-nin səsini alan Kasım-Jomard Tokayev qalib gəlib. Mətbuat Tokayevin mənşəyi, karyerası və baxışları haqqında ətraflı məlumatlar dərc etsə də, onun necə prezident olacağı, Qazaxıstanın daxili və xarici siyasətində özünü necə aparacağı aydın deyil.

Tokayev qazax-sovet nomenklatura yazıçısı Kemel Tokayevin ailəsində dünyaya gəlib, Moskvada MDBMİ-də təhsil alıb, daha sonra SSRİ XİN-də və beynəlxalq təşkilatlarda yüksək vəzifələrdə uğurlu iş təcrübəsi olub. 1992-ci ildən Tokayev Qazaxıstana qayıdır, Nursultan Nazarbayevin rəhbərliyi altında yüksək vəzifələrdə qüsursuzca işləyir, son nəticədə Nazarbayev Tokayevi prezident vəzifəsində varisi təyin edir.

Beləliklə, hələlik Qazaxıstanın yeni prezidentinin intizamlı sovet məmuru olduğunu demək olar. Bugünkü Tokayev nə islahatçı, nə amansız diktatordur, sovet idarəetmə sistemində uzun müddət, necə deyərlər, "infarktsız və iflicsiz" qalmağa müvəffəq olan bürokratdır.

[1] "TURAN" İnformasiya Agentliyi, 15 İyun 2019

Satış üçün nəzərdə tutulmayıb

Vərəsəlik

"Vərəsəlik" – Tokayevin əsas şüarı budur. O, millət atası Nursultan Nazarbayevin siyasətini sədaqətlə davam etdirəcəyini bəyan edib. Tokayevin sözlərinə görə, bəzi SSRİ rəhbərlərinin ölkənin şanlı keçmişindən imtina etmək cəhdləri "cəmiyyətdə ciddi sarsıntılara gətirib çıxarıb. Qazaxıstanda bizə bu, lazım deyil".

Keçmiş prezidentin kursu davam etdiriləcək. Amma Nazarbayevin nailiyyətlərini təkrar etmək asan deyil, axı o, hakimiyyətdə olduğu illər ərzində ölkəni həm daxili, həm də xarici böhranlardan qoruyub; Qazaxıstanı qazaxlara qaytarıb; gizlicə şimali Qazaxıstanı ələ keçirməyə çalışan Rusiyanın təcavüzündən yaxa qurtarıb, bunun üçün respublikanın paytaxtı şimalda Astana şəhərinə köçürülüb.

Nazarbayev Rusiya, ABŞ, Çin kimi dünya mərkəzləri arasında uğurla manevr edirdi...

Hakimiyyətinin son illərində Nazarbayev milliyyətçiliyinə həm də digər türk dövlətləri ilə həmrəylik ideyasını əlavə edib, o, bundan böyük dövlətlərə qarşı istifadə etməyə ümid edirdi. Onun Azərbaycana qarşı münasibəti ildən-ilə yaxşılaşırdı və hakimiyyətinin son bir neçə ilində Nazarbayev Qarabağ uğrunda mübarizədə Azərbaycana dəstəyini açıq-aşkar dilə gətirirdi.

Bu gərgin siyasətin davam etdirilməsi strateji uzaqgörənlik və cəsarət tələb edir, bəs sovet məmuru Tokayev buna qadirdir?

Seçkilər. Gələcək planlar

ATƏT müşahidəçilərinin bəyanatına baxmayaraq, 09.06.2019 seçkiləri sakit keçməyib. Qazaxıstanın böyük şəhərlərində seçkilərin nəticələrinin əvvəlcədən həll olunmasına etiraz nümayişləri keçirilib. Polislə qarşıdurmalar zamanı 950 nəfər

 Satış üçün nəzərdə tutulmayıb

saxlanılıb. Növbəti gün KİV nümayəndələri ilə söhbət edən Tokayev bu etirazlar haqqında belə deyib: "Nümayişçilər kənardan gəlirdilər və digər vətəndaşların təhlükəsizliyi üçün təhdid yaradırdılar, bu vətəndaşlar təhlükəsizliklərinin qorunması üçün polisə müraciət edirdilər, mən polisə asayişin bərqərar edilməsi üzrə doğru addımlarına görə minnətdaram". Göründüyü kimi, Rusiyada da, Belarusda da, Azərbaycanda da "etirazçılar casusdurlar", "qəhrəman polislər" onları zərərsizləşdirməyə müvəffəq olurlar.

Daha sonra Tokayev bildirib ki, o, hökumət və xalq arasında etimad qurmaq üçün "İctimai Etimad Komitəsi" qurmaq niyyətindədir. Buraya cəmiyyətin müxtəlif təbəqələrinin nümayəndələri (çox güman ki, onun siyahısı əsasında) fikir mübadiləsi üçün dəvət ediləcəklər. Etirazlara – yox, fikir mübadiləsinə – hə! Yeni prezidentin öz xalqına bəxş etmək niyyətində olduğu demokratiya səviyyəsi təxminən belədir.

Yeni prezident həmçinin bildirib ki, dövlət aparatının tərkibini gəncləşdirmək niyyətindədir və bunun üçün artıq ölkənin müxtəlif regionlarından 300 istedadlı və savadlı gəncin siyahısı hazırdır. Səslənmiş "... ölkənin müxtəlif regionlarından" ifadəsi Qazaxıstan qarşısında yerlibazlıq probleminin kəskin şəkildə durduğunun və bunun öhdəsindən gəlmək lazım gələcəyinin göstəricisi ola bilər. Yeri gəlmişkən, Tokayev də Nazarbayev kimi juz klanının nümayəndəsidir.

Qazaxıstanın xarici siyasət kursuna toxunan Tokayev deyib ki, Rusiyanın hakim mövqe tutduğu Avrasiya İttifaqı ilə bağlı ciddi inteqrasiya siyasətini davam etdirəcək. Qeyd edək ki, prezident Tokayev ilk xarici səfərini Rusiyaya edib, burada prezident Putinlə görüşüb. Tokayev öz müsahibəsində Rusiyanı "etibarlı strateji tərəfdaş və məşhur atalar sözündə deyildiyi kimi, istənilən qohumdan daha yaxın olan yaxşı qonşu" adlandırıb.

 Satış üçün nəzərdə tutulmayıb

Tokayev həmçinin "strateji tərəfdaşlarla" əməkdaşlığı möhkəmləndirməyə davam etmək niyyətindədir. Onlar arasında Rusiya ilə yanaşı, Çin, ABŞ, Mərkəzi Asiya dövlətləri, Avropa İttifaqı, Asiya və Yaxın Şərq ölkələri var. Burada Tokayev, sovet siyasi mədəniyyətində adətən olduğu kimi, elə bir şey deyib ki, dediyindən heç nə aydın olmur. Məsələn, böyük dövlətlərdən hansısa Qazaxıstan üzərində hakim olmaq istəsə, nə olacaq? Tokayevin Qazaxıstanın siyasi quruluşuna baxışı da bu mədəniyyətə aiddir, ölkənin "Güclü prezidenti, nüfuzlu parlamenti, hesabatlı hökuməti" olmalıdır, – real olaraq bütün bunlar nə deməkdir, aydın deyil.

Bəzi ekspertlərin prezidentin gələcək taleyi ilə bağlı səsləndirdiyi şübhələrə cavab verən Tokayev deyib: "Özümü Qazaxıstanın fəal prezidenti hesab edirəm. Yoldan keçən, tranzitçi deyiləm... Gəlin, bu "tranzit" sözünə son qoyaq. Seçkilər keçirilib, prezident seçilib"...

Yeni prezidentin qırışıqlıqları retuşlanmış fotoşəkillərdə gördüyümüz xarici görünüşü onun "Vərəsəlik", "Mötədillik" və "Təkamül"ə sadiq qalacağını göstərir. Amma gerçəklər bəzən dövlət xadimlərinin planlarına düzəlişlər edir. Çünki nadir başçı vəziyyəti idarə edir, əksər hallarda vəziyyət başçını idarə edir.

 Satış üçün nəzərdə tutulmayıb

WELCOME TO AZERBAİJAN![1]

Turistlər üçün yaddaş kitabçası

Böyük İpək Yolu ilə səyahət edirsinizsə, Türkiyədən sonra Azərbaycan Respublikasına – çox da məşhur olmayan, əcnəbiyə heç də həmişə aydın olmayan, buna görə də maraqlı bir ölkəyə düşə bilərsiniz.

Azərbaycan Respublikası Cənubi Qafqazda, Rusiya, Türkiyə və İran arasında sivilizasiyaların kəsişməsində yerləşir. Müvafiq olaraq, keçmişdə olduğu kimi, müasir dövrdə də ölkə bütün bu ölkələrin mədəniyyətlərinin təsirini öz üzərində hiss edir.

Azərbaycan regional nəqliyyat habıdır. Xəritəyə baxdıqda, Qərbdən Şərqə və Şimaldan Cənuba bütün rahat yollar Azərbaycandan keçir, onu Avropanın Yaxın Şərqə və Mərkəzi Asiyaya açılan qapısı adlandırmaq olar.

Azərbaycan bölünmüş (1813-cü ildən) ölkədir, 10 milyon insan şimalda – Azərbaycan Respublikasında, 30 milyona yaxın insan isə İranda, əsasən ölkənin şimal hissəsində olan İran Azərbaycanında yaşayır.

Azərbaycan keçmişdə fəxr edəcəyi çox, müasir dövrdə olduğundan xeyli çox şeyə malikdir:

- **zərdüştiliyin vətənidir;**
- **orta əsrlərdə sufilik hərəkatının mərkəzlərindən biridir;**

[1] "TURAN" İnformasiya Agentliyi, 24 İyun 2019

Satış üçün nəzərdə tutulmayıb

- **islamın şiəlik qolunun ilk dəfə dövlət dini elan edildiyi ölkədir (16-cı əsr);**
- **ilk sənaye neft bumu ölkəsidir (19-cu əsrin sonları – 20-ci əsrin əvvəlləri);**
- **müsəlman Şərqində ilk operası olan və ilk demokratik respublikadır (1918–1920);**
- **Çar Rusiyasında sosial-demokrat hərəkatın əsas mərkəzlərindən biridir (20-ci əsrin əvvəlləri);**
- **1918-ci ildə artıq qadınlara səs hüququ verilmiş ölkədir;**
- **sehirli xalçaları, miniatürləri, məftunedici mətbəxi, zəngin musiqi mədəniyyəti və poeziyası olan ölkədir. Təfəkkürü güclü olan insan 1001 gecə ölkəsində olduğunu təsəvvür edə bilər...**

Təəssüf ki, bütün bunlar keçmişdə qalıb, müstəqil Azərbaycan (1991-ci ildən etibarən) *HumanRights, Badgovernanceand-Corruption indekslərində badrecords-a* malikdir. 1993-cü ildən bu günə qədər Azərbaycan *Freedom House-un* indekslərində *NotfreeCountry kimi qeyd edilir*. 1993-cü ildən ölkəni əsasını prezident Heydər Əliyevin qoyduğu ailə klanı idarə edir. Hazırda onun oğlu – prezident İlham Əliyev hakimiyyətdədir, birinci vitse-prezident vəzifəsinə isə o, həyat yoldaşı Mehriban Əliyevanı təyin edib. Ailənin bütün yaxın və uzaq qohumları da hökumətdə və biznesdə yüksək vəzifələrdədir.

Azərbaycan neft ölkəsidir, büdcənin ixrac gəlirlərinin 94%-ni neft pulları təşkil edir. Ölkənin karbohidrogen resursları Avropa istehlakçıları üçün əhəmiyyət kəsb edir, onların işlənməsində də bu istehlakçılar iştirak edir.

Bir çox tədqiqatçıların qeyd etdiyi kimi, sabit demokratik institutları olmayan ölkələrdə neft (və digər dəyərli təbii resurslar) onların cəmiyyəti üçün həm üstünlük, həm də lənətdir. İqtisadiyyatın qeyri-neft sektoru inkişaf etmir. Neft pullarına sahib olan hakimiyyət cəmiyyətə marağı itirir – öz

 Satış üçün nəzərdə tutulmayıb

vətəndaşları qarşısında hesabatlı olmur. Azərbaycanda iqtisadi və sosial vəziyyət bütünlükdə dünyada neft qiymətlərindən asılıdır. Neft qiymətlərinin düşməsi ilə əlaqədar adambaşına düşən ÜDM 2013-cü ildə 7875 dollardan 2018-ci ildə 3865.34 dollara düşüb.

Ölkədə nə mülki, nə iqtisadi hüquqlara zəmanət verilib. Mülkiyyət hüququna riayət olunmur, bu da biznesin inkişafı üçün əsas maneədir. Yalnız hökumətdə əlaqələri olan insan bizneslə (orta və böyük) məşğul ola bilər. Məhkəmə sistemi və hüquq-mühafizə orqanları tamamilə icra hakimiyyətinə tabedir. Parlamentdə iki fraksiya var – "Elədir ki, var!" fraksiyası və "Elədir ki, var, zati-aliləri!" fraksiyası. Kütləvi informasiya vasitələri bütünlüklə hakimiyyətin nəzarəti altındadır. Söz azadlığı yalnız internetdə, sosial şəbəkələrdə və bloqlarda qalıb.

Siyasi müxalifət və fərqli düşüncə tamamilə boğulmuş vəziyyətdədir. Ölkədə 80-ə yaxın siyasi məhbus var. Təkcə fərqli düşünənlər deyil, onların qohumları da repressiyalara məruz qalır, onlar hamısı həm dövlət müəssisələrində, həm də biznes qurumlarında iş yerlərinə buraxılmır – məşhur *Verbotene Berufe* – peşə qadağası.

Bütün bunlara baxmayaraq, vətəndaş hüquqlarına məhəl qoyulmaması və işsizlik deyil, Ermənistanla Azərbaycanın Qarabağ vilayəti ətrafında müharibə əsas milli problem hesab olunur. Müharibə 30 ildir davam edir, bu müddət ərzində 11 minə yaxın Azərbaycan vətəndaşı və 6,5 min erməni həlak olub. Müharibə 750.000 Azərbaycanlını və 300.000 ermənini qaçqın salıb. Azərbaycan ərazilərinin 14%-i hələ də erməni işğalı altındadır. İşğal, qaçqınlar və hərbi xərclər ölkə iqtisadiyyatı üçün ağır yük olur.

Müharibənin davam etdiyi ötən 30 il ərzində beynəlxalq müşahidəçilərin yardımı ilə daim sülh danışıqları aparılıb, amma hələlik onlar uğur gətirməyib. Bəzi müşahidəçilər

Satış üçün nəzərdə tutulmayıb

bunu Rusiyanın mövqeyi ilə əlaqələndirir, onların fikrincə, bu ölkə Ermənistanı, eləcə də Azərbaycanı özünə bağlamaq məqsədilə münaqişənin davam etməsində maraqlıdır.

Bu gün ölkə üçün daha bir mühüm mövzu Avrointeqrasiya prosesidir. Azərbaycan ATƏT və Avropa Şurası Parlament Assambleyasının (AŞPA) üzvüdür. Bu gün Avropa İttifaqı Azərbaycanın Aİ-yə inteqrasiyasını sürətləndirmək üçün böyük səy göstərir, amma Azərbaycan burada böyük şövq göstərmir, xüsusən Aİ-nin fərqli düşünənlərin təqibinə son qoymaq və əhalinin mülki və iqtisadi hüquqlarına zəmanət vermək tələbi ilə əlaqədar. Azərbaycan həmçinin hakim klan tərəfindən tamamilə inhisara alınmış ölkə iqtisadiyyatına və ticarətinə xarici təsirin güclənməsindən ehtiyatlanaraq, Ümumdünya Ticarət Təşkilatına daxil olmaqdan imtina edir.

Ölkədə hakim ailənin Avropanı sevmədiyini demək olmaz. Amma hökumət Avrointeqrasiyaya can atsa da, bunu çox qəribə üsulla edir – onun can atdığı Avropa azad insanlar və yüksək texnoloji istehsalat birliyi deyil, lüks istehlak və həyat tərzi Avropasıdır. Avropa olmamaq, amma Avropasayağı görünmək – ölkədə hakim rejimin arzusu budur. Bu məqsədlə ölkədə ilk Avropa İdman Oyunları, Eurovision, Formula-1 yarışları, futbol üzrə Çempionlar Liqasının finalı keçirilib. Hakim ailənin üzvləri həmişə ən son dəbə uyğun geyinir və çox vaxt Avropa abidələrinin bərpasına pul xərcləyir...

Göründüyü kimi, Azərbaycan həyat mənzərəsi çox da yaxşı görünmür. Amma yuxarıda sadalanan problemləri görməsə, turistlərin Azərbaycanda baxacağı və zövq alacağı çox şey var. Fəal neft hasilatı dövründə ölkəyə 130 mlrd. ABŞ dolları daxil olub, 100 mlrd. dollar artıq xərclənib, bu pulun bir hissəsi oğurlanıb, amma xeyli hissəsi paytaxt Bakının – həm orta əsrlərə, həm də müasir dövrə aid memarlığı olan

gözəl şəhərin infrastrukturunun və görünüşünün yaxşılaşdırılmasına xərclənib. Üç milyon əhalisi olan paytaxt Xəzər dənizinin sahilində yerləşir və şəhər ətrafında gözəl çimərlikləri var. Qarabağ münaqişəsi zonasındakı hərbi gərginlik paytaxtda hiss olunmur. Bakı daha çox insanların şən və qayğısız olduğu, işləmək üçün yaşamadığı, yaşamaq üçün işlədiyi Aralıq dənizinin günəşli şəhərlərini xatırladır.

Azərbaycanlılar mehriban, qonaqpərvər və həmişə əcnəbiyə kömək etməyə hazırdırlar. Azərbaycanlıların milli xarakterinin təməli orta əsrlər türk hərbi-feodal şərəf məcəlləsinin təsiri altında formalaşıb, bu məcəllə haqqında "Dədə Qorqud" (11-ci əsr) və ya "Koroğlu" (16-cı əsr) türk dastanlarından məlumat tapmaq olar:

- **Hər şey, ya da heç nə;**
- **şücaət mənfəətdən yaxşıdır;**
- **məğlubiyyət ölümdən pisdir;**
- **kömək istəmək ayıbdır;**
- **hər bir ruh coşqunluğu büsbütün anlaşılır;**
- **qənaətcillik xəsislikdir;**
- **qonaq müqəddəsdir;**
- **ehtiyat qorxaqlıqdır.**

Qeyd edim ki, bir qayda olaraq, milli xarakterə güclü təsir göstərən təhkimçilik hüququ Azərbaycanda olmayıb.

Təqibçilərindən səbr, emosiyalarına nəzarət və münasib dozada avtoritarizm – böyüklərə, nüfuzlu şəxslərə və ümumiyyətlə istənilən rəhbərliyə itaət tələb edən İslam milli mentalitetə böyük təsir göstərib. "Allah olmayan yerdə otur, ağsaqqal olmayan yerdə oturma" – folklorda bu cür "müdrik" avtoritar məsləhətlər az deyil.

Azərbaycanlılar çox da dindar deyillər, sorğularda əhalinin 96%-i özünü müsəlman kimi təqdim etsə də, müsəlman

Satış üçün nəzərdə tutulmayıb

prosedurlarına (namaz, oruc, alkoqoldan imtina və s.) əməl edənlər sorğuda iştirak edənlərin cəmi 17%-dir.

Azərbaycan cəmiyyəti çox tolerantdır, ölkədə hədsiz dini dözümsüzlük təzahürü, etnik milliyyətçilik görməzsiniz. Ölkədə antisemitizm də yoxdur. Bütün bunlar əcnəbilərin yerli əhali ilə asan dil tapmasına imkan verən "Azərbaycan universallığı" ilə izah olunur.

Burada iqlim də, insanlar da, resurslar da, mədəniyyət də insanların yalansız və zorakılıqsız, xoşbəxt yaşaya biləcəyi gözəl məkan yaratmağa imkan verir. Amma nə isə yolunda getməyib. Hələlik ağır mübarizədə qazanılmış müstəqillik onun tərəfdarlarına layiqli həyat bəxş etməyib.

Amma mübarizə davam edir. Kütləvi repressiyalara baxmayaraq, demokratiya və insan hüquqları tərəfdarları hakimiyyətin cəmiyyəti daha çox özünə tabe etməsinə imkan verməyən etiraz formaları tapırlar. 2019-cu il ölkədə Aleppoda (Suriya) cahil hökmdar tərəfindən amansızca edam edilmiş dahi Azərbaycan sufi şairi Nəsimi (1369–1417) İli elan edilib və bundan dərhal sonra sosial şəbəkələrdə Nəsiminin məzlum insanlara azadlıq çağırışı yayılmağa başlayıb:

"Ey bülbüli-qüdsi, nə giriftari qəfəssən,
Sındır qəfəsi, tazə gülüstan tələb eylə".

 Satış üçün nəzərdə tutulmayıb

RAMİL USUBOVUN AĞSAQQAL SÖZÜ KEÇƏCƏKMİ? BİLMİRİK...[1]

Bu başlıqda müsahibə 27 iyun 2019-cu il tarixində BBC-yə verilmişdi. Buradan izlənilə bilər: https://www.youtube.com/watch?v=XeUI1JDzWe8&t=17s

[1] 27 İyun 2019: https://www.youtube.com/watch?v=XeUI1JDzWe8&t=17s

Satış üçün nəzərdə tutulmayıb

REAL MÜSTƏQİLLİK YOLUNDA SÜRƏT[1]

Gürcüstanda 20.06.2019 tarixində parlament binası qarşısında baş vermiş Rusiya əleyhinə iğtişaşları Moskva ilə qarşılıqlı münasibətlərində bənzər problemləri olan postsovet respublikaları xüsusi diqqətlə izləyirdi.

Bu problemlərin mahiyyəti eynidir. SSRİ respublikaları müstəqilliklərini bərpa etdikdən sonra Kremlin boğucu ağuşundan qurtulmağa çalışırlar və bunun nəticəsi olaraq ərazilərinin bir hissəsini itirir və ya itirmə təhdidi alır. Qazaxıstandan başqa, demək olar ki, bütün MDB üzvləri belə ssenari ilə üzləşiblər. Qazaxıstanda müdrik diktator Moskvanın təsiri altından tez çıxmağın acınacaqlı sonunu öncədən təxmin edərək, özü daim Rusiya ilə əlaqələrin gücləndirilməsi üzrə təşəbbüslər irəli sürüb. Nazarbayev sanki Moskvanı öz ağuşunda boğmağa hazır idi. Bu strategiya təsirli oldu. İndiyədək Moskva Astanadan nə ərazisinin bir hissəsini almağa, nə ölkədə təsirli separatçı hərəkat yaratmağa çalışmayıb.

Analitiklər arasında respublikaların Moskvanın qoynundan qurtulması sürəti ilə bağlı fikirlər ayrılıb.

1. Qərbə doğru çox sürətli hərəkət Kremlin intiqamına səbəb olur, – səbrli olmaq lazımdır, bəziləri belə düşünür.

[1] "TURAN" İnformasiya Agentliyi, 11 İyul 2019

 Satış üçün nəzərdə tutulmayıb

2. Diktat Kremldən mümkün qədər tez qurtulmaq lazımdır, hətta, bəlkə də, ərazilərin bir hissəsinin itirilməsi bahasına. Çünki siz nə edirsiniz edin, Moskva sizin üzərinizdə tam nəzarəti bərqərar edənə qədər rahatlaşmayacaq.

İlk iddiaya nümunə kimi Azərbaycanı göstərmək olar. 1990-cı illərin əvvəllərində ölkə RF qoşunlarını ölkədən çıxarmağa tələsdi, Türkiyə ilə fəal əməkdaşlığa başladı, Moskva ilə razılaşdırmadan Qərbin neft nəhəngləri ilə neft müqaviləsi imzalamağa hazırlaşırdı və bunun nəticəsi olaraq Qərbyönlü hökumət devrildi, ərazilərin 14%-i isə işğal edildi. Eyni şey Gürcüstan, Moldova və Ukraynanın da başına gəldi... Onlar hamısı Qərbə doğru tələsirdilər, amma Qərb onlara doğru çox da tələsmirdi, burada onlara heç bir real yardım etmədi.

Əks arqument kimi 1993-cü ildə Rusiyanın hökumətyönlü elitası tərəfindən əvvəllər Moskvanın nəzarəti altında olan ərazilərdə güclü mərkəzdənqaçma təmayülləri olarsa, RF hökuməti üçün fəaliyyət planı kimi yaratdığı maraqlı sənədə nəzər salmaq olar. Başında A.Adamişin (o dövrdə xarici işlər nazirinin birinci müavini), D.Revrikov (Yeltsinin xarici siyasət məsələləri üzrə köməkçisi), S.Stepaşin (həmin vaxt FTX rəhbəri), S.Şaxray (həmin vaxt Rusiya Federasiyasının baş naziri) və həmin dövrdə Rusiyanın digər məşhur siyasətçilərinin durduğu "Xarici siyasət və müdafiə siyasəti Şurasının tezisləri"nin bir hissəsi belə idi:

"Strateji gələcəkdə keçmiş SSRİ ölkələri ilə... (və ya onlar dağıldığı təqdirdə), ya onlardan ayrılan regionlarla inteqrasiyası, demək olar ki, qaçılmazdır. Bu prosesin alternativi yoxdur və yeganə problem onun formaları və şərtləri ilə bağlıdır".

 Satış üçün nəzərdə tutulmayıb

Göründüyü kimi, Rusiya elitası yuxarıda bəhs edilən mərkəzdənqaçma təmayüllərinə hazır idi, 1993-cü ildə o, artıq onların qarşısının alınması üzrə plan işləyib hazırlayıb. Bu planın mahiyyəti qaçaq respublikalardan ayrılmış regionlarla inteqrasiyadır (oxu: onların işğalıdır). Qarabağ, Dnestryanı, Abxaziya, Donbasda olduğu kimi...

Qərbə doğru sürətli hərəkətin tərəfdarları da iddia edirlər ki, Moskva tərəfindən təhdid olduğu halda belə, mümkün qədər tez bu hərəkətə başlamaq lazımdır. Çünki bu sürətli hərəkət sizə inkişaf üçün zəruri olan islahatları həyata keçirmək – dünya bazarına daxil olmaq və beynəlxalq ictimaiyyətlə bütünlükdə hərtərəfli birləşmək üçün zaman verir. Moskvanın təsiri altında irəliləməyə davam edərkən isə ölkə sadəcə olaraq inkişaf üçün dəyərli vaxtını itirəcək və hazırda Rusiyanı bürüyən iqtisadi və mənəvi böhranlar girdabına daha çox düşəcək...

Tbilisidə Rusiya əleyhinə nümayişlər əlamətdar xarakter daşıyır. İyunun 20-də nümayişçilər Rusiyanın yeni müstəmləkəçiliyinə qarşı şüarlar səsləndiriblər. Buna cavab olaraq növbəti gün RF prezidenti Putin Rusiyalı turistləri Gürcüstana daşıyan mülki aviasiyanın Gürcüstana uçuşunu qadağan edib. Bu, Gürcüstan xəzinəsinə, müxtəlif hesablamalara görə, 250 mln. dollardan 750 mln. dollara qədər ziyan vura bilər. Kasıb Gürcüstan üçün bu, çox böyük vəsait itkisidir. Və Moskva ilə münasibətlər normallaşdırılmasa, – ki, bu ehtimal sıfıra bərabərdir, – hadisələr "Rusiyanın ağuşundan sürətli qurtuluş" ssenarisi üzrə davam edəcək. Bu halda Rusiya ilə ticarət azalacaq, Gürcüstan öz istehsalını, qanunvericiliyini və həyat tərzini Qərb standartlarına uyğunlaşdırmaq, ağır fundamental islahatlar keçirmək üçün böyük səy göstərməli olacaq. İndi islahatlar mütləq aparılmalı olacaq.

Yeni müstəqil dövlətlərin dünya demokratik ictimaiyyəti istiqamətində hansı sürətlə irəliləyəcəklərini hər bir ölkə ayrı-ayrılıqda, öz reallıqlarına və əhalisinin təbiətinə uyğun olaraq həll etməlidir. Göründüyü kimi, Gürcüstan sürətli yolu seçib. Ona uğurlar arzu edirik.

 Satış üçün nəzərdə tutulmayıb

RF ŞƏHƏR PARLAMENTLƏRİNƏ SEÇKİLƏR OLİQARXİYANIN SONUNUN BAŞLANĞICIDIR?[1]

2019-cu il sentyabrın 8-də RF şəhər parlamentlərinə (Dumalara) hakimiyyətin öz mövqelərindən xeyli geri çəkilməsi ilə nəticələnən seçkilər Rusiyadakı hadisələri izləyən hər kəsi təəccübləndirib. Bu seçkilər keçmiş SSRİ-nin avtoritar dövlətləri üçün xüsusilə əhəmiyyətli idi, belə ki, onların gələcək inkişafı əsasən Moskvadan asılıdır. Məsələn, Azərbaycanda biz RF-də həqiqətən seçkilər keçirilməsinə heyrətləndik, hakimiyyətin saxtalaşdırması minimum həddə olub – cəmiyyət buna imkan verməyib – və seçkilərdə hakimiyyətə hiss olunan məğlubiyyət yaşatmaq mümkün olub. Əlavə edim ki, Moskva Şəhər Dumasına (MŞD) bu seçkilərin Azərbaycan üçün əhəmiyyəti ən az İstanbul meri seçkiləri qədər əhəmiyyətlidir.

Seçkilər müxalifətin qeydiyyata alınmayan namizədlərinə dəstək üçün kütləvi etiraz aksiyalarından sonra baş tutub. Bu açıq-aşkar ədalətsizlik hakimiyyətdən onsuz da narazı olan insanları qəzəbləndirib. Həddindən artıq qeyri-populyar pensiya islahatı, misli görünməmiş əmlak təbəqələşməsi – oliqarx-milyarderlər və sıravi vətəndaşlar, Ukraynaya görə Qərbin tətbiq etdiyi sanksiyaların yaratdığı iqtisadi çətinlik-

[1] "TURAN" İnformasiya Agentliyi, 18 Sentyabr 2019

 Satış üçün nəzərdə tutulmayıb

lər, düşən peyklər, sənaye qəzalarının və hərbi qəzaların sayının artması sosial sorğularda həm bütünlükdə hökumətə, həm də şəxsən V.Putinə qarşı etimad səviyyəsinin düşməsinə gətirib çıxarıb. Ayrı-ayrı məşhur ictimai fiqurlar isə açıq-aşkar ölkənin yanlış istiqamətdə irəlilədiyini və dəyişikliklərə ehtiyac olduğunu bəyan etməyə başlayıblar. Bir çox müşahidəçilər Rusiyada "Biganə olmayan vətəndaşlar dalğasının" ortaya çıxdığını qeyd edirlər.

Nəticədə, hakim "Yedinaya Rossiya" ("Vahid Rusiya") partiyası MŞD-də yerlərin, demək olar ki, yarısını itirib. Maraqlıdır ki, YR Moskva təşkilatının lideri Andrey Metelski də seçkilərdə uduzub.

Birləşən müxalifət "fantastik uğurunu" bəyan edir, hakimiyyət isə iddia edir ki, onlar mandatlarının sayının azalmasından sonra belə bütün ölkədə şəhər dumalarını nəzarətdə saxlamağa davam edir.

Xatırladaq ki, hakimiyyət "sistemdənkənar müxalifətdən" heç kimi seçkilərə buraxmayıb: Moskva şəhər Seçki Komissiyası Navalnının bütün tərəfdarlarını qeydiyyata buraxmayıb. Bu, kütləvi etiraz aksiyalarına, yüzlərlə insanın saxlanılmasına və cinayət təqibinə məruz qoyulmasına gətirib çıxarıb. Məhkəmələr 6 nəfər barəsində 5 ilədək həbs hökmü çıxarıb.

Sistemdənkənarları buraxmayıblar, amma bu zaman "Yabloko" namizədləri, kommunistlər və müstəqil namizədlər etirazlardan nəsibini alıb.

Navalnı özü müxalifətin uğurunu təklif etdiyi "Ağıllı səsvermə" taktikası ilə izah edir. Bu taktika seçicilərin səslərini səpələməməyə, yüksək reytinqi olan müxalifətçilərə verməyə çağırmaqdan ibarət idi. Maraqlıdır ki, Navalnının çağırışı ilə Moskvanın müsəlman əhalisi birləşərək müxalif Yandiyevə səs verib.

Seçkilərdə demokratların uğur əldə etməsində Navalnının "Korrupsiyaya qarşı mübarizə fondu", RF-də seçkilərin monitorinqi ilə məşğul olan "Qolos" hərəkatı, elmi əsərlərdə və dissertasiyalarda plagiata qarşı mübarizə aparan "Dissernet" təşkilatı və s. kimi ictimai təşkilatlar da böyük rol oynayıb.

Müxalifət yeni intellektual seçki texnologiyaları düşünüb həyata keçirərkən hakimiyyət seçkilərdə bizə məlum olan köhnə metodla hərəkət edib – xoşagəlməz namizədlərin qeydiyyatından imtina, karusellər, saxta bülletenlərin atılması, müşahidəçilərin məntəqələrdən qovulması, seçicilərin müxtəlif yollarla öz tərəflərinə çəkilməsi, səsverməyə məcburiyyət. Amma... bu dəfə bu tədbirlər kifayət etməyib. Seçkilər, əsl seçkilər baş tutub, müxalifət uğura nail olub.

Müstəqil namizədlərin və onların tərəfdarlarının məşqi ilə Dmitri Qudkovun rəhbərlik etdiyi "Birləşmiş demokratlar" layihəsi məşğul olub. Altı yüzdən çox namizəddən 427 nəfəri qeydiyyatdan keçirmək mümkün olub və kampaniya təşkilatçıları bunu yaxşı göstərici kimi qiymətləndirir. Moskvada müxalifət seçki kampaniyasına qırx milyon rubl, Peterburqda isə cəmi beş milyon rubl yığıb.

Seçkilərdə müxalifətin vəzifəsi şəhər parlamentlərində YR-in mütləq inhisarını pozmaq idi və bu vəzifə yerinə yetirilib. Və müxalifət şəhər Dumalarında əksəriyyətə nail ola bilməsə də, onun nümayəndələri qazandıqları tribunadan fəal şəkildə istifadə edəcəklərini və büdcənin formalaşdırılması və büdcə xərcləri kimi mühüm məsələlərdə öz sorğuları ilə YR-in özbaşınalığını xeyli çətinləşdirəcəklərini bəyan ediblər.

Bədbin proqnozlara baxmayaraq, seçilən kommunistlər, müstəqil namizədlər və digər partiyaların ayrı-ayrı üzvləri hakimiyyətə uymaqdan imtina ediblər və mandatları təsdiq edildikdən sonrakı gün demokratlarla birgə bəyanat yayaraq seçki kampaniyası zamanı həbs edilmiş siyasi məhbus-

ların azad edilməsini; Şəhər Seçki Komissiyası rəhbərliyinin istefasını; Moskva və federal hakimiyyət orqanlarında seçki kampaniyası zamanı hamıya məlum olan korrupsiya haqqında məlumatların araşdırılmasını və dərc edilməsini tələb ediblər.

RF-nin liberal mətbuatı "Demokratlar qayıdır", "Nəzarət altında olan demokratiya çat verib", "Demokratların kiçik qələbəsi", "İnsanlar çiyinlərini düzəldir", "2021-ci il milli parlament seçkilərinin uğurlu baş məşqi" kimi nikbin sərlövhələrlə bəzənib.

Hakimiyyət seçkilərdən sonra Birləşmiş Demokratlara qarşı kütləvi repressiyalara başlamaqdan daha yaxşı ideya tapa bilməyib. Rusiyanın 39 şəhərində seçkilərdən dərhal sonra Navalnının və digər demokratik qrupların qərargahlarında axtarışlar başlayıb, polis bunu "Navalnının maliyyələşdirilməsi haqqında" işin təhqiqatı ilə izah edib. Artıq saxlanılanlar var.

Amma, çətin ki, bu tədbirlər ictimai fəallığın artmasının qarşısını alsın. Əsaslı dəyişikliklərə ehtiyac var. Oliqarx rejimi səhnədən çəkilməlidir.

Bu gün avtoritarizmə və korrupsiyaya uğramış oliqarxiyaya qarşı mübarizə dalğası bütün dünyaya yayılıb. Ərəb Baharı, Şərqi Avropanın demokratik ölkələrində korrupsiyaya qarşı mübarizə, Gürcüstan, Qırğızıstan, Ukrayna, Ermənistanda məxmər inqilablar – bütün bunlar antioliqarxiya dalğasının təzahürləridir. Bu dalğa Qərbi Avropada da özünü büruzə verir, burada korrupsiyaya və inkişaf etməkdə olan ölkələrdə əsassız zənginləşməyə qarşı mübarizə uğrunda mənəvi-ictimai hərəkat formalaşır. Burada seçicilərin təzyiqi altında xaricdəki Qərb korporasiyalarının korrupsiya əməllərinə qarşı qanunlar qəbul edilir; burada oliqarxların yoxsullaşmış ölkələrindən qlamur Qərb

 Satış üçün nəzərdə tutulmayıb

paytaxtlarına daşıdıqları sərvətlərə həbs qoyulmağa başlayır. Bütün bunlar ona görə baş verir ki, Qərbin demokratik birlikləri yoxsul ölkələrdə korrupsiyanın dünyada sabitliyi pozduğunu, inkişaf etmiş ölkələri də korrupsiyaya uğratdığını, terrorizmə və cinayətkarlığa şərait yaratdığını başa düşüblər.

Qərbdə mənəvi antikorrupsiya dalğası, eləcə də Şərqdə etiraz hərəkatları artacaq və şübhəsiz, dünya demokratiyasının növbəti qələbəsi ilə yekunlaşacaq, çünki insanların ədalətli və firavan həyata can atması qarşısıalınmazdır və bu gün bu hərəkat, göründüyü qədər, ən susqun və passiv cəmiyyətləri belə əhatə edir.

Və əlbəttə ki, 1905, 1917, 1991-ci illərdə Rusiya inqilabçıları qonşu ölkələrə təsir etdiyi kimi, Rusiyada demokratik dəyişikliklər bütün avtoritar SSRİ ölkələrində bu cür dəyişikliklərin xəbərçisi olacaq.

 Satış üçün nəzərdə tutulmayıb

RUSİYA QOŞUN YERİDƏCƏK, AZƏRBAYCANI ƏBƏDİ QARMAQDA SAXLAYACAQ[1]

– Belə bir fikir yaranıb ki, Azərbaycan Rusiya yaxınlaşması gedir və biz belə yaxınlaşa-yaxınlaşa sülh yolu ilə Qarabağa geri qayıdacağıq. Biz rusa ləbbeyk deyəcəyik. Rus dediyi kimi, məsəl üçün, xarici təşkilatlarda səs verəcəyik, onun başqa digər iqtisadi və siyasi tələblərini xırda-xırda yerinə yetirəcəyik, o da bizi dost bilib Qarabağı qaytaracaq bizə. Ya imkan yaradacaq ki, biz Qarabağı özümüz qaytaraq. Amma bu səhvdir. Sənin ATƏT-də səs verməyinlə sən rusun idarə etməsi altına düşmürsən, sən onun təzyiqi altına düşmürsən, bu rus üçün kifayət deyil. Bu gün belə səs verdin, sabah başqa cürə səs verəcəksən. Bu gün belə saziş bağladın – rus istədiyi kimi, sabah başqa cürə fırladacaqsan. Qarabağı məndən alıb, məni aldadacaqsan. Rus belə düşünür. Amma yeganə rus bir şey fikirləşib ki, tamamilə bizi özünə bağlasın. O da rus ordusunun Azərbaycana qaytarılmasıdı. Hansı yollarla?

Bu yolla: Azərbaycan Ermənistan arasında hansısa sülh, ya atəşkəs bağlanır, bir neçə rayon Azərbaycana qaytarılır, təmas xəttinə isə sülh məramlı qüvvələr gəlir. Hansı sülhməramlı qüvvələr? Əlbəttə Rusiya Federasiyasının sülhməramlı qüvvələri. Rusiyanın ordusu qayıdacaq Azərbaycana. Duracaq erməni ilə bizim aramızda və beləliklə Qarabağ

[1] 04 Oktyabr 2019, Azadlıq Radiosu

Satış üçün nəzərdə tutulmayıb

bir dəfəlik gedəcək Azərbaycandan. Orda duran rus ordusu həm Ermənistanı, həm bizi öz əlində saxlayacaq, tərpənməyə qoymayacaq. Necə ki bunu Abxaziyada elədilər. O vaxt Şevardnadze bunlarla həmən saziş bağladı, rus ordusu gəldi Abxaziya ilə Gürcüstan arasında olan təmas xəttinə. Bununla da Abxaziya birdəfəlik getdi. İndi də müstəqillik istəyirlər, mən bilmirəm, rusa birləşmək istəyirlər, hara getmək istəyirlər. Bax bu bizi gözləyir. Bizim hökumət eləmir. Rusa icazə vermir ki, o öz ordusunu sülhməramlı qüvvələr kimi qaytarsın bura. Rus da Qarabağı qaytarmır. İndi min dəfə ora get, bura gəl. Sən ona orden ver, o sənə orden versin. Amma ki iş tərpənməyəcək. Bütün bunlar hamısı xülyalardır. Hansısa ildə əgər yadınızdadırsa, biabırçı bir Eurovision oldu. Azərbaycandan rus müğənnisinə sıfır səs gəldi. Böyük skandal oldu, yadınızdadırsa. O saat bunu birləşdirdilər ki, ay telefonumuz xarab olub, xətt belə qırılıb. Səhəri gün 12 bal verdilər – rus inciməsin bizdən. Guya bu Eurovisionda səsvermə ilə Qarabağı qaytaracaq bizə Rusiya. Eurovisionda səsvermə ilə rusu aldatmaq mümkün deyil. Rus istəyir sənin əl-qolunu elə bağlasın ki, sən tərpənməyəsən, quyuda qalasan. Ondan sonra istədiyini eləyəcək. Məsələn, türknən əməkdaşlıq eləmə, qərblə əməkdaşlıq eləmə. Hansı resursların varsa, ilk növbədə mənə ver. Mənim mallarıma rüsum qoyma. İcazə ver Azərbaycan–İran sərhədinə mən də nəzarət eləyim. Bax bunun belə tələbləri var. Elçibəy vaxtında o tələbləri bizə də deyirdilər – şəxsən mənə. Yəni mən bunları özüm eşitmişəm, ən yüksək səviyyədə, Moskvada, orada işləyəndə. Gecə-gündüz gəlirdilər ki, gəl sülhməramlı qüvvələr qoyaq, gəl göndərək. Görürsünüz, başqa ölkələr onsuz da sülhməramlı qüvvələr göndərməyəcək. Nə Fransa, nə o birisi. O birisiləri də biz qoymayacağıq. Qoyun biz ora ordu göndərək. Onda bizim hökumət dedi ki: yox. Yox dedi, Kəlbəcər getdi, sonra Heydər Əliyev də gələndə həmin sözü dedilər, Heydər Əliyev imtina elədi – yeddi rayon da belə getdi. Nə qədər de-

 Satış üçün nəzərdə tutulmayıb

dilər, Heydər Əliyev o şərti qəbul eləmədi. İndi İlham Əliyev də bunu qəbul eləmir. Qarabağ da qayıtmır. Oyun davam edir. Eurovisionda biz onlara səs veririk, onlar bizə orden verir. Cürbəcür konsert qrupları gəlir, bizimkilər ora gedir, Polad Bülbüloğlu orda səhnədə mahnı oxuyur. Guya hamı-hamını öpüb qucaqlayır, Qarabağ isə qayıtmır ki qayıtmır. Və bunu rus bu və digər yollarla Azərbaycan hökumətinə çatdırır. İcazə ver mən qoşunumu sülhməramlı qüvvələr şəklində qaytarım Azərbaycana. Bax, belədir vəziyyət. Amma bizim hökumət bilmirəm nə fikirləşir? Amma ictimaiyyət əməlli-başlı aldanılıb – dezorientasiya olunub. Hələ gözləyir rusa hə deyək, rusa əl çalaq, qonaqlıq verək, oradan əməkdar artistlər gəlsin, biz bunlara konyak içirdək. Görərsiz, qaytaracaqlar, amma qaytarmırlar.

 Satış üçün nəzərdə tutulmayıb

KİŞİ OLMASAN, ADAM OLA BİLMƏZSƏN[1]

Azərbaycan Demokratiya və Rifah Hərəkatının (ADR) üzvü, politoloq Hikmət Hacızadə müxalifətin hazırkı vəziyyəti, Müsavat başqanı Arif Hacılının dəyirmi masa təklifinə dəvət alması, keçmiş nazir Əli İnsanovun da gözlənilən iştirakı və gündəmdəki digər məsələlər barədə suallarımızı cavablandırıb. Onun "Yeni Müsavat"a müsahibəsini təqdim edirik:

– Hikmət bəy, müxalif düşərgədə son dinamikanı müşahidə etsək seytnot vəziyyətindən çıxa bilirlərmi?

– Mən belə hesab eləmirəm. Siyasətlə məşğul olmaq meydanı çox daralıb. Müxalifət üçün vəziyyət ağırdır, çətindir. Bununla belə, onlar fədakarlıq edirlər, təslim olmurlar, sözlərini deyirlər, mübarizəni davam etdirirlər. Əslində, mən bunu mənəvi mübarizə kimi qiymətləndirərdim. Demokratik dövlətlərdə fəaliyyət üçün instrumentlər olmalıdır. Bu, beynəlxalq sazişlərdə, Azərbaycanın götürdüyü öhdəliklərdə öz əksini tapıb. Amma hələ də həbslər var...

– Arif Hacılı müxalifətin dəyirmi masasına sizi də dəvət edib. Özü dəvət üçün zəng eləmişdi?

– Yox, Arif Hacılı mənə zəng etməmişdi. Sadəcə, dəyirmi masa ilə bağlı təklifi facebook səhifəsində paylaşarkən

[1] 31 Oktyabr 2019, https://ovqat.com/manset2/33344-hikmt-haczad-kii-olmasan-adam-ola-bilmzsn.html

 Satış üçün nəzərdə tutulmayıb

adımı da taq etmişdi, yəni səhifəmə qoymuşdu. Mən də adımı gördüm. Sonra onun adamlarından kimsə dəqiqləşdirmək üçün mənə ya zəng eləmişdi, ya yazmışdı ki, iştirak edəcəksinizmi, dedim ki, bəli, tədbirdə iştirak edəcəyəm. Çünki müzakirələr aparmaq vacibdir. İndiki halda çıxış yolları axtarmaq, fikir mübadiləsi aparmaq, təklifləri nəzərdən keçirmək labüddür.

– Amma Müsavat Partiyasından getmisiniz, yenidən Arif Hacılı ilə bir araya gəlmək...

– Mən Müsavatdan getmişəm, ölkənin demokratik mübarizəsindən getməmişəm. Həmin Hikmətəm, bu ölkədəyəm, mübarizədən çəkilməmişəm. Düşünürəm ki, Arif bəy düzgün təklif irəli sürüb. Yerdə qalan müxalif qüvvələr diskussiya aparmalıdır. Ola bilər ki, kimsə başqa cür yol görür. Bu mənada ortada qalan yararlı demokratik qüvvələr mövcudluğunu göstərməlidir. Bir yerə yığışmaq lazımdır. Düzdür, hələ dəyirmi masa baş tutmayıb, amma indidən çoxlu suallar verilir, cəmiyyətin marağı var.

"Mən Müsavatdan getmişəm, demokratik mübarizədən yox".

– Bir yerə toplaşmağın vacibliyini qeyd edirsiniz, o zaman Müsavatda qalaydınız, daha çox kömək etmiş olardınız. Elə deyilmi?

– Xeyr, demokratiya naminə Müsavat Partiyasından getməyim xeyirli idi. Mən hansısa məsələlərlə razılaşmamışam, partiyada təkliflərim qəbul olunmayıb. Vacib deyil ki, partiyada qalasan. Mən hər cür dialoqa hazıram, çəkinmirəm, heç bir kompleksim yoxdur. Ola bilər ki, hansısa təkliflərlə bağlı razılığa gələ bilərik.

– Siz dəyirmi masada hansı məsələləri qaldıracaqsınız, əsas problemlər nədir?

– İlk növbədə ölkədəki ictimai-siyasi vəziyyət, hökumətin son addımları və planlaşdırdığı dəyişiklikləri müzakirə etməliyik. Ondan sonra Azərbaycanın gələcəyi danışılmalıdır. Biz bilməliyik ki, "A", yoxsa "B" yolu ilə getsək daha mütərəqqi olar. Eyni zamanda həmin görüşdə müxalifət partiyalarının əməkdaşlıq məsələləri qaldırıla bilər. Yəni bir-birini söyməmək, xırdalığa getməmək... Mən həmişə demişəm ki, hamıya kömək etməyə hazıram. Çünki hamı da mənə kömək edib.

– Sizin üçün dəyirmi masanın Müsavatın qərargahında, yoxsa hər hansı yerdə təşkil edilməsinin bir əhəmiyyəti var?

– Əsas məsələ bizim bir araya gəlib vacib mövzuları müzakirə etməyimiz olmalıdır. Mənim üçün heç bir fərqi yoxdur ki, tədbir harada keçiriləcək. İntəhası, hakimiyyət müxalifətin, az qala, çayxanada çay içməyinə də imkan vermir. Amma yaxşı olar ki, Müsavatda keçirilsin. Hər halda, qərargahda olan tədbirə müdaxilə etməzlər.

– Hikmət bəy, İsa Qəmbərlə münasibətiniz necədir, həmin tədbirdə üz-üzə gəlməkdə heç bir problem yoxdur ki?

– İsa bəylə insani münasibətlərimiz normaldır. Müsavatdan çıxandan sonra üz-üzə də gəlmişik, söhbətləşmişik. Təbii ki, hər kəs öz fikrində qalıb, söhbət əsnasında qanqaraçılıq olmayıb. Amma bu tədbir həm Müsavat, həm ümumi demokratiya hərəkatı üçün xeyirlidir.

– Dəvət alanlardan biri də Əli İnsanovdur. Siz heç onunla görüşmüsünüz?

– Mən indiyə qədər Əli İnsanovla görüşməmişəm. Əli İnsanov mübahisəli fiqurdur, onun keçmişini qəbul etmirəm və elədiklərini heç kəs unutmayıb. Amma elədiklərinə görə əziyyətini də çəkdi, sınmadı. Hər halda, onunla söhbətləş-

mək olar. Mən nə İnsanovun partiyasına daxil oluram, nə də o mənim partiyama... O istəyir ki, siyasi aktivlik göstərsin, bunu da prinsipcə dəstəkləyirəm. Yenə deyirəm ki, heç nə unudulmayıb. Amma bu gün onunla danışmaq olar. Çünki möhkəm durub, etirazlarını da eşidirik.

– Kriminal avtoritet də sınmır, sizcə, bu, göstərici olmalıdır?

– Sınmamaq göstəricidir. Kriminal və avtoritet ayrı-ayrı sözlərdir. O qədər satılan var ki... Arasında sınmayan görəndə adamın ağlına başqa fikirlər gəlir. Bu yerdə mənim məşhur kəlamım yada düşür: adam gərək kişi olsun, kişi də gərək adam olsun. Ancaq bu fikrimi mütləq qeyd edin – ilk addımda gərək kişi olasan, sınmayasan. Yəni ilk məsələ kişilik olmalıdır, sonra adamlıq gəlir. Kişi olmasan, adam ola bilməzsən.

– Amma istər-istəməz adamın gözünün qabağına mənzərə gəlir: demokrat Hikmət Hacızadə ilə korrupsioner keçmiş nazir demokratiya üçün bir masa ətrafında...

– Mən ondan qız almıram ki?! Nə ona qız verirəm, nə ondan qız alıram. Əli İnsanovu hələ ki müxalif demokrat kimi qəbul etmirəm. Onu ictimai fiqur sayıram.

Bilirsiniz, yaddaşımızda feodal şeylər qalıb. Həddindən artıq maksimalizm var. Amma real həyatda belə olmur. Sizin dediyiniz gənc dəliqanlı psixologiyasıdır. Mən erməni ilə də danışıqlarda iştirak eləmişəm. İndi nə edim, görüşməyim?

– Ümumən, bu görüşü müxalifətin birləşməsi üçün ilk addım kimi dəyərləndirmək olarmı?

– Birgə əməkdaşlığın metodları, üsulları var. Ümumi prinsiplər ortaya qoyulacaqsa, mümkündür, amma hansısa lider ətrafında birləşməsinlər. Əslində müxalifətdə indi də əməkdaşlıq var, bir-birini dəstəkləyirlər, meydanda tək qoymurlar. Məsələn, hansısa cəbhəçi həbs ediləndə Müsavat bəyanat

verir, hansısa müsavatçıya təzyiq olanda AXCP mövqeyini bildirir. Müxalifətin ümumi mənafe naminə, demokratiya üçün toplantıları olanda Müsavat qərargahını ayırır. Hər seçkidə ciddi şəkildə əməkdaşlıq edirlər. Heç eşitmisən ki, seçkidə AXCP ilə Müsavat bir-birinin mövqelərini vursun, namizədlərinə mane olsun?

Düzdür, müxalifətin birləşməsi alınmır. Amma bu dəyirmi masada cari mübarizənin müzakirəsindən söhbət gedir. Ola bilsin ki, bu yığışmaq həm də seçkiyə görədir. Amma parlament seçkilərinə hələ bir il var, həyatın işini bilmək olmur.

– Bizim bu daxili siyasətin sərhədlərindən çox uzaqda, daha doğrusu, Yaxın Şərqdə terrorçubaşı İŞİD lideri Əbubəkr əl-Bağdadi özünü partlatdı. Nə bin Laden, nə əl-Bağdadi diri ələ keçirilmədi ki, mühakimə olunsunlar. Sizcə bu faktların özü həmin təşkilatların ABŞ tərəfindən maliyyələşdirilməsi şübhələrini gücləndirmirmi və yeni bir terror şəbəkəsi üzə çıxacaqmı?

– Trampın açıqlaması oldu ki, İŞİD rəhbərini mühasirəyə alanda təslim olmayıb, əməliyyat zamanı ailə üzvləri ilə birlikdə özünü partladıb. Amma istisna etmirəm ki, yeni bir terror təşkilatı üzə çıxsın. Ümumdünya terror hərəkatı bitməyəcək. Ümumiyyətlə, Amerika sovet hökumətinə qarşı "Taliban", "Əl-Qaidə" kimi silahlı terror təşkilatlarından istifadə edirdi. Bu regionda kommunizm yayılmasın deyə onlara silah verirdi, islamçıları gücləndirirdi. Sonra bu təşkilatlar böyük gücə sahib oldular, heç kəsə qulaq asmadılar, nəzarətdən imtina elədilər. Eyni proses İŞİD-lə bağlı yaşandı.

Amerika çalışdı ki, Suriya prezidenti Bəşər Əsədə qarşı eyni metoddan istifadə eləsin. Və bilirsiniz ki, bir sıra ölkələr, onların adlarını çəkmirəm, bu prosesdə İŞİD-ə kömək edirdilər. Sonra İŞİD qüdrətləndi, özünü dövlət elan etdi, nəzarət-

dən çıxmağa başladı və bəyan elədi ki, əsl Allah adamı bizik. Mən belə deyərdim – Amerika maliyyələşdirir yox, maliyyələşdirirdi. Qərb, NATO kommunizm ideyalarına qarşı özləri vuruşmaq istəmirdilər, aldadılmış islamçı gəncləri qabağa salırdılar.

Amma Bağdadinin ölümü ilə qlobal terrorizmlə mübarizə başa çatmayıb, çox güman ki, yeniləri meydana çıxacaq. Hətta türkmən əsilli Qardaş adlı şəxs özünü Bağdadinin varisi elan edib...

Emil SALAMOĞLU,
"Yeni Müsavat"

Satış üçün nəzərdə tutulmayıb

ƏRDOĞAN BU OYUNDAN QALİB ÇIXDI[1]

"İrandakı xaos xarici sanksiyalarla bağlıdır. Bu sanksiyalar isə hələ də qüvvədə qalır. Bu da o deməkdir ki, iqtisadi vəziyyət pisləşməkdə davam edəcək".

Paralel.az politoloq Hikmət Hacızadənin *Teleqraf.com*-a müsahibəsini təqdim edir:

– Əvvəlcə NATO-nun Baltikyanı dövlətlər və Polşada müdafiə planı həyata keçirməsinə etiraz edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan NATO-nun London sammitindən sonra qərarını dəyişdi. Nə baş verdi ki, o, belə bir dəyişikliyə getdi?

– Çünki Ərdoğan ABŞ-dan istədiyi dəstəyi ala bildi. Yəqin ki, Trampla Ərdoğan arasında hansısa sövdələşmə olub. Amerika prezidenti ona qarantiya verə bilər ki, NATO dövlətləri Türkiyəyə təzyiq etməyəcək, Suriyada öz planını həyata keçirə bilər, onlar da mane olmayacaq. Ola bilsin ki, bu vədləri verdikdən sonra Ərdoğan belə bir dəyişikliyə getdi.

– Maraqlı bir məqam da budur ki, ABŞ və Türkiyə arasında dövlət səviyyəsində soyuq münasibətlər olduğu halda, Tramp və Ərdoğanın isti əlaqələri diqqət çəkir. İndi xarici medianın diqqət ayırdığı əsas məsələlərdən biri də budur.

[1] 06 Dekabr 2019, https://paralel.az/az/article/126846

 Satış üçün nəzərdə tutulmayıb

– Bu, Amerikanın siyasi sisteminin xüsusiyyətidir. Konqres bir qərar verir, prezident tamam başqa bir düşüncədə olur, demək olar, qəliz məsələdir. Onsuz da axırda hansısa yekun qərarı verəcəklər. Məsələn, Konqresin Türkiyəyə münasibəti soyuqdur. Bir müddət əvvəl Konqresin Nümayəndələr Palatasında anti-türk genosid məsələsi qaldırıldı, buna dair bir qətnamə qəbul olundu. Həmçinin digər məsələlər müzakirə olunur. Konqres bunu seçicilərdən asılı olduğu üçün edir. Hər iki ildən bir Konqresə seçkilər keçirilir. Bu müddət ərzində də, vəziyyətə uyğun olaraq, seçicilərin Konqresdə çoxluqda olan partiyaya münasibəti dəyişə bilər. Buna görə də, Konqres prezidentdən daha fərqli qərarlar qəbul edə bilir. Bu qərarlar da bəzən daha populist ola bilir.

Amerikada prezident isə dörd ilə seçilir, bu müddət ərzində də Konqresdən daha fərqli siyasət yürütmək imkanı ola, Konqresin populist qərarlarını əngəlləyə bilər. Yəni bu, ABŞ Konstitusiyası və siyasi sisteminin təzahürüdür. Amma Amerikadan fərqli olaraq, məsələn, Böyük Britaniyada parlament və baş nazir eyni başdır. Amma Amerikada Konqres və prezident tam ayrı sistemdir, buna görə də çox vaxt bir-birinə zidd olan addımlar atırlar.

– Görünən budur ki, Türkiyə–ABŞ münasibətlərində bir yumşalma trendi yaranıb, ortada konkret anlaşmalar var. Sizcə bu anlaşmalarda Türkiyənin maraqları nəzərə alındımı?

– Əlbəttə nəzərə alınıb. Ərdoğan Trampdan istədiyini aldı. Ərdoğanın əsas hədəfi Suriyadır. O, bölgədə – Türkiyə yaxınlığında müstəqil kürd dövlətinin qurulmamağını istəyir. Hər halda, Tramp Ərdoğanın bu planına dəstək verdi. Burada geri çəkilən ABŞ-dır, Türkiyə yox.

– Bəs burada Rusiya Türkiyəyə əngəlləyici faktor ola bilərmi?

– Hələ ki, bunun əlamətləri görünmür. Rusiya belə bir xəyala düşüb ki, Türkiyəni Qərbdən qoparacaq, Qərbi əvəz-

 Satış üçün nəzərdə tutulmayıb

ləyəcək, ona silah satacaq və s. Əslində isə Rusiya da Türkiyənin kürd məsələsi və Suriya planlarını qəbul etdi. Hələ ki vəziyyət Türkiyənin xeyrinədir. Türkiyə bu raundda hər tərəfdən uduşlu çıxdı.

– Amma bir məsələ də var ki, Ərdoğan NATO-nun Polşa və Baltikyanı bölgə ilə bağlı planı ilə razılaşdı. Bu plan isə Rusiyanın sözügedən regiona ehtimal olunan hərbi müdaxilələrinə hazırlıq xarakteri daşıyır. Türkiyənin belə bir planda iştirakı Rusiya ilə gərginliyə yol açа bilərmi?

– Yəqin tərəflər arasında alver gedir, "Siz mənə Suriyada, mən də sizə Baltikyanı dövlətlərdə kömək edim" kimi xırda alverlər gedir. Bunun təfərrüatını bilmirəm, amma həmişə belə alverlər olur. Əvvəlcə Türkiyə bu plana etiraz edirdi, çünki Qərb, xüsusən də Avropa dövlətləri Ankaraya qarşı idi. İndi isə görünən budur ki, onlar bir qədər geri çəkiləndən sonra Türkiyə özünü qabağa verə bilib. Hazırda siyasi güclər arasında "şahmat oyunu" oynanılır.

– Bölgə ətrafında yeni gəlişmənin yaşandığı vaxt ABŞ Yaxın Şərqə 14 min canlı hərbi qüvvə göndərmək barədə qərar verdi. Bu da İrandan gələn mümkün təhlükələrə qarşı hazırlıq deməkdir. Bu addım bölgədə hansı proseslərə yol açа bilər?

– Bu bölgə qlobal neft bazarı və dünya iqtisadiyyatları üçün çox vacib nöqtədir, buna görə də bütün güclər bura nəzarət etmək istəyir. İndi bölgədə həssas bir vəziyyət yaranıb, İraq və Livanda qarışıq situasiya hökm sürür, İran daxilində gərginlik hiss olunur. Həmin ölkələrdə ara qarışsa, dünya iqtisadiyyatı bundan böyük zərbə ala bilər. Buna görə də bölgəyə ordu göndərib orada stabilliyə nəzarət etmək istəyirlər. Həm İraq, həm İran, həm də regionun digər dövlətlərində stabillik birdən pozula bilər, nəticədə dünyanın neft bazarının otuz faizi çökə bilər ki, bu da dünya iqtisadiyyatı üçün böyük zərbə deməkdir. ABŞ da bunun qarşısını almaq üçün bölgəyə qoşun göndərir.

– Məsələn, İranda vəziyyətin bu həddə qarışması ehtimalı varmı?

 Satış üçün nəzərdə tutulmayıb

– Mümkündür. İrandakı xaos xarici sanksiyalarla bağlıdır. Bu sanksiyalar isə hələ də qüvvədə qalır. Bu da o deməkdir ki, iqtisadi vəziyyət pisləşməkdə davam edəcək. Bunun əziyyətini də xalq çəkəcək, bu səbəbdən də öz narazılığını bildirəcək.

– Bu gərginlik daha çox xarici, yoxsa daxili faktorlara bağlı ola bilər?

– Hər iki faktor rol oynaya bilər. Əlbəttə, İranı xaricdən də sıxırlar, öz neftini dünya bazarına çıxarmağa qoymurlar. Üstəgəl, daxildəki narazılıqların da miqyası böyükdür. Yəni, İran hər iki tərəfdən təzyiq altındadır.

Satış üçün nəzərdə tutulmayıb

...DEMOKRATİK STANDARTLARA CAVAB VERMƏYƏN BİR SEÇKİ KAMPANİYASINI MƏN GÖRDÜM[1]

Bu başlıqda müsahibə 9 fevral 2020-ci il tarixində Azadlıq Radiosuna verilib. İzləmək buradan mümkündür:

https://www.youtube.com/watch?v=gKfdfs1jQQw

[1] 9 Fevral 2020, **Azadlıq Radiosu**: https://www.youtube.com/watch?v=gKfdfs1jQQw

 Satış üçün nəzərdə tutulmayıb

9 FEVRAL SEÇKİLƏRİ VƏ GƏNC SİYASƏTÇİLƏR...

Hökumət demokratik düşərgəni sındıra bilmədi[1]

7 mart 2020, OSMANQIZI.TV-yə müsahibə. Buradan izlənə bilər: https://www.youtube.com/watch?v=idi2iTk-kLs

[1] 7 Mart 2020, **OSMANQIZI.TV**: https://www.youtube.com/watch?v=idi2iTk-kLs

Satış üçün nəzərdə tutulmayıb

RUSLAR KƏLBƏCƏRİN İŞĞALI ƏRƏFƏSİNDƏ MƏNƏ EYHAMLAR VURURDU[1]

Bu başlıqda müsahibə 3 may 2020-ci il tarixində Azadlıq Radiosuna verilib. İzlənməsi buradan mümkündür: https://www.youtube.com/watch?v=P4-OIJFtcVw&feature=emb_logo

[1] 3 May 2020. https://www.youtube.com/watch?v=P4-OIJFtcVw&feature=emb_logo

 Satış üçün nəzərdə tutulmayıb

AZƏRBAYCANA TRAMP SƏRFDİR, ƏLEYHDARLARIMIZA QARŞI SANKSİYALARI GÜCLƏNDİRİR[1]

ABŞ prezidentliyinə Demokratlar Partiyasından namizəd, keçmiş vitse-prezident Co Bayden rəqibini, respublikaçıların namizədi, hazırkı prezident Donald Trampı 5 faiz qabaqlayır. CNN telekanalı tərəfindən keçirilmiş son sorğuya əsasən, ölkə üzrə qeydə alınmış seçicilərin 51 faizi Baydeni dəstəkləyir. Trampın tərəfini 46 faiz seçici tutub.

Buna baxmayaraq, Trampın ABŞ-ın əsas və ən "mübahisəli" ştatlarında qələbə qazanmaq üçün böyük şansa sahib olduğu göstərilib. Statistikaya görə, keçmiş vitse-prezident qadınlar, qaradərililər və 45 yaşdan yuxarı sakinlər arasında daha populyardır. Hazırkı prezident isə ABŞ-ın orta gəlirli vətəndaşları və gəncləri arasında populyardır.

Bundan əlavə, respondentlərin əksəriyyəti Trampın iqtisadi islahatlarını rəqibindən daha yüksək qiymətləndirirlər (54 faiz – Tramp, 42 faiz – Bayden).

Lakin demokrat namizəd səhiyyə və koronavirusla mübarizə məsələsində irəli sürdüyü siyasətlə Ağ Evin liderini geridə qoyub.

ABŞ-da növbəti prezident seçkiləri 3 noyabrda baş tutacaq. Birləşmiş Ştatların vətəndaşları 46-cı prezidenti seçə-

[1] 16.05.2020, https://musavat.com/news/hikmet-hacizade-azerbaycana-tramp-serfdir-eleyhdarlarimiza-qarsi-sanksiyalari-guclendirir_702412.html

Satış üçün nəzərdə tutulmayıb

cəklər. Ancaq onun kim olacağını proqnozlaşdırmaq çətindir. Bəzi mülahizələrə görə, Tramp koronavirusun badına gedir. ABŞ-da yaranmış iqtisadi şərait indiki prezidentin reytinqini aşağı salıb.

Azərbaycan üçün hansı namizəd sərfəlidir, bununla bağlı fərqli yanaşmalar var. Baydenin qondarma erməni soyqırımını tanıyacağını anons etməsi heç də bizim üçün arzulanan hal deyil. Konqresin "soyqırımı" tanıma qərarını Bayden imzalayacağı halda Türkiyə və Azərbaycan tərəfindən ciddi etirazlar olacağı da aydın məsələdir. Üstəlik, Trampın Azərbaycana münasibəti, onun prezidentliyi dövründə Bakı–Vaşinqton əlaqələri Obama dönəmi ilə müqayisədə daha yaxşı olub.

Politoloq Hikmət Hacızadənin "Yeni Müsavat"a bildirdiyinə görə, Tramp bizə sərfəlidir: "O, aktiv xarici siyasət aparır və Azərbaycanın əleyhdarlarına qarşı sanksiyaları gücləndirir. Bu baxımdan Trampın yenidən prezident seçilməsi Azərbaycan üçün daha yaxşı olardı. Çünki demokratlar demokratiyadan danışırlar, heç nə etmirlər".

H.Hacızadə hesab edir ki, Baydenin onu qabaqlamasında pandemiyanın təsiri ola bilər: "ABŞ-da işsizlərin sayı artıb. İnsanlarda narazılıq yaranıb. Onlar baş açа bilmirlər ki, virusun günahkarı kimdir, amma prezidentin problemləri həll etməli olduğunu hesab edirlər. Trampın populyarlığının azalmasına səbəb bu ola bilər. Amerikada həmişə demişəm ki, iş görən respublikaçılar olur, demokratlar da gəlib pulu xərcləyirlər. Amma hər şeyin Baydenin xeyrinə qurtaracağını söyləmək tezdir. Çünki virus bitəcək, işlər bərpa olacaq, Tramp iqtisadiyyatı qaldıra bilər".

Politoloq Trampın İran və Çin siyasətinin düzgün olduğunu düşünür. O, Baydenin "genosid" vədlərinin normal olduğunu hesab edir: "Hər seçki ərəfəsində namizədlər səs toplamaq üçün müxtəlif bəyanatlar verirlər, ermənilərin

səsini yığmaq üçün vədlər irəli sürürlər, sonra heç biri "genosid" sözünü təsdiqləmir. Bu dəfə də eyni proses gedir. Əgər Tramp təzədən prezident seçilsə, qondarma soyqırımı tanımayacaq".

Emil SALAMOĞLU,
"Yeni Müsavat"

Satış üçün nəzərdə tutulmayıb

RUS MƏKTƏBLƏRİ BİZƏ NƏ VERİR?[1]

Yenə rus məktəblərini bağlamaq şüarları səsləndi. Yenə primitiv millətçilik.

Bu məsələnin həlli üçün 2 suala cavab verməli:

1. Kimsə bizə dəqiq sübut etsin ki, rus məktəbini bitirənlər vətənimizi daha az sevir, vətənpərvər ola bilmir. (Məsələn, "Bandotdel"də işçilərin hamısı azsektoru qurtarıb və hər gün yüksək vətənpərvərlik nümunəsi göstərir).

2. Bir də sübut edin ki, rus sektorunu bağlayandan sonra azsektorun məzunları başlayacaq dünyanın işlərilə maraqlanmağa və kitab oxumağa (Hazırda Azərbaycan dilində çap olunan kitablar ən çoxu 300 nüsxə satılır! Fikir verin, 9 milyon əhali və cəmi 300 kitab). Bu rəqəmlər onu göstərir ki, rus sektorunu bağlasaq, ölkəmiz dünyadan bixəbər qalacaq.

* * *

Qısa olaraq bunu deyə bilərəm: Vətəni sevmək, onun yolunda fəda olmaq üçün adam başını bozbaş qabından qaldırıb ictimai həyatda fəal olmalıdır, onun geniş dünyagörüşü olmalıdır!!! Dünya görüşü də rus sektoru bitirənlər arasında daha genişdir!

[1] 13 Sentyabr 2020, https://mektebgushesi.az/2020/09/13/hikm%C9%99t-hacizad-%C9%99-rus-m%C9%99kt%C9%99bl%C9%99ri-biz%C9%99-n%C9%99-verir/

 Satış üçün nəzərdə tutulmayıb

* * *

Deyirlər, niyə Azərbaycan vergiverənləri hesabına rus məktəblərini saxlayırıq? Unudurlar ki, rus sektoruna öz uşaqlarını verən valideynlər də vergi verir…

* * *

Mənim də oğlum azsektorda oxuyub, sonra Amerikaya gedib, sonra türmədə oturub. Amma bir böyük məsələ də var ki, rus məktəbi bütün dünyaya balaca "fortoçka"dır və bu, istər-istəməz görünür. Bunu araşdırmaq lazımdır. Dil bilməknən deyil. Beatles bilmək, müasir kinolardan, yeni kitablardan xəbərdar olmaq, yeni bizneslərdən xəbər almaq, yeni incəsənətdən və stillərdən xəbərdar olmaq, insan münasibətlərində postmodern davranışdan xəbərdar olmaq. Budur rus məktəbinin "fortoçka"sından gələn məlumat. Bu "fortoçka"nı bağlasaq olacağıq Biləcəri stansiyası.

* * *

Bir də ki, rus məktəbini bağlamaqla Azərbaycan sektoru avtomatik dirçələcək?

* * *

Bir böyük məsələ də var – rus və ya ingilis dilini bilmək bir şeydir, amma rus və ya ingilis məktəbində oxumaq, oradakılarla ünsiyyətdə olmaq tamam başqa şeydir. Rus məktəbi insana bunları verə bilir: qadına müasir, bərabərlik üstündə qurulmuş davranış, humanizmin müasir səviyyəsi (18 əsr səviyyəsi yox), dünyaya müasir baxış, ünsiyyətcillik və mənasız utancaqlıqdan qurtarır, böyük-kiçik münasibətlərinin (avtoritarizmin) yumşaldılması və s. Böyük həyat bilikləri, hansıları ki kitabdan da tapıb tez oxuya bilməzsiniz. Bizim

 Satış üçün nəzərdə tutulmayıb

mədəniyyətimiz "Şərəf" mədəniyyətidir *(культура чести),* rus məktəbində isə Avropadan balaca bir nəfəslikdən sızmış "Vicdan mədəniyyətidir" *(культура совести).* Belədir: rus dili bilmək və rus məktəbində oxumaq başqa şeylərdi!!! Bu barədə də düşünək.*(Respekt.az)*

 Satış üçün nəzərdə tutulmayıb

RUSİYANIN QARABAĞA SÜLHMƏRAMLI QÜVVƏ YERLƏŞDİRMƏSİNƏ İMKAN VERMƏMƏLİYİK[1]

Azərbaycanın Rusiyadakı sabiq səfiri: "Mən Rusiya tərəfinin tərəfsizliyini müşahidə etmirəm. Onların danışıq ritorikası durmadan sərtləşir. Dedikləri də budur ki, dayanın, qurtarın. Bu, əlbəttə, bizim üçün yaxşı hal deyil"

Artıq 18 gündür Azərbaycan Ordusu öz ərazilərində əks-hücuma başlayıb və anti-terror əməliyyatı keçirir. Bu müddətdə Azərbaycanın haqq işini dəstəkləyənlərlə yanaşı, erməni lobbisinin təsirinə məruz qalıb işğalçılarla mübarizəni pisləyən dövlətlər də var.

Azərbaycanın Rusiyadakı sabiq səfiri, politoloq Hikmət Hacızadə Dağlıq Qarabağ və ətraf rayonlardakı hərbi əməliyyatlardan danışarkən *Reyting.az*-a deyib ki, bu məsələdə Rusiyanın da tərəfsizliyini müşahidə etmir:

– Azərbaycan Ordusu irəliləyir, sübut edilən hərbi uğurlar var. Biz buna çox sevinirik. Buna proses kimi baxmaq lazımdır.

Digər tərəfdən, dünyada ermənilərin qaldırdığı vay-şivən də bizi qane edə bilməz. Fransadan, Amerikadan, Rusiyadan

[1] 15 Oktyabr 2020, https://reyting.az/musahibe/42305-hikmt-haczad-rusiyann-qarabaa-sulhmraml-quvv-yerldirmsin-imkan-vermmliyik.html

Satış üçün nəzərdə tutulmayıb

çağırışlar gəlir ki, "atəşkəs lazımdır, bu məsələ hərbi yolla həll olunmayacaq, gəlin müzakirələr aparaq". Rusiya Xarici işlər naziri Sergey Lavrov bu mövzuda bir neçə dəfə danışıb, amma xeyri olmadı. Hətta dünən məlumat yayıldı ki, Rusiya Müdafiə naziri Sergey Şoyqu zəng edib. Anlamıram ki, bunlar nə etmək istəyir, məqsədləri nədir? Azərbaycan öz ərazisində əməliyyat keçirir və bu, legitimdir.

Kənar müdaxilələr məni bir qədər narahat edir. Əslində bizim arxamızda yalnız Türkiyə var, bizə dəstəyini ifadə edir.

Sözsüz ki, başqa dost ölkələr də var və sözlərini deyirlər. Amma real kömək yoxdur.

Ukrayna və Pakistanı da qeyd etmək olar.

Təəssüflər olsun ki, Qərb ölkələrindən, Avropadan, Rusiyadan belə dəstək görmürük, əksinə, onlar deyirlər ki, dayanın, danışıqlara başlayın. Məncə, mənzərə bu cürdür.

– Əslində Qərb ölkələrinin regiona təsir imkanları yoxdur. Daha çox təsir imkanı Rusiyaya məxsusdur, amma Rusiya da hələ ki rəsmi şəkildə tərəfsizliyini saxlayır. Rusiya bundan sonra hansı addımı ata bilər?

– Mən Rusiya tərəfinin tərəfsizliyini müşahidə etmirəm. Onların danışıq ritorikası durmadan sərtləşir. Dedikləri də budur ki, dayanın, qurtarın. Bu, əlbəttə, bizim üçün yaxşı hal deyil.

Hesab edirəm ki, Rusiyanın imkanları çoxdur. Amma mən bilmirəm ki, Rusiya-Türkiyə arasında danışıqlar olubmu, olubsa, hansı məsələ müzakirə edilib. Biz bunu bilmirik. Əgər danışıq olubsa, bu, çox müsbət haldır. Yəni "siz də qarışmayın, biz də qarışmırıq" və ya "siz qarışsanız, biz də qarışacağıq", – formatında. Əgər belə razılaşma varsa, çox əla. Yox, danışıqlar olmayıbsa, məsələ çətinləşəcək.

Rusların imkanları çoxdur. Ən azı başlayacaq Ermənistana silah-sursat verməyə, hərbi mütəxəssislər göndərməyə və s. Ruslar bu fəaliyyətlə məşğul ola bilər. Hesab edirəm ki,

 Satış üçün nəzərdə tutulmayıb

hələ bu təhlükə yoxdur, amma gözləmək lazımdır. Bu mənada işləri ehtiyatlı tutmalıyıq.

– Ancaq müharibə başlayandan bir neçə gün sonra Rusiya lideri Vladimir Putin elan etdi ki, müharibə Azərbaycan ərazisində gedir və Ermənistan ərazisində müharibə getsə, onlar öhdəliklərini yerinə yetirməyə hazırdırlar...

– Bəli, belə açıqlama olmuşdu. Mənim qənaətimə görə, artıq siz dediyiniz mərhələ başa çatıb. İndi yeni mərhələ başlayır. Və durmadan "sülh", "danışıqlar", "dayanın", – deyirlər.

– Atəşkəs imzalandı və erməni tərəfi bir gün sonra Gəncə şəhərinə raket zərbəsi endirdi...

– Bəli, haqlısınız. Amma təəssüflər olsun ki, bu reallıq Moskvanın dediklərinə təsir etmir. Ruslar deyirlər ki, siz birbirinizlə vuruşmayın, barışın. Kim müqəssirdir, günah kimdədir, birinci kim başlayıb, onlara görə bunun əhəmiyyəti yoxdur. Elə deyirlər ki, müharibə aparmayın, sülh masasında əyləşib danışıqlara başlayın və ya Moskvada əldə olunan humanitar atəşkəsə riayət edin. Mən Rusiyanın mövqeyini belə qiymətləndirirəm.

Yeri gəlmişkən, ötən gün Sergey Lavrov əraziyə sülhməramlı qüvvələrin gəlməsinə işarə edirdi. Ruslar öncədən bunu istəyir, bunun üçün çalışırdılar. Hesab edirəm ki, bu hal bizim üçün uyğun deyil və ona imkan vermək olmaz. Hətta sülhməramlı qüvvələr olmasa da, müşahidəçilərinin gəlməsini istəyir. Onların ideyası Ermənistan və Azərbaycan arasına sülhməramlı adı altında hərbçilərini yerləşdirmək və hər iki ölkəyə təsir imkanlarını gücləndirməkdir. Əlbəttə, biz bunu vurğulamalı və buna imkan verməməliyik. İctimaiyyət, cəmiyyət bu barədə danışmalı, media yazmalıdır.

– Azərbaycan Rusiya başda olmaqla Avropa və Qərbin bu təzyiqlərinə nə qədər tab gətirə bilər?

– Bunu deyə bilmərəm. Hesab edirəm ki, bu məsələ həm də qardaş Türkiyədən asılıdır. Türkiyənin hara qədər bizi müdafiə edəcəyini hadisələrin inkişafı ilə birlikdə görəcə-

 Satış üçün nəzərdə tutulmayıb

yik. Hər halda bizə vaxt qazanmaq və cəbhədə işlərimizi irəli aparmaq daha vacibdir.

– Ermənistan Baş naziri Nikol Paşinyan bəyan edib ki, vəziyyət ağırdır, ciddi itkilər var və erməni ordusu cəbhənin şimal və cənub istiqamətlərində geri çəkilməyə məcbur olub. Siz, bu kontekstdə Ermənistanın vəziyyətini necə qiymətləndirirsiniz?

– Ermənistanda vəziyyət sözsüz ki, ağırdır, ehtiyatları da tükənmək istiqamətində gedir. Amma onların təslim olacağı hələlik görünmür. Paşinyan da son çıxışında bəyan edib ki, sona qədər müharibə aparacaqlar. Üstəlik, erməni ordusunun cəbhənin şimal və cənub istiqamətində geri çəkilməsi Ermənistanda deyil, Qarabağda baş verir. Əlbəttə, bunlar Qarabağı özlərininki hesab edirlər. Amma ciddi zərbə alsalar da, hələlik tab gətirirlər.

Ola bilsin ki, Paşinyan bu sözləri deyəndə öz ictimaiyyətinə hansısa siqnallar verir, demək istəyir ki, bəlkə bu müharibəni qurtaraq, əyləşib danışaq. Məna həm də bu ola bilər. Məncə, bir az gözləmək lazımdır.

– Nikol Paşinyanla Rusiya arasında müttəfiqlik görürsünüzmü?

– Əslində Rusiyada Nikol Paşinyanı sevmirlər, onu arzu etmirlər və həm də onu dəyişmək istəyirlər. Bu mənada Rusiya–Ermənistan müttəfiqliyi var, Paşinyan–Rusiya müttəfiqliyi isə yoxdur.

Hərbi əməliyyatın birinci mərhələsində Vladimir Putin prosesə qarışmırdı, amma indi oradan səslər güclənir. Bir növ Paşinyanı istəmirlər, amma Ermənistanı da əldən buraxmaq niyyətində deyillər. Bəlkə də çalışıb imkan verməyəcəklər ki, biz onları sona qədər əzək.

– Bu halda biz nə etməliyik?

– Hesab edirəm ki, ordumuz mümkün qədər irəliyə getməlidir. Başqa yolumuz yoxdur. Nə qədər çox ərazi azad etsək, bizim üçün bir o qədər yaxşıdır...

– Və sonda yenə danışıqlar masası olacaq?

 Satış üçün nəzərdə tutulmayıb

– Bütün münaqişələrin sonunda danışıqlar masası, diplomatiya olur. Fikrimcə, biz nə qədər çox ərazimizi işğaldan azad etsək, irəliləsək, danışıqlar masasında bir o qədər güclü tərəf olacağıq. Yəni danışıqlara artıq yeni xətdən başlayacağıq. Bu baxır bizim neçə rayonu azad edəcəyimizə, Dağlıq Qarabağ istiqamətində nə qədər irəliləyəcəyimizə. Bunlardan çox şey asılıdır. Amma mümkün qədər irəli getmək lazımdır. Bir də gördünüz dünya birləşib deyir ki, amandır, qoymayın xristianları "qırırlar". Bax, o ana qədər biz irəliləməliyik.

– İşğal altında qalan və danışıqlar masasında ermənilərin bizə qarşı istifadə etdiyi ətraf rayonları götürmək diplomatiya baxımından sərfəlidir, yoxsa Dağlıq Qarabağın inzibati ərazilərini?

– Təbii ki, Dağlıq Qarabağ ərazilərini. Biz bu istiqamətdə nə qədər çox irəliləsək, bir o qədər yaxşıdır. Yox, əgər yalnız ətraf rayonları azad etsək, bu zaman Dağlıq Qarabağ toxunulmaz qalır və danışıqlar prosesi başlayır. Erməni tərəfi də başlayır özünü lovğa aparmağa. Amma biz Dağlıq Qarabağdan nə qədər çox torpağımızı işğaldan azad etsək, ermənilər elə danışıqlar masasında sakitcə oturacaqlar. Daha lovğalıqdan əsər-əlamət olmayacaq.

Reyting.az

Satış üçün nəzərdə tutulmayıb

DƏQİQ TARİXİNİ MÜƏYYƏN ETMƏK MÜMKÜN OLMAYAN YAZILAR VƏ MÜSAHİBƏLƏR

Satış üçün nəzərdə tutulmayıb

ОТВЕТЫ НА ВОПРОСЫ ГАЗЕТЫ 7 ГЮН[1]

1) В целом о так называемой "Эротической прессе" мне хочется сказать следующее:

Я считаю наличие такой прессы у нас в стране как одно важнейших условий развития демократического общества. О том, что такие газеты начали выходить, я узнал поздно, уже тогда, когда в продажи появилось несколько подобных азербайджанских изданий и самое главное таких изданий на азербайджанском языке! Я не поверил своим глазам, когда однажды увидел в киоске такую газету, по-моему это был Интерпарк. Я купил ее из интереса, открыл с некоторым опасением и нашел там следующее: наряду с эротическими фотографиями, которые давно уже свободно публикуются на Западе и вот уже лет 6–7 в России, я обнаружил тексты о сексуальной культуре на азербайджанском языке и, что самое главное, письма читателей. Эти письма поразили меня. Большинство из них было о любви, о настоящей глубокой любви. Парни и девушки, взрослые мужчины и женщины делились своими самыми тайными чувствами и личными проблемами, о которых раньше никто не смел говорить. А ведь любовь и секс составляют, по мнению психиатров, до 70% внутреннего мира каждого из нас. Человек не может быть свободен, если 70% его личной психологии находиться под запретом.

[1] Bu yazının dəqiq tarixini müəyyənləşdirmək mümkün olmayıb

Satış üçün nəzərdə tutulmayıb

Говорят, что эти письма пишутся в самой редакции. Возможно, но не верю, что все опубликованные письма там фальшивые. Но даже если это и так, то теперь у каждого появилась возможность написать такое письмо, поделиться этими жизненно важными проблемами, ведь раньше об этом и близким друзьям, не говоря еже о родителях, нельзя было рассказать. И эта проблема живет внутри человека постепенно превращая его в неврастеника или психопата, которых в восточных странах полным-полно.

Я совершенно серьезно считаю появление эротической прессы у нас в стране демократическим событием, не менее важным, чем выход первой свободной газеты "Азадлыг" в 1989 году. Лично я не ожидал, что наше общество сможет преодолеть этот барьер.

2. В законодательстве демократических стран порнография четко отделяется от эротики. Порнография – это откровенное и ясное изображение полового акта. Эротика же есть изображение обнаженного человеческого тела. По западным законах оба эти вида изображения разрешены, но подвергаются различным ограничениям (очевидно, что порнография ограничена в большей степени). Их нельзя продавать детям до 18 лет. Нельзя продавать их возле школ. Они лишены государственных дотаций как, возможно, другие издания и обычно стоят в 3-4 раза дороже простых изданий. Порнографические издания (таких пока у нас нет) продаются в специализированных магазинах и обычно они плотно обернуты в целлофан, то есть их нельзя листать и рассматривать на улице. Но запрета на них нет. И в демократическом обществе, то есть там, где индивидуальность человека ценится и уважается государством и обществом такого запрета не должно быть. Запрещена лишь пропаганда насилия и

 Satış üçün nəzərdə tutulmayıb

дискриминации, и если такое в эротической прессе появляется, то газета должна нести ответственность перед судом.

3. Что касается “национальных ценностей”, то, как я уже писал в своей книге “150 000 о демократии”, это вовсе не национальные ценности, а архаичные ценности – ценности вчерашнего дня! Если например, почитать древние германские эпосы или норвежские саги, то мы удивимся насколько эти древние люди похожи своим поведением на современных азербайджанцев. Все эти “почитание старшего”, “палаза бюрюн елнен сюрюн” “киши данышанда, арвад сусмалыдыр” и т.д. есть главные психологические препятствия на нашем пути к демократии и развитию. Было это все и у германцев, и у норвежцев, но 500 лет назад, теперь у них другие национальные ценности – свобода, здравый смысл, плюрализм, терпимость.

4. Глупо считать, что эротическая пресса развращает нашу молодежь, вспомните лет 10 назад заборы и стены в туалетах были испещрены непристойными надписями и изображениями голых тел. Сейчас что-то такого не наблюдается. Сексуальное воспитание, откровенный разговор на эту тему крайне важен, как для повышение гигиены человека, так и для его общей культуры. Что касается проституции в нашей стране, то она есть ни что иное как проявление тяжелого социального положения наших женщин, а не опубликованных фотографий обнаженных. западных звезд.

5. Я рассматриваю запрет на публикацию эротической прессы как большой шаг назад в нашем развитии. Если правительство старается что-то запретить, то пусть оно запретит своим чиновникам обворовывать наших женщин, пусть оно способствует созданию социально

 Satış üçün nəzərdə tutulmayıb

стабильной семьи, о которой мечтают наши юноши и девушки. И еще скажу, что на страницах некоторых проправительственных, да и независимых газет видишь столько безнравственности и лжи, что никакая порнография с ней в сравнение не идет. Бу халгы эротика йох, йалан, меддахлыг ве рушветхорлуг йыхачаг.

 Satış üçün nəzərdə tutulmayıb

ГРАЖДАНСКИЙ КОНТРОЛЬ НАД ВООРУЖЕННЫМИ СИЛАМИ В МОЛОДЫХ ГОСУДАРСТВАХ. НА ПРИМЕРЕ АЗЕРБАЙДЖАНА[1]

Под термином Гражданский Контроль *(Civil Control)* – в данной статье имеется в виду контроль над деятельностью государственных структур, который осуществляют граждане или их добровольные ассоциации через свободную прессу посредством свободных судов и честно избранных парламентов.

В этом смысле используемый в данной статье термин *Civil Control* отличается от термина *Civilian Control*, однако он близок к термину *Democratic Civilian Control*. Эти уточнения важны, поскольку в рамках программы *DCAF* исследователю приходится рассматривать страны, лишь формально называющиеся республиками, однако и к последним иногда пытаются применить формулу согласно которой "невоенные специалисты в военной сфере уменьшают угрозу военного конфликта", что на наш взгляд вовсе не очевидно.

Невоенный человек это еще не *гражданин* – человек наделенный правами, возможностями самоопреде-

[1] Bu yazının dəqiq tarixini müəyyənləşdirmək mümkün olmayıb

Satış üçün nəzərdə tutulmayıb

литься, человек реально участвующий в управлении государством и, как правило имеющий мирные устремления.

"The civil constitution of every state should be republican…", – писал Кант[1] исследуя возможность уменьшения угрозы войны между государствами, – *"…The reason is this: if the consent of the citizens is required in order to decide that war should be declared (and in this constitution it cannot but be the case), nothing is more natural than that they would be very cautious in commencing such a poor game, decreeing for themselves all the calamities of war…*

…But, on the other hand, – продолжал Кант, – *in a constitution which is not republican, and under which the subjects are not citizens, a declaration of war is the easiest thing in the world to decide upon, because war does not require of the ruler, who is the proprietor and not a member of the state, the least sacrifice of the pleasures of his table, the chase, his country houses, his court functions, and the like. He may, therefore, resolve on war as on a pleasure party for the most trivial reasons, and with perfect indifference leave the justification which decency requires to the diplomatic corps who are ever ready to provide it.*

* * *

Итак, наблюдение за процессом развития института Гражданского Контроля (Civil Control) в стране, только что перешедшей от советского тоталитаризма к квазидемократическому состоянию, представляет, на наш взгляд, антропологический интерес. Это то же самое, что наблюдать своими глазами развитие демократических институтов в период Французской или Американской революции.

[1] Иммануил Кант, "К вечному миру" (1795) ("On Perpetual Peace") Сочинения, Изд. "Мысль", Москва, 1966, том 6, стр. 267.

 Satış üçün nəzərdə tutulmayıb

В Советское время ни о каком гражданском контроле (Civil Control), тем более над вооруженными силами, не могло идти и речи. Но с началом Перестройки (конец 80-х) – появлением свободной прессы и неправительственных организаций положение в этой области кардинально переменилось. Молчавшее 70 лет общество разом заговорило, начало предъявлять свои права и конечно же желало знать правду, а далее и влиять на ход дел в государстве.

Отмечу, что восстановление независимости Азербайджана (1991) сопровождалось трагическими событиями, связанными с военным конфликтом между Арменией и Азербайджаном, что вывело военную тему в разряд важнейших национальных проблем. У Азербайджана к тому времени не было ни армии, ни военных специалистов, та же военная инфраструктура, что осталось от СССР быстро пришло в негодность. Военным делом занялись не имеющие военных навыков добровольцы.

Но интерес к войне и военной сфере у общества был огромен. Большая часть газетных страниц было посвящена военной теме. Через год после начала конфликта в 1990 году у независимых газет появились специальные военные корреспонденты, а вскоре и люди, называющие себя военными экспертами. Среди таковых имелись и специалисты с невоенным образованием, принимавшие участие в военных действиях на Карабахском Фронте или нанятые в министерство обороны по контракту.

Однако, активного гражданского контроля в самом начале 90-х не получалось: общество, охваченное патриотическим чувствами, готово было к любым жертвам и на плохие вести из военной сферы люди смотрели сквозь

 Satış üçün nəzərdə tutulmayıb

пальцы. Так же дело обстояло и с парламентским контролем: парламентский комитет по военным вопросам не был создан, военный бюджет утверждался без какого-либо обсуждения. По поводу нарушений закона в армии в суды пока никто не обращался.

Следующий этап в развитии института Гражданского Контроля возглавили набравшие к тому времени силу правозащитные организации: с 1992 года в их структурах стали появляться военные комиссии, которые пытались следить за порядком в вопросе призыва в армию, проблемами обращения с военнопленными, а также занимались обменами военнопленных и заложников.

В начале 1993 года при прошлом правительстве страны Азербайджанское отделение Хельсинской Гражданской Ассамблеи (ХГА), проведя широкую общественную кампанию, стала инициатором подписания страной Женевских конвенций. И уже через несколько месяцев, положения Женевской Конвенции были введены в Поведенческий Кодекс Военнослужащего Азербайджанской армии.

Тем временем военное строительство в стране развивалось ускоренными темпами. На смену тех, кого "отец социологии" Макс Вебер назвал бы "Армия как призвание" *(Army as a Calling)* пришли те, кого можно было бы назвать "Армия как профессия". К концу 1994 года в стране появилась новая стабильная социальная группа – группа профессиональных военнослужащих с их семьями, с их материальными, социальными и правовыми проблемами. Гражданское общество отвечало на эту новую ситуация созданием новых, специализирующихся в военной сфере неправитель-

 Satış üçün nəzərdə tutulmayıb

ственных организаций (НПО), названия их хорошо знакомы исследователям подобного опыта в других странах – “Солдатские Матери”, “Союз Офицеров в Отставке”, “Инвалиды Карабахской Войны”, “Защита Прав Офицеров”, “Общество Защиты Семей Военнослужащих”, “Союз офицеров запаса” и др. Эти специализированные организации, наряду с вышеупомянутыми правозащитными организациями и поддерживающими их газетами, составляют широкую коалицию, пытающуюся осуществлять гражданский контроль в военной сфере. Венцом такого контроля должен был бы стать независимый суд, имеющий право принудить исполнительную власть прекратить выявленные обществом нарушения закона, однако независимого суда, как и свободно избранного парламента у нас пока нет, как нет его и у многих молодых наций, образующихся после распада империй. Таким образом, продвижение какой-либо гражданской инициативы целиком зависит от расположения властей…

В 1995 году по инициативе нынешнего правительства была принята Конституция страны, в ней почти вся власть было передана президенту, он и является главнокомандующим вооруженными силами. Ни Конституция, ни законодательство страны никак не устанавливают участие гражданских лиц в управлении вооруженными силами. Сегодня и министр обороны, и все сотрудники его министерства являются военнослужащими. Согласно принятому 3 года назад “Закону о Судах и Судьях” решения военных судов могут быть пересмотрены в Верховном Суде Республики.

 Satış üçün nəzərdə tutulmayıb

Конституция устанавливает всеобщую воинскую повинность, есть в ней и положение об альтернативной службе, которое только сейчас, спустя 5 лет после принятия Конституции, под давлением Совета Европы, членом которого Азербайджан стал в 2001 году, начало обсуждаться в парламенте.

Одним из главных препятствий для Гражданского Контроля является то, что согласно Конституции, парламент лишен какой-либо возможности контролировать исполнительную власть. Президент и его министры не обязаны отчитываться перед парламентом. Парламент не может проводить расследования случаев нарушения законодательства. До сих пор в парламенте нет комитета по обороне и безопасности. В 1999 году под давлением общественности руководство страны пошло на создание "Комиссии по военным вопросам", однако несмотря на все усилия автора данной статьи, ему так и не удалось обнаружить какие-либо признаки деятельности Комиссия. Несмотря на требование Конституции 95-го года, парламент до сих пор не принял доктрину национальной безопасности. Всеми этими делами ведает президент и абсолютное парламентское большинство, принадлежащее партии президента, считает, что "президент знает лучше" *(President knows best).*

